“AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ” QSC
AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI

ISSN 2220-1025

AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASININ

ELMİ ƏSƏRLƏRİ

PROCEEDINGS OF

AZERBAIJAN STATE MARINE ACADEMY

№2

BAKI-2021

Baş redaktor
i.ü.f.d., dos. ***H.X.Əsədov***

Baş redaktorun müavini
t.e.d., prof. ***Z.Z.Şərifov***

Redaksiya heyəti

t.ü.f.d., dos. V.B.Sadıqov
Elmi işlər və beynəlxalq əlaqələr üzrə prorektor
(elmi redaktor)

t.e.d., prof. V. V. Panin
Dövlət İnfrastruktura və texnologiya
Universitetinin (Ukrayna) rektoru

t.e.d., prof. S.Q. Çulkin
adm. Makarov adına Dövlət Dəniz və Çay
Donanması Universiteti
(Rusiya)

t.e.d., prof. O.A. Farxi
Varna Texniki Universiteti
(Bolqarıstan)

t.e.n., dos. S.A. Oqay
adm. Nevelski adına Dövlət Dəniz Universiteti
(Rusiya)

t.e.d., prof. V. Priednieks
Latviya Dəniz Akademiyası
(Latviya)

t.e.d., prof. A.S. Vaskov
Uşakov adına Dövlət Dəniz Universiteti
(Rusiya)

t.ü.f.d., dos. E.D.Məmmədov
(məsul katib)

Bölmələr üzrə redaktorlar:

1. Gəmiqayırma və gəmi təmiri texnologiyası: *t.e.d., prof. A.T.Məmmədov;*
t.e.d., prof. N.Ş.İsmayılov.

2. Gəmiçilik və su nəqliyyatının istismarı: *t.e.d., prof. Z.Ə.Rüstəmov;*
t.ü.f.d., dos. E.O.Abbasov;
t.ü.f.d dos. F.M.Kəlbiyev.

3. Gəmiçilik texnikası: *t.e.d., prof. A.M.Qafarov; t.ü.f.d., dos. E.F.Sultanov;*
t.ü.f.d., dos. A.Ş.İsmayılov; t.e.d., prof. F.A.Vaskeviç (Rusiya);
t.e.d., prof. A.Y.Samoylenko (Rusiya).

4. Gəmiçilikdə təbiət elmləri problemləri: *t.e.d., prof. V.P.Buşlanov (Rusiya);*
t.e.d., prof. V.H.Həsənov; r.ü.f.d., dos. B.K.Ağarzayev.

****

Redaksiya:
E-mail: sciencejournal@acsc.az
http://adda.edu.az

"ADDA-nın Elmi Əsərləri" jurnalı AAK-ın nüfuzlu elmi nəşrləri siyahısına daxildir və elmi dərəcə iddiaçılarının orijinal tədqiqatlarının nəticələrini dərc edir.

ISSN 2220-1025
Qeydiyyat nömrəsi - 311, ildə iki nömrə nəşr edilir.

©Azərbaycan Dövlət Dəniz Akademiyası, 2021

MÜNDƏRİCAT

GƏMİQAYIRMA VƏ GƏMİ TƏMİRİ TEXNOLOGİYASI..... 7
Orucov F.S., Sadıqov V.B., Burhanlı R.C. Gəmi ötürücü vallarının istismar şəraitinin analitik təhlili..... 7
Фатьянова Н.В. Стабилизация свойств судовых лакокрасочных материалов с добавками наночастиц талька (НЧТ)..... 12
İsmayılov A.R., İsmayılov N.Ş. Lazer emalı rejimləri və boz çuqunun xassələri..... 22
Горчакова С. А. Фазовые превращения в порошковой быстрорежущей стали..... 31
Məmmədov A.T., Rəsulov F.R., Əbilhəsənli M.İ. Tökülərin səthinə örtükçəkmə prosesinə texnoloji amillərin təsiri..... 36
Малышко С.Б., Тарасов В.В. Влияние степени легирования стали на глубину упрочненного слоя и его микротвердость при электромеханической обработке..... 43
Shchedrolosiev O.V., Terlych S.V., Konovalova H.V. The current status and prospects of modular houseboats construction and technical exploitation……. 46

GƏMİÇİLİK VƏ SU NƏQLİYYATININ İSTİSMARI..... 56
Abbasov E.O. Böyük dairə qövsü ilə üzmə. Ortodromiya ilə üzmənin hesablanması qaydası 56
Кирносов Д.А., Саламатова А.П., Мишин А.С. Исследование вариантов решений по использованию экологического топлива в рамках политики ИМО 2020-2050 г..... 64
Лаврентьева Е.А. Организационно-экономические последствия пандемии для судоходного бизнеса..... 69
Lukas Norkevičius, Sergejus Lebedevas. Investigation of performance indicators of a harbor tug on liquefied natural gas..... 76
Muhsin Kadıoğlu Avrupa Birliği'nin İrini operasyonu ve sonuçları..... 87
Paşayev Ə.Z. Azərbaycanda nəqliyyat sektoru üzrə yükdaşımalardan əldə olunan gəlirə təsir edən amillərin ekonometrik qiymətləndirilməsi..... 93
Şirəliyev Ə.T. Koronavirus xəstəliyi (Covid-19) pandemiyasının dünya dəniz ticarət donanmasının fəaliyyətinə təsiri..... 103
Zeynalov E.A. Dəniz ingilis dili diskursunun bəzi xüsusiyyətləri..... 108

GƏMİÇİLİK TEXNİKASI..... 113
Axundov İ.S. Yanacaq verilməsinin qabaqlama bucağının 6L20 markalı baş gəmi dizelində yanma prosesinə və mühərrikin əsas göstəricilərinə təsirinin nəzəri tədqiqi..... 113
Abdullayev Y. R., Cəlilov T.A. Gəmi elektrik intiqallarında istifadə olunan tezlik çeviricilərinin təhlili..... 119
Fərhadov V.Q., Bayramova İ.P., Babayeva A.Ə. Yüksək gücləndirmə əmsalına malik izləyici robast sistemlərin sintezi..... 125
İbrahimov B.Q., Məmmədova F.V. Çoxxidmətli telekommunikasiya şəbəkələrinin buraxma qabiliyyətinin göstəricilərinin təhlili və tədqiqi..... 130
Казимиренко Ю.А., Михелев И.Л., Матвеев Н.А. Информационная поддержка управления процессами обработки данных при стендовых испытаниях камер сгорания судовых газотурбинных двигателей..... 136
Məmmədov L.V., Həsənov E.A., Məmmədov E.M. Körpü kranlarının mühərriklərinin idarəetmə sistemlərinin işinin yaxşılaşdırılması üsulları..... 142
Rzayev M.Ə. Gəmi istilik mübadilə aparatlarının effektivliyinin artırılması..... 146
Sultanov E.F., İsmayılov S.S. Gəmilərdə alternativ enerji mənbələrindən istifadə imkanlarının araşdırılması..... 151

GƏMİÇİLİKDƏ TƏBİƏT ELMLƏRİNİN PROBLEMLƏRİ……. 158
Алиева Е.Н. Построение модели УФ радиации Солнца, дошедшей уровня Каспийского моря..... 158
Алиева И.К., Алиев Х.М. Природа возбудителей термолюминесценции в полимерах.... 163
Байрамов Д.Д., Абдулова И.Н. Фотопроводимость и электрофизические свойства твердых растворов $TlIn_{1-x}Gd_xTe_2$ 170
Həsənov V.H., Kəlbiyev F.M., Bayramova F.İ., Hacıbalazadə C.R. Gəmiçilik sənayesində innovativ texnologiyalarla tökmə tərtibatlarının hazırlanma üsulları…….. 177
Quliyeva R.A., Muxtarova G.S., Həsənov V.H. Yüksək keyfiyyətli dizel yanacağının alınması 181
Гасанов Ю.Н., Мамедов С.З. Взаимодействие рабочих поверхностей деталей механических систем..... 186
Мамедов И.Р., Агаев Г.А. Построение схемы цифрового ТВ приемника с адаптивной регулировкой его чувствительности 191
Zhalgasbayeva Aliya, Nagimzhanova K.M. Information and communication technologies as a means of developing the motivation of educational activities..... 196

CONTENT

SHIPBUILDING AND SHIP REPAIR TECHNOLOGY…….. …… 7
Orujov F.S., Burhanli R.C., Sadigov V.B. Analytical analysis of the operating conditions of the ship transmission shafts..... 7
Fatyanova N.V. Stabilization of the properties of marine paint and varnish materials with additives of talc nanoparticles (NPT)…….…... 12
Ismayilov A.R., Ismayilov N.Sh. Laser processing modes and properties of gray iron…….. 22
Gorchakova S.A. Phase transformations in high-speed powder steel..... 31
Mamedov A.T., Rasulov F.R., Abilhasanli M.İ. İnfluence of technological factors on covering process on the surface of the casting…… 36
Malyshko S.B., Tarasov V.V. Influence of the degree of alloying of steel on the depth of the hardened layer and its microhardness during electromechanical treatment……..... 43
Shchedrolosiev O.V., Terlych S.V., Konovalova H.V. The current status and prospects of modular houseboats construction and technical exploitation……. 46

SHIPPING AND EXPLOITATION OF WATER TRANSPORT……. 56
Abbasov E.O. Swimming with a large circle arc. The procedure for calculating swimming with orthodromia..... 56
Kirnosov D.A., Salamatova A.P., Mishin A.S. Research of decision options on the use of ecological fuel in the problem of the IMO policy 2020-2050…….. 64
Lavrenteva E.A. Organizational-economic impact of the pandemic for the shipping business.. 69
Lukas Norkevičius, Sergejus Lebedevas. Investigation of performance indicators of a harbor tug on liquefied natural gas..... 76
Muhsin Kadıoğlu. The Irini operation of the European Union and its results……. 87
Pashayev A. Z. Econometric assessment of factors affecting the income from cargo transportation in the transport sector in Azerbaijan..... 93
Shiraliyev A.T. Effects of the choronavirus disease (Covid-19) pandemy on the activity of the world sea merchant marine fleet……..... 103
Zeynalov E.A. Some features of the Maritime English discourse..... 108

SHIPPING TECHNOLOGY……. 113
Akhundov I.S. Theoretical investigation of an influence of a fuel injection advanced angle on parameters of combustion process, and to main indicators of marine diesel engine type of 6L20. 113
Abdullayev Y.R., Jalilov T.A. Analysis of frequency converters used in the ships electrical drives 119
Farchadov V.G., Bayramova İ.P., Babayeva A.A. Synthesis of robast systems with high authority..... 125
İbrahimov B.G., Mammadova F.V. Analysis and research of indicators of the multiservice telecommunication network capacity……. 130
Kazymyrenko Y.A., Mykheliev I.L., Matveyev M.A. Information support managing data processing during stand tests of combustion chambers of ship gas turbine engines..... 136
Mammadov L.V., Hasanov E.A., Mammadov E.M. Methods of improving the operation of bridge crane engine control systems..... 142
Rzayev M.A. Improving the efficiency of ship heat exchangers..... 146
Sultanov E.F., Ismayilov S.S. Exploring the possibilities of using alternative energy sources on ships..... 151

NATURAL SCIENCE PROBLEMS IN NAVIGATION…… 158
Aliyeva E.N. Construction of a model sun UV radiation reaching the level of the Caspian Sea.. 158
Aliyeva I.K, Aliyev X.M. Transportation of awakeners thermoluminescents in polymers…… 163
Bayramov J.J., Abdulova I.N. Photoconductivity and electrophysical properties of $TlIn_{1-x}Gd_xTe_2$ solid solutions..... 170
Hasanov V. H., Kalbiyev F.M., Bayramova F.I., Hajibalazade J.R. Methods of manufacturing of cast structures with innovative technologies in the shipping industry…….. 177
Guliyeva R.A., Mukhtarova G.S., Hasanov V.H. Obtaining high-quality diesel fuel…… 181
Hasanov Yu.N. Mammadov C.Z. Interaction of working surfaces of parts of mechanical systems……..…. 186
Mammadov I.R., Aghayev H.A. Construction of digital TV receiver circuit with adaptive adjustment of its sensitivity…… 191
Zhalgasbayeva Aliya, Nagimzhanova K.M. Information and communication technologies as a means of developing the motivation of educational activities..... 196

GƏMİQAYIRMA VƏ GƏMİ TƏMİRİ TEXNOLOGİYASI

UOT:621.762.08.11

GƏMİ ÖTÜRÜCÜ VALLARININ İSTİSMAR ŞƏRAİTİNİN ANALİTİK TƏHLİLİ

Orucov F.S., Sadıqov V.B., Burhanlı R.C.

Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ1000, Bakı şəh., Z.Əliyeva küç., 18
E-mail: fazil.orujov@asco.az, rburhanli@gmail.com

Xülasə. *Məqalədə gəmi ötürücü vallarının istismar şəraitinin analitik təhlili aparılmışdır. Gəmi ötürücü vallarında çatların əsas növləri və yerləşməsi göstərilmişdir. Həmçinin ötürücü valların dayanıqlıq göstəriciləri hesablanmışdır.*

Abstract. *The article provides an analytical analysis of the operating conditions of the transmission shafts. The main types and location of cracks in the ship's gears are shown. Also the resilience of the converters has been calculated.*

Аннотация. *В статье дан аналитический анализ условий эксплуатации трансмиссионных валов. Показаны основные типы и расположение трещин судовых валопроводов. Рассчитаны показатели устойчивости валопроводов.*

Açar sözlər: *gəmi, ötürücü val, çat, polad, qüsur, istismar, konstruksiya*

Key words: *ship, transmission shaft, crack, steel, defect, exploitation, construction*

Ключевые слова: *судно, валопровод, трещина, сталь, дефект, эксплуатация, конструкция*

Giriş. Ötürücü valların istismar təcrübəsinin təhlili onun hazırlanma prosesinin təkmilləşdirilməsi üçün böyük əhəmiyyət kəsb edir. Məlumdur ki, ötürücü val istismar zamanı ciddi mexaniki təsirlərə məruz qalır və bu val xəttinin vacib detallarında bir sıra qüsurlar yarana bilər.

Ən çox rast gəlinən qüsurlar avar valında müxtəlif ölçülü və müxtəlif mənşəli çatlardır ki, onlar da bütövlükdə val xəttinin işləmə müddətində böyük təsirə malik olur. Çatların əsas növləri, yerləşməsi və onların avar vallarında baş verməsi səbəbləri də müxtəlifdir və ciddi araşdırma tələb edir.

Əsas hissə. Əvvəlcə vallarda çatların əmələ gəlməsinə təsir göstərən istismar amilləri nəzərdən keçirilməlidir. Bu məqsədlə gəmi vallarında çatların inkişafının öyrənilməsinin nəzəri əsasları hazırlanmışdır. Valların model nümunələrində çatlar boyunca intensiv gərginlik əmsalını müəyyənləşdirmək üsulu işlənib hazırlanmışdır. Valın eksperimental nümunələri üçün köhnəlmə diaqramı qurulmuş və polad 35 üçün Perisa tənliyində ***n*** və ***c***-nin sabit qiymətləri müəyyən edilmişdir. Gəmi vallarının çatlarla uzunömürlülüyünün proqnozlaşdırma üsulu hazırlanmışdır.

Qeyd etmək lazımdır ki, vaxtlı vaxtında və diqqətli texniki baxış, təhlükəli yerlərin, həmçinin zədələnmiş hissələrinin yoxlanılması avar vallarının istismar zamanı dağılmasının vaxtında qarşısını almağa imkan verir. Xarici yoxlama zamanı heç bir zədələnmə nəzərə çarpmadığı təqdirdə, valın göstərilən sahələri, hissələri maqnit və ya rəngli maqnit qüsur aşkar üsulları ilə 0,05 mm-dən çox dərinlikdə və açılış eni 0,02 mm-dən çox olan avar vallarının səthində çatları aşkar etməyə imkan verir.

Çatlar səbəbindən yararsız olan valların zədələnməsinin araşdırılması göstərir ki, onların köhnəlməsi və köhnəlib korroziyaya uğraması yararsız vəziyyətə səbəb olur. Bir qayda olaraq, çatlar ən çox valın mühərrikdən çıxışında meydana gəlir, yəni valın böyük bazasında çatların meydana gəlməsi başa düşüləndir. Vala aralıq birləşmə ilə pərçimlənmiş avar vintinə burucu moment ötürüldükdə maksimum yük aralıq valının başlanğıcına düşür. Uzununa davam edərkən avar vintinin və valın

konus səthləri arasında yaranan sürtünmə qüvvələri tərəfindən başladığı üçün burucu momentin ötürülməsində yüklənmə azalır.

Rusiya Dəniz Registri tərəfindən sertifikatlaşdırma və ya avar vallarının qüsurlarının yoxlanması zamanı qüsurlar aşkar edildikdə əsasən aşağıdakı çatlara rast gəlinir: çevrənin ətrafında yerləşən çatlar, yəni val oxuna dik olan, val oxuna maili olan çatlar və həmçinin X - formalı çatlar müşahidə olunur. Hər hansı formada və ölçüdə çatlar varsa, bu təsnifat cəmiyyətinin qaydaları və digərləri avar vallarının istismarına imkan vermir.

Konstruksiya (ölçülər, gərginlik konsentratorları) və istismar (temperatur, yükləmə tezliyi, ətraf, davamlı yükləmə rejimi) amilləri köhnəlmə nəticəsində yaranan çatların sabit inkişafına müqavimət nümunələrinə əhəmiyyətli dərəcədə təsir göstərir, nəticədə onların böyümə dövrünün uzunluğunu kritik bir ölçüdə müəyyənləşdirir.

Gəmi vallarına bu qədər ciddi tələblərin səbəbi, gərginlik toplumu olan bir çatın, dövri olaraq təsirlər-yüklər altında köhnəlməyə səbəb olacağı qənaətidir. Ancaq tədqiqatçılar, köhnəlmədən əmələ gələn çatlarının inkişaf prosesinin çox uzun ola biləcəyini və böyümə sürətindən asılı olduğunu müəyyən etdilər.


Ədəbiyyat məlumatlarına əsasən, köhnəlmədən əmələ gələn çatların böyümə sürətinə təsir edən bir neçə səbəb var. Bunlar arasında fəaliyyət göstərən gərginlik səviyyəsində dəyişikliyi, böyüməsi ilə çat ucundakı yükləmə dövrünün asimmetriyasının dəyişməsini inkişaf zamanı çatlar köhnəlmə zirvəsində vəziyyətin artmasını, çat ucunun uzunluğunu, dağılmasını və s. qeyd etmək olar.

Avar valında mövcud gərginlik səviyyəsinin azaldılması, yəni gəmi energetik qurğularının paylaşılan yüklərdə işləməsi yəqin ki, çatlamış valların kifayət qədər yüksək uzunömürlüyünü təmin edə bilər. Çatların inkişafının müasir təhlili dağılma sınıq mexanikası anlayışlarına əsaslanır, burada hissənin makroskopik məhv edilməsi, ya istehsal prosesində, ya da nümunənin sınması və ya bir hissəsinin işləməsi zamanı çatların inkişafı nəticəsində yaranır. Çatların mövcudluğunu nəzərə alaraq, sınıq mexanikası, hissəyə göstərilən gərginlik, çatların şəkili və ölçüsü, bu çatların sabit və qeyri-sabit inkişafına maddi müqavimət arasında kəmiyyət əlaqəsi vardır.

Bu sahədə fundamental əsərlər P.Peris, F.Erdoğan, L.Şkolnik, İ.Kudryavtseva, V.Tereşşenko, V.Panasyuk, V.Rumba və S.Yeryominin tədqiqatlarıdır. Müəyyən edilmişdir ki, çatların yayılma mərhələsindən nümunənin və ya hissənin tamamilə məhv edilməsinə qədər olan mərhələsi, onun böyüməsi mexanizmində fərqlənən üç xarakterik mərhələyə bölünə bilər.

Birinci mərhələ aşağı sürətlə xarakterizə olunur, çünki çat hələ də kiçikdir və irəliləməsi əsasən sürüşmə zolaqları boyunca baş verir. Çat ən yüksək normal gərginlikdə perpendikulyar istiqamətdə sabit sürətlə böyüdükdə ikinci mərhələdir. Üçüncü mərhələdə çat artıq kifayət qədər böyük ölçülərdə olduqda, böyümə sürəti kəskin artır və kövrək sınıq demək olar ki, ani olur. Çatların inkişafının belə mərhələli ayrılması, mərhələli qırıq köhnəlməsi adlanır.

Sınıq mexanikasında D.İrvinin nəzəriyyəsinə görə, çat kəskin kənarları olan bir ellips şəklində təsvir olunur (şəkil 1). Çatın kənarı çatın inkişafından asılı olaraq, çox güclü bir gərginlik toplusudur və çatın inkişaf sürəti gərginliyin intensivliyi amilindən asılıdır.



Şəkil 1. *Çat boyunca deformasiya gərginliyinin paylanması*

Qırılma mexanikası Qriffitsin kövrək sınıq nəzəriyyəsinin inkişafıdır, bunun əsasında D.İrvin sonsuz bir səth çatının uzunluğu ilə çat ucundakı gərginlik arasında əlaqə qurdu. Bu parametrlər gərginlik intensivliyilə əlaqəlidir:

$$K_1 = \sigma\sqrt{n \cdot a}\,, \tag{1}$$

burada K_1 – gərginlik intensivliyi əmsalı; σ – ümumi kəsikdə nominal gərginlik, MPa; a –çatlağın yarımuzunluğu, mm.


Çoxsayda eksperimental nəticələri ümumiləşdirərək, hər dövrdə çat uzunluğunun artımından asılılıq ifadə edilmişdir (2):

$$\frac{dl}{dN} = C(\Delta K_1)^n\,, \tag{2}$$

burada l – çatın uzunluğu, mm; N – dövrlər sayı, c və n sabitlərdir, eksperimental olaraq müəyyən edilmişdir. Əhəmiyyətli xətalar məlum olsa da n-nin dəyərləri 2<n<6 aralığındadır.

(2) bərabərliyinin tənzimlənməsinin qrafiki qırıq əyridir (şəkil 2). Əyrini 3 xarakterik hissəyə bölmək olar: A, B və C. A hissəsində əyrinin aşağı hissəsi asimptotik olaraq yaxınlaşır, gərginlik intensivliyi əmsalı ΔK_{th} qiyməti alır, bunun altında eksperimental olaraq aşkar edilə bilməyəcəyi qədər aşağı sürətdə çatlaqlar inkişaf etmir və böyümür.

A bölməsindəki yükləmə rejimləri adətən həddətrafı adlanır. B bölümünə Peris tənliyilə izah olunan əyrinin düzbucaqlı hissəsi daxildir. Bu bölmə 10^{-6}...10^{-3} mm/dövrdə orta çatlaq artım tempilə xarakterizə olunur. C bölməsi artım xarakterizə olunur; bu qeyri-sabit çatlaq böyüməsi və ya katastrofik uğursuzluq hissəsidir. Bu hissədə K_{1c} statik yük altında sınıq sərtliyinə K_t yaxınlaşır.




Şəkil 2. *Yorulma sınağının əyrisi (dağılma halı)*

Köhnəlmə (yorğunluq) sınağı diaqramı, mövcudluğu boyu çatın inkişafının əsas xarakteristikasıdır, proqnozlaşdırma nöqteyi-nəzərindən, eləcə də çatın inkişafına təsir baxımından orta bölümüdür – çatların inkişaf sürəti arasındakı loqarifmik koordinatlardan xətti asılılıq gərginlik intensivliyi əmsalının amplitudu ilə müşahidə olunur. Əyrinin bu hissəsi Perisa tənliyi ilə ən dəqiq şəkildə təsvir edilmişdir.

Tədqiqatda məqsəd QOST 1050-88-ə uyğun olaraq polad 35-dən hazırlanmış dairəvi nümunələrin (şəkil 3) köhnəlmə-yorğunluq sınığı əyrisinin qurulmasıdır. Nümunələrin forması və materialı yükləmə şəraitinin və tammiqyaslı gəmi vallarının materiallarının fiziki modelləşdirilməsi nəticəsində seçilmişdir.

Çatların tipindən, yerləşməsindən və ilkin ölçüsündən asılı olaraq müxtəlif gəmilər üçün çat olan avar vallarının dayanıqlıq göstəricilərinin hesablanması aparılır. Eyni zamanda bir neçə çatın olması halında avar vallarının dayanıqlığının qiymətləndirilməsi verilir.

Çatlar olan avar vallarının uzunömürlülük göstəricilərinin hesablanması bir neçə gəmi üçün aparılmışdır. Üç gəzinti gəmisi, dörd tanker, üç quru yük gəmisi üçün hesablamalar aparılmışdır.



Şəkil 3. *Sınaq nümunəsi*

Hesablama üçün ilkin şərtlər belə götürülmüşdür: ilkin çatlaq uzunluğu 0,1 mm-dir (bu rəngli və maqnitli qüsür aşkarlanması üsulu ilə aşkar olunan minumum çatlaqdır) və çatlağın kritik ölçüsü ilə müəyyən olunan son çatlaq uzunluğu 0,2D-dir. Avar valları məhz bu zaman tez qırılır.

Çatlar olan avar vallarının qalıq resursu ilkin çatlaq ölçülərindən əhəmiyyətli dərəcədə asılıdır. Məsələn, 1000 tonluq bir tanker üçün (cədvəl 1) hesablamalar göstərilmişdir ki, ilkin çat yarıuzunluğu 0,1 mm olan avar valının qalıq ömrü 9.835 saat və ilkin çat yarıuzunluğu 0,2 mm olduqda isə qalıq ömrü 9.254 saat təşkil edir. Yəni, çat yarıuzunluğu 0,1 mm artdıqda qalıq resurs 6-7% azalır və çat yarıuzunluğu 0,5 mm artdıqda isə qalıq ömrü 15-16% azalır.

Cədvəl 1

1000 tonluq tankerin valının uzunömürlülüyünün çatlardan asılılığı

Çatın ilkin yarı-uzunluğu a_o,Mm	Çatın son yarı-uzunluğu a_k, Mm	Ekvivalent gərginliyin amplitudu $\Delta\sigma_e$, MPa	Uzunömürlülük göstəricisi	
			N, dövr 10^6	Qalıq mənbəyi, saat
1	2	3	4	5
0,05	25	29,51	236,93	10530
0,1	25	29,51	221,29	9835
0,2	25	29,51	208,22	9254
0,5	25	29,51	175,41	7796
1,0	25	29,51	155,48	6910
1,5	25	29,51	141,73	6299
2,0	25	29,51	130,91	5818
2,5	25	29,51	121,82	5414
3,0	25	29,51	113,94	5064
3,5	25	29,51	106,94	4753
4,0	25	29,51	100,64	4473
4,5	25	29,51	94,88	4217
-	-	-	-	-
-	-	-	-	-
-	-	-	-	-
24,0	25	29,51	1,87	83
24,5	25	29,51	0,81	36

Bu işdə mühərriklə valın birləşmə bölgəsində və arxa üzlüklərin (oymaq - örtük) ucları altında (birləşmə hissəsi) meydana gələn bütün əsas çatlar üçün valların uzunömürlülük göstəriciləri hesablanmışdır. Valların uzunömürlülüyünü müxtəlif ərazilərdə əmələ gələn çatlarla müqayisə etsək, konusun böyük dayaq bölgəsində meydana gələn çatların avar vallarının qalan hissələrindən aşağı olduğu görünür. Avar vallarının konus dayağı hissəsinin sahəsi ən çox həssas hesab olunur.

Bu, həssas yerlərin əyilmə momenti və avar valının yüksək təmas gərginliyinin bu zonada cəmləşməsi ilə əlaqədardır. Avar vallarının qalıq resursunun val oxuna 45° bucaq altında olan və val oxuna perpendikulyar olan yerlərdə də çatların uzunömürlülüyə təsiri hesablanmışdır. Hesablamalar göstərmişdir ki, val oxuna perpendikulyar maili çatları olan avar vallarının qalıq resursu 5-7% daha aşağıdır.

Beləliklə, nəzərdən keçirilən bütün gəmilər üçün daxiliyanma mühərriklərinin işləməsi zamanı çatları olan avar vallarının dayanıqlıq – uzunömürlülük göstəricilərinin hesablanması ötürücü valların uzunömürlülük göstəricilərinin valların diametrində olan çatlardan asılılığı müəyyən edilmişdir. Gəminin vallarında çatlamalar varsa, qarşıya qoyulan tapşırıq ondan ibarətdir ki, qırılmamışdan öncə uzunömürlülüyü qiymətləndirmək və uzunömürlülüyü uzatmaq yolları tapılmalıdır.

Nəticə. Beləliklə, gəmi vallarının resursunun artırılması üçün materialların dağılma mexanikasına əsaslanan valların qalıq ehtiyatlarının proqnozlaşdırılması üsulu hazırlanmışdır. Nəzərdən keçirilən gəmilər üçün DYM nominal rejimdə istismar edilərkən, qalıq resurs 1060 saatdan 10530 saata, paylaşılan rejimlərdə işləyərkən nominal rejimlə müqayisədə 2 dəfəyədək artır. Polad 35-dən hazırlanan valların əsas həndəsi parametrləri müəyyənləşdirilmişdir, bunlar valların qalıq resursunu hesablamaq üçün istifadə olunmuşdur. Valın konus hissəsinin böyük bazasındakı çatlar hesabına həmin hissədə resursun az olması təsdiqlənmişdir. Valların qalıq resursunun çatların ilkin ölçüsü və valın diametrindən əhəmiyyətli dərəcədə asılılığı müəyyən edilmişdir. Valların qalıq resursunun hesablama xətalarının orta qiymətinin təxminən 7% olduğu müəyyən edilmişdir.

Ədəbiyyat

1. Александров, М.В. Об опыте сборки бронзовых облицовок с гребными и дейдвудными валами // Вестник технологии судостроения, -2001. №9, -с. 36 -38.
2. Александров, М.В. Напряженное состояние разделительного слоя между гребным валом и его облицовкой / М.В. Александров, П.М. Лысенков // Судостроение, -2001. №6, -с. 57-58.
3. Чулков, Н.А. Надежность технических систем и техногенный риск / Н.А. Чулков, А.Н. Деренок -Изд. Томского политехнического университета, ФГБОУ, ВПО, НИ ТПУ, -2012 г, -с. 149.
4. Андриенко, Л.А. Влияние изнашивания на динамические нагрузки в червячной передаче / Л.А. Андриенко, В.А. Вязников // Ж. Известия высших учебных заведений, -2011, №9.
5. Травин, С.Я. Оценка обеспечения надежности судового оборудования/ С.Я. Травин, Л.А. Промыслов. -Ленинград, «Судостроение», -1988 г. -204с.
6. Блехман, И.И. Об износе оборудования в условиях вибрации и ударных нагрузок / И.И. Блехман, Л.И. Блехман и др.// Ж. Вестник научно-технического развития, -2012 г. №11(63).
7. Хисматуллина, Л.Э. Физический износ оборудования // Теория и практика современной науки, ФБГОУ ВО КНИТУ, -2016, №10(16).
8. Острейковский, В.А.Теория надежности / В.А. Острейковский, -М.: Высшая школа, -2008. -463с.
9. Вентцель, Е.С. Теория вероятностей, Задачи и упражнения / Е.С. Вентцель, Л.С. Овчаров. -М.: Наука. -2008. -368 с.
10. Барлоу, Р. Математическая теория надежности / Р.Барлоу, Ф.Прошан, -М.: Советское радио. -2009. -488 с.
11. Нейман, Д. Теория самовоспроизводящихся автоматов / Д.Нейман. -М.: Мир. -1970
12. ГОСТ 16504-81. Испытания и контроль качества продукции. -М.: Издательство стандартов, -1981.
13. Хейли, Э.Д. Надежность технических систем и риск / Э.Д. Хейли и др. -М.: Машиностроение, -1984. -320 с.
14. Дидро, Д. Собрание сочинений в 10 томах / Д. Дидро -М.: -1947.
15. Тихомиров, А.В. Надежность судовой техники с позиции синергетики // -Н. Новгород: Вестник ВГАВТ, -2007, №22, -с.78-83.
16. Сороко, Э.М. Золотые сечения, процессы самоорганизации и эволюции систем / Э.М. Сороко. -М.: Ком-Книга, -2006. -263 с.

Məqalə qəbul olunub: 05.03.2021
Tövsiyə ediblər: t.e.d., prof. A.T. Məmmədov; t.e.d., prof. N.Ş. İsmayılov

УДК 656.6:620.193; 656.6:620.197

СТАБИЛИЗАЦИЯ СВОЙСТВ СУДОВЫХ ЛАКОКРАСОЧНЫХ МАТЕРИАЛОВ С ДОБАВКАМИ НАНОЧАСТИЦ ТАЛЬКА (НЧТ)

Фатьянова Н.В.

Азербайджанская Государственная Морская Академия
А31000, г. Баку, ул. З.Алиевой, 18
E-mail: nice.natali92@mail.ru

Аннотация. *В статье изучен процесс формирования тонкой плёнки с сохранением размера наночастиц талька. Разработана схема плёнкообразования. На основе данной схемы сформирована физическая модель структуры покрытия. Приведены расчётные и измеренные спектры эллипсометрических углов (ψ, Δ) для лакокрасочного покрытия с наночастицами талька, а также спектральные соотношения показателей преломления и поглощения наночастиц талька для основного и верхнего слоя.*

Xülasə. *Məqalədə talkın nanohissəciklərinin ölçüləri saxlanılmaqla nazik örtüyün formalaşması prosesi öyrənilib. Örtüyün əmələgəlməsi sxemi işlənilib. Verilmiş sxemin əsasında örtüyün strukturunun fiziki modeli formalaşdırılıb. Nanohissəcikli talkın lak-boya örtüyü üçün ellipsmetrik bucaqların (ψ, Δ) hesabat və ölçülən spektri, həmçinin əsas və yuxarı qat üçün talkın nanohissəciklərinin sınma və udulma göstəricilərinin spektral nisbəti verilmişdir.*

Abstract. *In this article studied the process of forming a thin film while maintaining the size of talc nanoparticles. A film formation scheme was developed. Based on this scheme, a physical model of the coating structure was formed. The calculated and measured spectra of ellipsometric angles are given for paint coating with talc nanoparticles, as well as spectral ratios of refractive indices n and absorption to talc nanoparticles for the main and upper layers.*

Ключевые слова: *лакокрасочные покрытия. пленкообразование, тальк, нанонаполнители, пленкообразующие вещества, пигментная паста*

Açar sözlər: *lak-boya örtükləri, plyonka əmələgətirmə, talk, nano-doldurucular, plyonka əmələgətirici maddələr, piqment pastası*

Key words: *paint coatings, film formation, talc, nanofill, film-forming substances, pigment paste*

Введение. Способность к пленкообразованию - одно из основных требований к лакокрасочным материалам. Под пленкообразованием понимают процесс перехода материала из жидкого или вязкотекучего состояния в твердое на поверхности подложки с образованием адгезированной пленки.

Переход пленкообразующего вещества из вязкожидкого состояния в твердую сплошную пленку, прочно прилипающую к поверхности покрываемого изделия, зависит от соотношения сил адгезии между молекулами пленкообразователя и сил адгезии между пленкообразователем и покрываемой поверхностью.

Основная часть. Формирование тонкой плёнки с сохранением размера наночастиц талька в целях обеспечения биоцидной функции представляет особый практический интерес. Для определения структуры сформированного лакокрасочного покрытия с наночастицами талька методом эллипсометрии была разработана схема плёнкообразования (рис.1) [1].

На 0 стадии частицы, в процессе испарения воды, контактируют друг с другом, образуя при этом гель (1 стадия), который при последующем высыхании деформируется. В процессе разрушения на поверхности адсорбционно-гидратных оболочек (2 стадия) через границы частиц диффундирует, при этом формируется сплошная плёнка (3 стадия).

На основе данной схемы была сформирована физическая модель структуры покрытия (рис.2) [2], основываясь на которую была произведена съёмка эллипсометрических углов Δ и ψ (рис.3), и решение обратной-эллипсометрической задачи, что дало возможность определить параметры слоёв покрытия (таблица 1 и рис.4) [3].





Рис. 1. *Многослойная модель лакокрасочного покрытия*



Стадия 0. Акриловая дисперсия с НЧТ после нанесения
Введенные в раствор НЧТ
Частицы полимера

Стадия 1. Испарение воды и стабилизации латекса
Выделение коалесцента в осадок
НЧТ стремятся в верхний слой покрытия

Стадия 2. Образование геля с необратимыми межчастичными контактами
Коалесцент
НЧТ находятся в среде коалесцента и в межфазных слоях акриловой дисперсии

Стадия 3. Испарение коалесцента и формирование пленки
НЧТ полностью переходят в верхний слой

Рис. 2. *Схема процесса плёнкообразования лакокрасочного покрытия при добавке наноталька*




Рис. 3. *Расчётные и измеренные спектры эллипсометрических углов (ψ, Δ) для лакокрасочного покрытия с наночастицами талька*






Рис. 4. *Спектральные соотношения показателей преломления n (1,2) и поглощения к (3,4) наночастиц талька для основного (1,3) и верхнего слоя (2,4)*

Установлено, что наночастицы талька наиболее эффективно конденсируются в верхнем слое покрытия, в то время как содержание их в основном слое близко к нулю.


Представленную схему процесса плёнкообразования из АД (акриловой дисперсии) с участием коалесцентов хорошо согласуют с полученными способом эллипсометрии данными. Это подтверждено характером поверхности (рис.5) [4]: однородностью лакокрасочного покрытия с нано-частицами талька, в составе которых имеется пропиленгликоль и шероховатостью, обусловленной отсутствием коалесцента для контрольных образцов.



а)



б)




в)

Рис. 5. *Микроструктура образцов покрытий составов: а – контрольный; б – акриловый с пропиленгликолем и водным раствором наночастиц талька; в – пропиленгликолевый раствор и наночастиц талька с акриловым покрытием*

Вода, выделяемая на поверхность при формировании лакокрасочного покрытия и пропиленгликоль наночастицами талька, стабилизированными в них, дают возможность зафиксировать приповерхностное положение растворённого талька в виде наночастиц в случае водного раствора.

Наиболее важными критериями при подборе нанонаполнителей являются монодисперсность, химическая инертность и размер, их технологические свойства, а также доступность.

Тальк и кальцит являются природными материалами широкого диапазона распределения по размеру (рис. 7) [5], а также характерной формой частиц (рис.6, б, в) [6], что объясняется структурой их кристаллических решёток. Например, полученный способом газофазного синтеза тальк обладает сферической формой частиц (рис. 6, а) и дисперсностью, близкой к моноразмерности.



а)

б)

в)

Рис. 6. *Микроструктура применяемых наполнителей: а – рутил; б – кальцит; в – тальк*




Рис. 7. *Гранулометрический состав кальцита, талька и рутила*

Таблица 1

Параметры слоёв сформированных покрытий

Наименование слоя	**Толщина слоя d, нм**			**Показатель преломления n**			**Объемный состав слоя (акрил/серебро/воздух), %**		
	Контр. без НЧТ	**Водн. НЧТ**	**Глик. НЧТ**	**Контр. без НЧТ**	**Водн. НЧТ**	**Глик. НЧТ**	**Контр. без НЧТ**	**Водн. НЧТ**	**Глик. НЧТ**
Шерохо-ватость	10,2	-	-	1,4145			-	-	-
Верхний слой	-	50,1	45,5	-	1,3622	1,4842	-	36,81/ 9,16/ 54,03	44,50/ 46,49/ 49,04
Основной слой	9655,7	1240,6	1819,1	1,5189	1,5015	1,5113	-	99,38/ 0,62/ 0	100/ 0/ 0
Интер-фейс	64,3	-	-	1,5124	-	-	-	-	-
Подложка	106	106	106	1,5061	1,5061	1,5061	-	-	-

Установлено, что по сравнению с кальцитом, тальк показывает свойственную слоистым минералам низкую плотность упаковки (η=0,262) при равном среднем размере частиц (~ 7-8 мкм) и при ширине распределения согласно размеру (от 0,5 до 50 мкм). При разработке пигментных паст, производимых на их основе, требовалось повысить плотность упаковки талька посредством более дисперсного рутила (1,17 мкм, η=0,625), а также более дешёвого и упакованного плотнее кальцита (η=0,5) [7].

Для того, чтобы в пигментной пасте рассчитать плотности упаковки зёрен (σ_n), используется принцип бимодальных упаковок, взятый для конкретного класса распределения зёрен наполнителей и пигментов в смеси:

$$\sigma_n = \sigma_{n-1} + \frac{1-\sigma_{n-1}}{\left(\frac{\sigma_{n-1}}{\eta_n}\right)^k}\psi_{i,j}^m$$

где *к* является коэффициентом раздвижки зёрен, который состоит из n-1фракций;

$\psi_{i,j}^m$ – степень заполнения в крупной фракции свободного объёма частицами мелкой классом m, для смеси из двух фракций выбиралось в зависимости от d_n/d_1 [8].

Таблица 2

Состав пигментной пасты

Единица измерения	Рутил	Тальк	Кальцит	Сумма
Объёмных ед.	32,77	26,2	100	158,97
Массовых ед.	131,08	69,43	270	470,51
% масс.	27,86	14,76	57,38	100

Для того, чтобы определить объём вводимой фракции (φ_n), используется данное соотношение, основываясь на которое разработали состав пигментной пасты (таблица 2) [9], с критической объёмной концентрацией пигментов (КОКП) 0,75:

$$\varphi_n = 1 - \sigma_{n-1}\frac{\eta_n}{\sigma_{n-1}}\left(\frac{\sigma_{n-1}}{\eta_n}\right)^k \cdot \sum_{i=1}^{n-1}\varphi_i$$

Достоверность расчётных данных по критической объёмной концентрации пигментов подтверждается расчётными (уравнением Гута-Гольда) и измеренными реологическими характеристиками, стойкостью, а также внешним видом [10].

Для исследования возможности блокирования микрочастицами талька и рутила активных центров на поверхности кальцита, положительно заряжённых, а также общего с ними действия натрия ТПФ (триполифосфата) и натриевой соли КМЦ (карбоксиметилцеллюлозы), пигментная паста подвергается измельчению в лабораторном диссольвере.

Установлено, что средний заряд частиц пигментной пасты возрастает в промежутке 0-20 минут измельчения (рис.8) [11], что идентично увеличению площади поверхности частиц кальцита, которое происходит посредством разрушения его агрегатов.



Рис. 8. *Изменение удельной поверхности и заряда пигментной пасты при измельчении*





Рис. 9. *Микроструктура пигментной пасты после измельчения*



а) *б)*

Рис.10. *Макроструктура (а) и микроструктура (б) судовой поверхности с нанесённой на него грунтовкой*

Следовательно, соответственно изученной агрегативной устойчивости, стабильность наночастиц талька не снижается компонентами лакокрасочных материалов.

В связи с этим на основе стирол-акриловой дисперсии АС-10 разработали грунтовку, которая состоит из 80% воды, 15% полимерной дисперсии, 5% комплексной добавки. Данный состав обеспечивает гидрофобизацию поверхности, укрепление мелящего основания за счёт впитывания (рис.10) [13] и уменьшение щелочных выделений (рис.11) [14].

Исследования разработанных составов лакокрасочных материалов проводились в условиях лаборатории методом смывки с поверхности.

Установлено, что разработанная структура лакокрасочных покрытий с наночастицами талька обладает бактерицидной активностью и имеет прямо пропорциональную зависимость от количества, введённого в раствор наночастиц талька (рис. 12).




Рис. 11. *Объём щелочных выделений из подложки и покрытия с нанесённой на него грунтовкой и без грунтовки*




Рис. 12. *Снижение обсеменённости образцов краски в соответствии с количеством введения наночастиц талька: КХ – контрольный, ВХ – водный, ГХ – гликолевый раствор наночастиц талька, где Х – это количество введения раствора наночастиц талька, в %*

Выводы. Таким образом, основываясь на выполненные экспериментальные исследования, нами предложен метод стабилизации лакокрасочных материалов с наночастицами талька, а также разработан режим и метод на базе диссольверных технологий производства. Посредством этого метода наночастицы талька предохраняются от потери устойчивости и щелочного воздействия. Высокие скорости сдвига при помоле создают возможность успешного применения технологических и экологически чистых наполнителей для судовых ЛКМ.

Литература

1. Фатьянова, Н.В. Principles of selection of marine paint and coating materials and coating systems // Тезисы докл. XVI Межд. конф. молодых учёных «Молодёжь в науке 2019», -Минск: -2019, - с. 240-242.
2. Тюканько В.Ю., Островной К.А. Дюрягина А.Н., Пономарева Е.Б., Ширин С.А., Буйнова О.А. Модифирование кремнийорганических ЛКМ азот- и фосфорсодержащими поверхностно-активных веществ// Сборник трудов шестой межд. научно-практ. конф. «Исследование, разработка и применение высоких технологий в промышленности», – СПб., -2007, – с. 204.
3. Пат. 212256 РФ C09C1/62 (2006.01), C09C3/08 (2006.01), C09C3/12 (2006.01). Способ получения антикоррозионного пигмента на основе фосфатов алюминия и молибдена / ЗАО «Производственная фирма «Оксид»»; заявитель и патентообладатель ЗАО «Производственная фирма «Оксид»»; заявл. 01.07.1997, Бюлл. №9, 6 с.
4. Karpov U.A., Orlova V.A., Mironova I.V. Head-spays analysis of paints. //Proceedings of the 14-th International Conf. of the Israel Society for Quality. -2002. -p. 540-541.
5. Клестов, М.М. Основные этапы развития отечественной науки в области технологии судостроения // -1997. №3.
6. Дринберг, А.С. Антикоррозионные грунтовки / А.С.Дринберг, Т.В.Калинская, Э.Ф.Ицко// -Санкт-Петербург: ООО «НИПРОИНС ЛКМ и П с ОП», -2006, -168 с.
7. Дринберг, А.С. Растворители для ЛКМ/ А.С. Дринберг, Э.Ф. Ицко // -Санкт-Петербург: Химиздат, -2003, -216 с.
8. Максимов, А.Е. Механизация окраски наружных поверхностей корпусных конструкций в судостроении / А.Е. Максимов, Е.Л. Вакс, Е.К. Чирко // -1980. №4.
9. Михайлова, М.Л. Технологические резервы повышения долговечности ЛКП / М.Л. Михайлова, В.Д. Пирогов // Лакокрасочные покрытия и их применение. -2000. №7, -с. 16.
10. Барский, А.М. Пат. 241745 РФ C09C1/62 (2006.01), C09C3/08 (2006.01), C09C3/12 (2006.01). Антикоррозионный пигмент / И.А. Толмачев, А.С. Янковский. заявитель и патентообладатель Барский А. М. – 2009114560/05; опубл. 20.10.2010, Бюлл. №29, -6 с.
11. Фатьянова, Н.В. Применение наночастиц минерального наполнителя – талька в ЛКП // Сб. ст. XXIII Республиканской научной конф., -Баку: -2019, - с.16.
12. Фатьянова, Н.В. Принципы выбора судовых ЛКМ и систем покрытий. // Сб. мат. межд. науч. конф. «Актуальные проблемы и пути их решения при производстве строительных материалов», посвящённой памяти проф. Б.С.Сафарова, -Баку: -2018, -с. 147.
13. Фатьянова, Н.В. Методы расчёта расходов судовых ЛКМ// Научный журнал «Транспортное дело России», -М.: -2019г., -с. 156-157.
14. Салькеева, Л.К. Диспергирование пигментов фосфорсодержащими соединениями/ Л.К. Салькеева, А.Н. Дюрягина, В.Ю. Тюканько, К.А. Островной // Караганда, -2008. №3. -с. 69-74.

Məqalə qəbul olunub: 03.03.2021
Tövsiyə ediblər: t.e.d., prof. A.T. Məmmədov; t.e.d., prof. N.Ş. İsmayılov

UOT 621.742.571.

LAZER EMALI REJİMLƏRİ VƏ BOZ ÇUQUNUN XASSƏLƏRİ

İsmayılov A.R., İsmayılov N.Ş.

Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ1000, Bakı şəh., Z. Əliyeva küç.,18
Azərbaycan Texniki Universiteti
AZ1073, Bakı şəh., H. Cavid pr., 25
E-mail: nizism@mail.ru

Xülasə. *Lazer emal rejimlərinin boz çuqunun struktur və xassələrinə təsiri tədqiq olunmuşdur. Müəyyən olunmuşdur ki, lazer emalının əsas parametrləri - emal gücü və emal sürəti qum-gil və mərkəzdənqaçma qəliblərində alınmış oymaqların yeyilmə xarakteristikalarına əhəmiyyətli təsir göstərir. Təyin olunmuşdur ki, silindr oymaqlarının minimal yeyilməsinə lazer şüasının gücü P = 1250...1300 Vt və emal sürəti V = 6...7 mm/san (qum-gil qəlib), P =1200...1300 Vt və V = 4,5...6 mm/san (mərkəzdənqaçma tökmə üsulu) olduqda nail olunur.*

Abstract. *The effect of the laser treatment regime parameters on the structures and the properties of gray cast iron has been investigated. It has been established that the basic parameters of laser treatment - the power and speed of treatment has a significant impact on the wear of cylinder sleeves, obtained in sand-clay and centrifugal forms. It has been determined that minimal sleeve wear is provided at the power of the P=1200..1300 Wt laser and processing speed V= 4...6 mm/s.*

Аннотация. *Исследовано влияние режимных параметров лазерной обработки на структуры и свойства серого чугуна. Установлено, что основные параметры лазерной обработки – мощность и скорость обработки оказывает существенное влияние на характеристики износа цилиндровых втулок, полученных в песчано-глинистых и центробежных формах. Определено, что минимальый износ втулок обеспечивается при мощности лазера P=1200..1300 Вт и скорости обработки V = 4...6 мм/с.*

Açar sözlər: *rejim parametrləri, lazer emalı, struktur və xassələr, boz çuqun, oymaqların yeyilməsi*

Key words: *modes of parameters, laser treatment, structure and properties, grey cast iron, sleeve wear*

Ключевые слова: *режимные параметры, лазерная обработка, структура и свойства, серый чугун, износ втулок*

Giriş. Gəmi dizellərinin mürəkkəb istismar şəraiti hissələrin yüksək yeyilməsinə səbəb olur və gəmi təmirinə daha çox vəsaitin xərclənməsinə gətirib çıxarır (1,2). Gəmi mühərriklərinin istismar müddəti xeyli dərəcədə silindr-piston qrupu (SPQ) detallarının texniki vəziyyətindən asılıdır.

SPQ-nin daha çox yüklənmiş detallarından biri silindr oymağıdır (SO), onun yeyilməsi mühərrikin işləmə dövrünü müəyyən edir (3,4). Odur ki, gəmi dizelləri silindr oymaqlarının yeyilmə xarakteristikaları və resursunun artırılmasına ciddi ehtiyac vardır.

Oymaqların möhkəmləndirilməsinin kifayət sayda üsulları mövcuddur: xromlaşdırma, azotlama, izotermik tablama və s. Lakin texnoloji proseslərin əmək tutumu, mexaniki emala optimal payların verilmə zərurəti bu metodların səmərəli istifadəsini məhdudlaşdırır (5,6).

Əhəmiyyətli tədqiqatların aparaılmasına baxmayaraq, oymaqların etibarlı möhkəmləndirilməsi texnologiyaları mövcud deyildir. Ona görə də silindr oymaqlarının yeyilməyə davamlılığının artırılması problemi hələ də aktuallıq kəsb edir.


Tədqiqatın əsas məzmunu. Əvvəlki tədqiqatlar göstərir ki, qum-gil qəlibdə və mərkəzdənqaçma texnologiyası ilə hazırlanmış və işçi səthi möhkəmləndirilmiş boz çuqunun

strukturu və fiziki-mexaniki xassələri əhəmiyyətli dərəcədə lazer emalının rejim parametrləri, xüsusilə emal gücü və sürətindən asılıdır (6,7).

Boz çuqundan (СЧ25) iki üsulla: mərkəzdənqaçma və qum-gil qəliblərdə hazırlanan silindr oymaqlarının lazerlə möhkəmləndirilməsinin müxtəlif rejimləri öyrənilmişdir. Məlumdur ki, mərkəzdənqaçma tökmə üsulu daha mütərrəqi və texnolojidir, çünki bu halda alınan çuqunun strukturu daha kip olur.

Lazer emalının oymağın materialına təsirinin qiymətləndiriləmə meyarları kimi: səth qatının bərkliyi (HV), qatlar üzrə mikrobərkliyin dəyişməsi, tablanma dərinliyi h, yeyilmə və variasiya amillərinin bütün diapozonunda mikrostruktur götürülmüşdür.

Tədqiqatlarla müəyyən olunmuşdur ki, mikrobərkliyin (HV) dəyişməsi lazer emalının zonalarının dərinliyi üzrə əsasən lazer şüasının gücündən P asılıdır (şək. 1 və 2). Lazerin gücünü 700-dən 1700 Vt-dək artırdıqda səthin mikrobərkliyi HV 750-dək (qum-gil qəlibə tökmə) artır və bu, qrafitin sürətli həll olması, mikroməsamələrin miqdarının azlması və ledeburitin miqdarının artması ilə əlaqədardır.




Şək. 1. *Lazerin gücündən P asılı olaraq emal zonalarının dərinliyi h üzrə mikrobərkliyin HV dəyişməsi (qum-gil qəlib)*

1) —— $h_{0,02}$, 2) —— —— $h_{0,12}$, 3) —— ° —— $h_{0,22}$,
4) —— □ —— $h_{0,32}$, 5) —— • —— $h_{0,42}$, 6) —— ■ —— $h_{0,52}$

Mikrobərkliyin maksimal qiyməti (HV 900) mərkəzdənqaçma tökmə üsulu ilə alınmış çuqun oymaqlar üçün P = 1700 Vt olduqda alınır. Qum-gil qəliblərdə alınmış çuqunlarda 0,12 mm dərinlikdə P = 700 Vt olduqda mikrobərklik cüzi dəyişir. Bu, lazer emalının yüksək sürəti və aşağı gücü (strukturu dəyişmək üçün) ilə izah olunur.

≥ 0,22 mm dərinlikdə yerləşmiş qatlarda mikrobərkliyin azacıq azalması baş verir. Bu onunla izah olunur ki, bu qatlarda yəqin ki, tabəksiltmə strukturu əmələ gəlir.

Lazerin gücünün sonrakı artırılması (P > 1700 Vt) zamanı bərkliyin müəyyən qədər azalması baş verir. Aydındır ki, bu halda qrafit demək olar ki, bütünlüklə həll olunmuşdur, lazerin gücünün artırılması isə austenitin miqdarının artmasına və soyutma sürətinin azalması hesabına martensitin miqdarının azalmasına gətirib çıxarır, həmçinin karbonsuzlaşma səbəbindən sementitin miqdarının azalması baş verir.



Şək. 2. *Lazerin gücündən P asılı olaraq lazer emalı zonanın dərinliyi h üzrə mikrobərkliyin HV dəyişməsi (mərkəzdənqaçma tökmə üsulu)*


1) ——— $h_{0,02}$, 2) — — — $h_{0,12}$, 3) — ° — $h_{0,22}$,
4) — □ — $h_{0,32}$, 5) — • — $h_{0,42}$, 6) — ■ — $h_{0,52}$

Müəyyən olunmuşdur ki, lazer emalının rejimləri lazer təsiri zonalarının dərinliyi və eninə birbaşa təsirə malikdir. Şək. 3-də lazer emalı zonasının dərinliyi h və eni b-nin lazer şüasının sürəti və gücündən asılılığı göstərilimişdir. Lazer şüasının gücünün artırılması ilə termiki möhkəmlənmə zonasının eni və dərinliyi artır.

Sürət V > 3 mm/s və güc P > 500 Vt olduqda ərimə zonası yoxdur, çuqunun mikrostrukturunda ancaq dərinliyi 0,2 mm-dən çox olmayan bərk fazanın tablanma zonasını müşahidə etmək olar. Şüalanma gücünü 900 Vt-dək yüksəltdik də və sürət V = 1,2 mm/s olduqda ərimə zonasının səthində mikro nahamarlığın böyük hündürlükləri (Rz = 100...160mkm) və ərimiş cığırların qeyri-bərabər eni müşahidə olunur.


Emal sürətinin artırılması isə termiki təsir zonasının üst hissələrində qrafit birləşmələri ətrafında matrisanın karbonla doyma dərəcəsinin azalmasına gətirib çıxarır. Termiki təsir zonasının aşağı hissəsində austenit çevrilmələrinin qızdırma zamanı başa çatmaması və bərk məhlul karbonla daha az doyur. Nəticədə lazer emalının dərinliyi və eni sürətin azrtması zamanı hiss olunacaq dərəcədə azalır.

Lazer emalının gücünün müxtəlif üsullarla alınmış boz çuqunların möhkəmləndirilmiş zonasının dərinliyinə təsiri şək. 4 və 5-də göstərilmişdir. Göründüyü kimi, gücün dəyişməsi daha böyük təsiri mərkəzdənqaçma üsulu ilə alınmış СЧ25 çuqunun termomöhkəmləndirmə dərinliyinə göstərir.




Şək. 3. *Lazer emalının zonasının dərinliyi h və eninin b sürət V və gücündən P asılılığı:*

1) ——— h(v) , 2) —— —— h(ρ),
3) —— □ —— h(v) 4) —— • —— h(ρ) ,



Şək. 4. *Şüanın gücünün P lazer emalı zonası dərinliyinə h təsiri (qum-gil qəlib)*

1) —— ° —— h, 2) —— □ —— h_{TTZ} , 3) ——— h_{LEZ} ,



Şək. 5. *Şüanın gücünün P lazer emalı zonasının dərinliyinə h təsiri (mərkəzdənqaçma tökmə üsulu)*

1) —— ° —— h, 2) —— □ —— $h_{ЗТФ}$, 3) —————— $h_{ЗЛО}$,

Belə ki, çuqunun ərimə zonası (mərkəzdənqaçma tökmə üsulu) P > 700 Vt olduqda müşahidə olunur, eyni zamanda torpaq qəliblərə tökülmüş çuqunlarda belə zona P = 800...900 Vt olduqda yaranır.

Lazer şüasının gücünü 900...1700 Vt-dək intervalda qaldırdıqda mərkəzdənqaçma üsulu ilə tökülmüş çuqun oymaqlarda laer möhkəmlənməsinin dərinliyi 2 mm - dək artır, qum - gil qəliblərdə hazırlanmış çuqunlarda bu göstərici 1,6 mm təşkil edir.

Çuqunun möhkəmlənmiş zonasının dərinliyi üzrə mikrobərkliyin paylanma xarakteri şək. 6-da təqdim olunur. Lazer emalının gücü 520...1700 Vt olduqda dərinlik üzrə mikrobərkliyin azalmasının ümumi qanunauyğunluğu müşahidə olunur. P = 1280 Vt olduqda lazer emalı zonasının səthində mikrobərkliyin müşahidə olunan azalması münasib şəraitdir, çünki materialın uyuşma prosesi daha az vaxt ərzində baş verəcəkdir.


Bu zaman lazer emalından sonra silindr oymaqlarının ,,uyuşma" əməliyyatının əmək tutumu azalır. Uyuşmadan kontakt səthlərində 0,05...0,07 mm dərinlikdə mikrobərklik HV = 800 kq/mm^2 - dək artır, yüksək yeyilməyə davamlı mikrostrukturun formalaşması gedir.

Belə qalınlıqda xərdadənəli sementit birləşmələrilə austenit – martensit sahələri müşahidə olunur. Struktur təşkiledicilərinin, qrafit və perlitin (Гр, Гп, Пд, Пп – uyğun olaraq) miqdarının boz çuqunun ərimə zonasının dərinliyinə təsiri şək. 7 və 8-də göstərilmişdir.

Sınaqlarda nümunələr güc P=520...1700 Vt və sürət V=10 mm/s olduqda möhkəmlən-dirilmişdir. Torpaq qəliblərdə alınmış çuqun oymaqların lazer emalının dərinliyini artırmaq üçün qrafit birləşmələrinin ölçüsü 95 mkm-dən az onların faizlə miqdarı isə maksimal olmalıdır. Perlitin də ölçüləri və miqdarı da lazer emalının dərinliyinə eyni cür təsirə malikdir. Perlitin ölçüləri 0,9 mkm-dək və onun miqdarı 88%-dən çox olduqda lazer emalının dərinliyi artır.


Mərkəzdənqaçma tökmə üsulu ilə alınmış çuqunlarda qrafit birləşmələrinin böyüməsilə lazer emalının dərinliyinin azacıq artımı baş verir. Qrafitin faizlə miqdarının artması isə tərs asılılığa səbəb olur. Lazer emalının dərinliyini artırmaq üçün perlitin maksimal qatılığı və minimum ölçülərini əldə etmək zəruridir. Qrafitin ölçüsü və perlitin faizlə miqdarının yeyilməyə təsiri şək. 9 və 10-da göstərilmişdir. Bu amillərin yeyilməyə təsir xarakteri töküklərin baxılan alınma üsullarında eyni qanunauyğunluğa malikdir. Qrafitin ölçüsü 100 mkm-dək və miqdarı 90%-dək artırdıqda çuqunun yeyilməyə davamlılığı azalır.

Qrafitin ölçülərinin 100 – 110 mkm intervalında və perlitin miqdarı 90...92% olduqda maksimal yeyilmə müşahidə olunur. Odur ki, yeyilməni azaltmaq üçün perlitin maksimal qatılığına və qrafit birləşmələrinin 110...130 mkm ölçüsünə malik struktur əldə etmək lazımdır.




***Şək. 6**. Sürət V = 10 mm/s olduqda gücün P dərinlik üzrə mikrobərkliyə HV təsiri:*

1) ——— P = 520 Vt , 2) — — P = 930 Vt , 3) —°— P=1280Vt ,
4) — □ — P = 1570 Vt , 5) —▪— P= 1700 Vt




***Şək. 7.** Qrafitin (Гр, Гп) və perlitin (Пд, Пп) ölçü və miqdarının lazer emalı zonasının dərinliyinə h təsiri (P = 520...1700 Vt, V = 10 mm/s, qum-gil qəlib)*

1) — — Гр, 2) —°— Гп ,
3) — □ —Пд, 4) ——— Пп



Şək. 8. *Qrafitin və perlitin ölçü və miqdarının (Гр, Гп və Пд, Пп) lazer emalı zonasının dərinliyinə h təsiri (P = 520...1700 Vt, V = 10 mm/s, mərkəzdənqaçma tökmə üsulu)*


1) ——— ——— Гр, 2) ——— ◦ ——— Гп,
3) ——— □ ——— Пд, 4) ——————— Пп



Şək. 9. *Şüanın gücü P, qrafitin ölçüsü Гр və perlitin miqdarının Гп boz çuqunun yeyilməsinə W təsiri (qum-gil qəlib)*


1) ——————P, 2) ——— ——— Гр , 3) ——— ◦ ——— Гп

$$E_{infilyasiya} = \frac{\propto_2 \times \overline{x_2}}{\bar{y}} = \frac{33{,}033 \times\ 6{,}23}{2171{,}955} = 0{,}094751$$


$$E_{invest} = \frac{\propto_3 \times \overline{x_3}}{\bar{y}} = \frac{0{,}254 \times\ 1472{,}864}{2171{,}955} = 0{,}172245$$

Aparılmış hesablamalar göstərir ki, Azərbaycan Respublikasında əsas fondların dəyərinin dəyərinin 1% artması, nəqliyyat sektorunda yükdaşımalardan əldə olunan gəlirin 0,98% artmasına, infilyasiya səviyyəsinin 1% artması nəqliyyat sektorunda yükdaşımalardan əldə olunan gəlirin 0,095 % artması, nəqliyyat sektoru üzrə əsas kapitala yonəldilmiş investisiyalar həcminin 1% artması nəqliyyat sektorunda yükdaşımalardan əldə olunan gəlirin 0,17% artması ilə nəticələnir.

2000-2019-cu illər üzrə Azərbaycan Respublikasında nəqliyyat sektorunda yükdaşımalardan əldə olunan gəlir ilə Eviews proqram paketinə əsasən əsas kapitala yönəldilmiş investisiyaların həcmi, nəqliyyat sektoru üzrə əsas fondların dəyəri, ölkə üzrə illik infilyasiya səviyyəsini ifadə edən dinamik dəyişikliyin qrafiki aşağıdakı kimi alınmışdır.

Qrafik 4

2000-2019-cu illər üzrə Azərbaycan Respublikasında nəqliyyat sektorunda yükdaşımalardan əldə olunan gəlir və ona təsir edən amillərin dinamik dəyişikliyi



Mənbə: *Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Qeyd etmək lazımdır ki, tədqiq olunan göstəricilər arasındakı əlaqənin sıxlığını qiymətləndirmək üçün cüt korrelyasiyanın xətti əmsalı hesablanır. Bu əmsal aşağıdakı düstura əsasən müəyyən edilir.

$$r_{xy} = \frac{\sum(y-\bar{y})(x-\bar{x})}{\sqrt{\sum(y-\bar{y})^2 \sum(x-\bar{x})^2}} \quad (1)$$

Əmsalın qiyməti [-1; 1] aralığında dəyişir. r_{xy}-əmsalının vahidə yaxın olması bu göstəricilər arasında sıx korrelyasiya asllılığının olduğunun göstərir. $r_{xy} = 0$ olması isə xətti asılılığın olmadığını göstərir. Əmsalın sıfra bərabər olması tədqiqat obyektləri arasında xətti asılılığın olmamasına baxmayaraq, qeyri-xətti asılılıq da ola bilər. Göstəricilər arasındakı asılılığ dərəcəsi əsasən Çeddok şkalasına görə müəyyən edilir.

Qeyd etmək lazımdır ki, cüt korrelyasiyanın xətti əmsalı eyni zamanda səbəb və nəticə göstəricilərinin istiqamətini də müəyyən edir. Belə ki, əgər $r_{xy} > 0$ olarsa, göstəricilər arasında düz əlaqə vardır. Yəni, səbəb amilinin (x) artması ilə nəticə göstəricisinin (y) qiyməti də artır. Əgər, $r_{xy} < 0$ olarsa, bu halda göstəricilər arasında əks əlaqə mövcuddur. Yəni, səbəb amilinin(x) artması ilə nəticə göstəricisinin (y) qiyməti azalır. Cüt korrelyasiyanın xətti əmsalını təyin etmək üçün KORREL statistik funksiyasından istifadə edilir. Bu asılılıqda determinasiya əmsalı aparılmış hesabata əsasən 0,952-ə bərabərdir.


Eviews tətbiqi proqram paketinə əsasən cədvəl (2) məlumatlarına görə çoxluq korrelyasiya əmsalının R=0,952 olması Azərbaycan Respublikasında nəqliyyat sektorunda yükdaşımalardan əldə olunan gəliri ifadə edən Y asılı dəyişəni ilə modelə daxil olan amilləri ifadə edən sərbəst dəyişənlər (X1, X2 və X3) arasında əlaqənin olduqca yüksək olmasını göstərir. Determinasiya əmsalının R2=0,9599 olması o deməkdir ki, müvafiq reqressiya tənliyi 96,0% dispersiya nəticə göstəriciləri ilə, 4,0%-i isə digər amillərin təsiri ilə izah edilir. Determinasiya əmsalının yüksək olması reqresiya

tənliyinin ilkin verilənləri daha yaxşı ifadə etməsi və nəticə amilinin daha çox hissəsinin (96,0%) modelə daxil olan amillər hesabına izah edilməsi ilə əlaqədar olduğunu göstərir.

Alınmış nəticələrin analizi. Qurulmuş (2) modelinin reqresiya tənliyi ilə Eviews tətbiqi proqram paketinə əsasən tədqiq olunan göstəricilər üzrə alınan (Fitted) və faktiki (Actual) qiymətlərinin, habelə onların arasındakı qalıqların (Residual) dinamikasını ifadə edən modelin aprosimasiyası aşağıdakı qrafikdə verilmişdir [6].

Qrafik 5

Modelin aproksimasiyası



Mənbə. *Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Qrafikdən göründüyü kimi, qurulmuş reqressiya tənliyinin real qiymətlərə yaxın qiymətlər aldığı müşahidə edilir.

Eviews tətbiqi proqram paketinə əsasən qalıqların korrelaqramması aşağıdakı kimi olacaqdır.

Date: 04/11/21 Time: 00:46
Sample: 2000 2019
Included observations: 20

Autocorrelation	Partial Correlation		AC	PAC	Q-Stat	Prob
. |*** |	. |*** |	1	0.448	0.448	4.6382	0.031
. |* . |	. | . |	2	0.178	-0.028	5.4090	0.067
.**| . |	****| . |	3	-0.331	-0.501	8.2435	0.041
*****| . |	****| . |	4	-0.671	-0.559	20.611	0.000
***| . |	. |* . |	5	-0.467	0.107	26.998	0.000
.**| . |	. | . |	6	-0.319	-0.058	30.187	0.000
. |* . |	. *| . |	7	0.113	-0.125	30.623	0.000
. |**. |	.**| . |	8	0.275	-0.264	33.405	0.000
. |**. |	.**| . |	9	0.235	-0.324	35.613	0.000
. |* . |	. *| . |	10	0.202	-0.084	37.414	0.000
. | . |	. |* . |	11	0.014	0.085	37.424	0.000
. | . |	. *| . |	12	-0.052	-0.160	37.570	0.000

Mənbə. *Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Alınmış cədvəldən göründüyü kimi qalıqlar avtokorrelyasiyadan təmizlənmişdir.

Nəticə. Aparılmış tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan Respublikasında nəqliyyat sektorunda yükdaşımalardan əldə olunan gəlir ilə Eviews proqram paketinə əsasən əsas kapitala yönəldilmiş investisiyaların həcmi, nəqliyyat sektoru üzrə əsas fondların dəyəri və ölkə üzrə illik infilyasiya səviyyəsi arasında Y = - 519.758691723+ 0.313832*X1 + 33.03336*X2 + 0.2537*X3 reqresiya tənliyi ilə ifadə olunan xətti asılıq vardır. Bu asılılıqda korrelyasiya əmsalının vahidə yaxın olması (0,96) göstərir ki, bu asılılıq funksional asılılığa daha çox yaxındır. Eviews tətbiqi proqram paketinə əsasən alınmış Y = - 519.758691723+ 0.313832*X1 + 33.03336*X2 + 0.2537*X3 reqressiya tənliyi Azərbaycan Respublikasında nəqliyyat sektorunda yükdaşımalardan əldə olunan gəlirin dəyişməsinin 96 %-nin modelə daxil olan amillər hesabına baş verməsi ilə izah edilir.

- tədqiqat nəticəsində Eviews-10 tətbiqi proqram paketinə əsasən müəyyən edilmşdir ki, Azərbaycan Respublikasında əsas fondların dəyərinin dəyərinin 1% artması, nəqliyyat sektorunda yükdaşımalardan əldə olunan gəlirin 0,98% artmasına, infilyasiya səviyyəsinin 1% artması nəqliyyat sektorunda yükdaşımalardan əldə olunan gəlirin 0,094 % artması, nəqliyyat sektoru üzrə əsas kapitala yönəldilmiş investisiyalar həcminin 1% artması nəqliyyat sektorunda yükdaşımalardan əldə olunan gəlirin 0,17% artması ilə nəticələnir;

- Azərbaycanda nəqliyyat sektorunda yükdaşımalardan əldə olunan gəlirlə əsas kapitala yönəldilmiş investisiyaların həcmi, nəqliyyat sektoru üzrə əsas fondların dəyəri, ölkə üzrə illik infilyasiya səviyyəsi amilləri arasında Çeddok şkalasına görə olduqca yüksək korrelyasiya əlaqəsi vardır;

- tədqiqat nəticəsində Eviews tətbiqi proqram paketinə əsasən Azərbaycanda nəqliyyat sektorunda yükdaşımalardan əldə olunan gəlirin illər üzrə qiymətləri və standart səhvləri müəyyən edilmiş, habelə tənliyin proqnoz məqsədi üçün istifadə edilməsinin bir sıra xarakteristikaları göstərilərək, 2025-ci ilədək Azərbaycanda nəqliyyat sektorunda yükdaşımalardan əldə olunan gəlirin proqnozlara görə artacağı müəyyən edilmişdir.

Ədəbiyyat

1. Konstitusiya. Bakı-Qanun- 2005-ci il
2. Azərbaycan Respublikasının "Nəqliyyat haqqında" 683-IQ nömrəli qanunu. Bakı şəhəri, 11 iyun 1999-cu il.
3. Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı) ilə təsdiq edilmişdir.
4. Əsədov, A.M. Azərbaycan Respublikasında yeni nəqliyyat sisteminin formalaşması və davamlı inkişafı: elmi-nəzəri əsasları və perspektivləri / A.M. Əsədov. -"Avropa" nəşriyyatı, -2014. -s.145.
5. Eugene F.Brigham ve Joel F.Houston. Finansal yönetimin temelleri. Basımdan çeviri. -2014. -s. 308.
6. Yadigarov, T.A. Əməliyyatlar tədqiqi və ekonometrik məsələlərin MS Excel və Eviews proqram paketlərində həlli: nəzəriyyə və praktika. / T.A.Yadigarov –Bakı: -2020. -352 səh.
7. Paşayev, Ə.Z. Nəqliyyat sektoruna yönələn investisiyalar // -Bakı: Azərbaycan Dövlət Dəniz Akademiyasının Elmi Əsərləri,– 2016. №1, -səh.169.
8. http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/

Məqalə qəbul olunub: 12.04.2021
Tövsiyə ediblər: t.e.d., prof. Z.Ə. Rüstəmov

UOT: 341.9:42

KORONAVİRUS XƏSTƏLİYİ (COVİD-19) PANDEMİYASININ DÜNYA DƏNİZ TİCARƏT DONANMASININ FƏALİYYƏTİNƏ TƏSİRİ

Şirəliyev Ə.T.

Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ 1000, Bakı şəh., Z. Əliyeva küç.,18
E-mail: akber1958@mail.ru

Xülasə. *Məqalədə koronavirus xəstəliyi (COVİD-19) pandemiyası dövründə dəniz nəqliyyatının üzləşdiyi problemlər və onları həlli istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edilir.*

Abstract. *The article discusses the problems faced by maritime transport during the period of coronavirus disease (COVID-19) pandemic, and the measures taken to solve them.*

Аннотация. *В статье рассматриваются проблемы, с которыми сталкивается морской транспорт в период пандемии коронавирусной болезни (COVID-19), и меры, принимаемые для их решения.*

Açar sözlər: *böhran, dəniz, gəmiçilik, yük, donanma*
Key words: *crisis, sea, shipping, cargo, fleet*
Ключевые слова: *кризис, море, судоходство, груз, флот*

Giriş. Koronavirus xəstəliyi (COVİD-19) pandemiyası dövlətlərin qlobal qarşılıqlı asılılığını əyani şəkildə nümayiş etdirdi və dəniz nəqliyyatının simasını dəyişəcək yeni meyllərin inkişafına təkan verdi[3,5]. Hazırda dəniz nəqliyyatı sektoru müəyyən dönüş mərhələsini yaşayır və bu heç də təkcə pandemiya səbəbindən meydana çıxmış prolemlərlə üzləşmənin nəticələri deyil, həm də istehsal-satış sistem və modellərində baş verən qlobal struktur dəyişikliklərindən tutmuş istehlak və vəsaitlərin xərclənməsi ilə bağlı stereotiplərin dəyişilməsi, risklərin qiymətləndirilməsi və tələtümlərə qarşı davamlılğın yüksəldilməsi üzrə məsələlərə diqqətin artması kimi geniş diapazonu əhatə edən uzun müddətli amillərlə bağlıdır. Dayanıqlı inkişaf və "azkarbonlu" iqtisadiyyat kimi geniş qlobal gündəlikdə duran məsələlər də bura daxildir[1,4]. Bundan əlavə, fəaliyyətin bu sektorunda inkişaf edən, məhvedici nəticələrlə səciyyələnən ticarət proteksionizmi və eqoistik siyasət kimi məsələləri həll etmək zərurəti də proseslərə ciddi təsir göstərir.

Əsas hissə. Həyati vacib əmtəələrin fasiləsiz olaraq çatdırılmasında və qlobal ticarətdə aparıcı sektor kimi fəaliyyət göstərən dəniz nəqliyyatının əhəmiyyəti haqqında məsələ pandemiya şəraitində daha qabarıq şəkildə ön plana çıxdı. Belə vəziyyətin pandemiyadan sonrakı bərpa dövründə və normal həyata qyıtdıqdan sonra da davam edəcəyi proqnozlaşdırılır. Bir çox beynəlxalq təkilatlar və orqanlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatının (BMT) Ticarət və İnkişaf üzrə Komitəsi (UNCTAD) pandemiya dövründə dəniz nəqliyyatınının fasiləsiz olaraq fəaliyyət göstərməsi və bu zaman limanların eləcə də dənizçilərin koronavirusdan mühafizəsinə dair tövsiyyə və izahatlarla çıxış etmişlər. Onlar qeyd etmişlər ki, sanitar məhdudiyyətlər də daxil olmaqla gəmilər bütün beynəlxalq tələblərə cavab verməli, limanlar isə dəniz gəmiləri və qarışıq daşımalar üçün açıq olmalıdırlar [2,3].

COVİD-19 pandemiyasının təsiri üzündən səhiyyə sahəsində və iqtisadiyyatda baş verən qlobal böhran dəniz nəqliyyatında və beynəlxalq ticarətdə mövcud olan vəziyyəti kökündən dəyişdirdi, bu sahələrdəki artım perspektivlərinə ciddi zərbə vurdu. UNCTAD-ın proqnozlarına görə 2020-ci ildə beynəlxalq dəniz daşımalarının həcmi 4,1 % aşağı düşmüşdür. Pandemiyanın təsirləri nəticəsində istehsal-satış zəncirində baş verən qarma-qarışıqlıqlar, tələbatın azalması və dünya iqtisadiyyatındakı qeyri-müəyyənlik bir sıra arzuolnmaz fəsadlara gətirib çıxarmışdır. Beynəlxalq dəniz daşımalarının dinamikasında 2019-cu ildən başlayaraq müşahidə edilən ləngimələr pandemiya fonunda daha qabarıq şəkildə özünü göstərdi. Ümumdünya istehsalının və beynəlxalq ticatət dövriyəsinin həcmi

ölkələr arasında ticarət münasibətlərindəki gərginliklər və siyasi qeyri-müəyyənliklər baxımından müəyyən dəyişikliklərə məruz qalır. 2019-cu ildə dəniz daşımalarının həcmi 0,5% (2018-ci ildə bu artım 5,1% təşkil etmişdir) artaraq 11,8 mlrd ton təşkil etmişdir [3]. Beynəlxalq ticarətdə baş verən gərginlik amilləri daşımalar sahəsindəki mövcud əmtəə axınlarının istqamətinin dəyişməsinə gətirib çıxarır, belə ki, alternativ bazar və tədarükçülərin axtarışı yük axınlarının istqamətlərinin dəyişməsinə səbəb olur. Sadalanan amillər fonunda yük axınlarının Çindən və Cənubi Şərqi Asiyayanın bir sıra digər ölkələrindən başqa bazarlara istqamətlənməsi xüsusilə diqqət çəkir. Nəzərdən keçirilən dövürdə Amerika Birləşmiş Ştatları dünyanın digər ölkələrinə əmtəə ixracının həcmini müəyyən qədər artırmağa müvəffəq olmuşdur ki, bu da nəticədə bir sıra malların Çinə ixracında baş vemiş azalmaların kompensasiya edilməsinə imkan vermişdir. Əlavə gömrük tariflərinin tətbiq edilməsi 2019-cu ildə ABŞ və Çin arasında dəniz daşımalarının həcminin 0,5% azlmasına səbəb olsa da alternativ bazarlarda imkanların genişləndirilməsi hesabına bu ölkələr öz itkilərini bir qədər yumuşaltmağa nail olmuşlar [3].

Son vaxtlar beynəlxalq konteyner daşımalarında gəmilərin daşıma qabiliyyətlərinin yüksəlməsi xüsusi diqqət çəkir. 2020-ci ilin əvvəlinə olan məlumata görə dünya donanmasının tərkibinə daxil olan və ümumi tutumu 100 brutto registr ton və daha çox olan ticarət gəmilərinin sayı 98140 ədəd təşkil etmişdir ki, onların da daşıma qabiliyyətləri ümumilikdə 2,06 mlrd ton dedveyt ekvivalentindədir. 2014-cü ildən bu yana dünya ticarət donanmasında ən böyük artım 2019-cu ildə qeydə alımışdır və bu göstərici 4,1% təşkil etmişdir. Ən böyük artım qazdaşıyan gəmilər sektorunda baş vermişdir. Artım dinamikasına görə sonrakı yerləri neft tankerləri, balkerlər və konteyner daşıyan gəmilər tutmuşlar. Ən iri konteynerdaşıyan gəminin tutumu 10,9 % artmışdır. Hazırda iritonnajlı konteynerdaşıyan gəmilər öz ölçülərinə görə nəhəng neft tankerlərindən geri qalmırlar, hətta iri quru yük və kruiz gəmilərini belə üstələyirlər. Müxtəlif tipli gəmilərin istismarı sahəsində əldə olan təcrübələri və bir sıra məhdudiyyətləri (yanalma kanalları, liman və gəmiqayırma müəssisələrinin infrastrukturundakı möcud vəziyyət) nəzərə alaraq belə bir qənaətə gəlmək olar ki, konteynerdaşıyan gəmilər artıq öz maksimal ölçü həddlərinə çatmışlar [3,4].

Nəzərdən keçirilən dövr ərzində dəniz nəqliyyatının fəaliyyətini araşdırarkən belə məlum olur ki, qlobal miqyasda ən səmərəli nəticələr daşıyıcılar tərəfindən əldə edilmişdir. İri limanlara daxil olmaqla fəaliyyət göstərən iritonnajlı gəmilərin işlərinin səmərəlilik göstəriciləri daha yaxşı olmuşdur. Məsələn, gəminin konteyner limanlarına daxilolma sayının 1% artması onun limanlarda dayanma vaxtının bir konteynerin payına düşən müddətinin 0,18% azalmasına gətirib çıxarır. Limana daxil olan gəminin orta ölçüsünün anoloji qaydada 1% artşrılması zamanı isə onun limanlarda dayanma vaxtının bir konteynerin payına düşən müddətinin 0,52% azalması ilə nəticələnir. Ölçü miqyasına qənaətə əsaslanan və nisbətən iritonnajlı gəmilərin istismarı hesabına əldə edilən səmərə heç də həmişə limanların və daxili nəqliyyat operatorlarının da fəaliyyətlərinin uduşlu olması ilə nəticələnmir. Belə ki, bu zaman bütövlükdə logistik zəncir miqyasında ümumi nəqliyyat xərcləri əksər hallarda artır. Gəmi üzrə hesablanmış konteynerlərin orta miqdarının yaxud gəmilərin orta ölçülərinin artırılması bir çox hallarda yük avtomobillərinin, yük meydançalarının və qarışıq daşımaların pik həddə tələbatlı olması zərurətini doğurmaqla yanaşı, limanların akvatoriyalarında dibdərinləşdirmə və körpülərdə yükqaldırma imkanları daha böyük olan kranların quraşdırılması ilə bağlı əlavə xərclər qoyuluşunu da tələb edir [2,4]. Daxilolma limanlarının sayının azaldılması ilə yüklərin nisbətən daha iritonnajlı gəmilər seqmentində konsentrasiya edilməsi əksər hallarda əməliyyatların az sayda şirkətlər tərəfindən həyata keçirilməsi prinsipinə əsaslanır. Logistik zəncirin dənizlə daşıma hissəsində qənaət hesabına əldə edilən vəsaitlər heç də həmişə nisbətən aşağı tarif dərəcələri şəklində yükgöndərənlərə çatmır. Buna əyani misal olaraq yalnız xidmət göstərən bir neçə şirkətin işlədiyi inkişaf etməkdə olan kiçik ada dövlətlərin bazarlarında təzahür edən vəziyyəti göstərmək olar. Bu əlavə xərclər yükgöndərənlərin, limanların və daxili nəqliyyat operatorlarının çiyinlərinə düşəcəkdir. Beləliklə də, daha iritonnajlı gəmilərin istismarı nəticəsində yaranan və miqyas effekti hesabına əldə edilən qənaətdən əsas etibarı ilə yalnız daşıyıcılar bəhrələnə bilirlər.

Pandemiya şəraitinin davam etməsinə baxmayaraq tarif dərəcələrində artım dinamikası müşahidə edilir. Konteyner daşımaları bazarında mövcud olan struktur qeyri-mütanasibliyi problemi xətti gəmiçilik şirkətlərini 2020-ci il boyu davam etmiş olan zəif tələbat şərtlərini nəzərə alaraq donanmanın daşıma qabiliyyətini daim nəzarətdə saxlamağa və zəruri düzəlişlər etməyə sövq edir. Daşımalara olan tələbatın aşağı düşməsi gəmiçilik şirkətlərindən daşıma qabiliyyətnin və xərclərin tənzimlənməsi istiqamətində daha sərt strateji addımların atılmasını tələb etmişdir. 2020-ci ilin ikinci rübündə daşıyıcılar donanmanın daşıma qabiliyyətini əhəmiyyətli dərəcədə ixtisara salmağa başladılar. Bu məqsədlə müxtəlif tənzimləyici metodlardan, məsələn, marşrutlara xidmətin dayandırılması, limanlara planlaşdırılan daxilolmaların və səfərlərin təxirə salınması, gəmilərin hərəkət marşrutlarının dəyişdirilməsi və s. kimi strateji üsullardan istifadəyə üstünlük verildi. Səfərlərin təxirə salınması və daşıma qabiliyyətinin ixtisar edilməsi yükgöndərənlərin və beləliklə də, bütövlükdə təchizat sisteminin fəaliyyətinə ciddi şəklidə mənfi təsir göstərmişdir. 2020-ci ilin birinci yarısında daşıma marşrutlarının böyük əksəriyyətində tarif dərəcələri 2019-cu il ilə müqayisədə yüksək olmuşdur [2,4]. Böhran şəraitində dəniz nəqliyyatı sektorunda tarif dərəcələrinin iqtisadi həyat fəaliyyətinin təmin edilməsi səviyyəsində saxlanması strateji baxımdan doğru hesab edilsə də donanmanın daşıma qabiliyyətinin kifayət qədər uzun müddətli dövr ərzində ixtisar edilməsi sonrakı bərpa mərhələsində həm dəniz nəqliyyatının özü və ticarət üçün, həm də yükgöndərənlər və limanlar üçün bir sıra problemlərin yaranmasına səbəb olacaqdır.

Pandemiya dövründə quru və maye kütləvi yüklərin daşınması üzrə fraxt dərəcələrində ciddi qeyri-stabillik müşahidə edilmişdir. 2020-ci ilin mart və aprel aylarında tankerlərin fraxt dərəcələri kəskin şəkildə artmışdır. Belə hal neftin saxlanması üçün istifadə edilən üzən anbarlarla da baş vermişdir. Neft bazarının "superkontanqo" vəziyyətində olması, yəni yaxın aylarda neftin qiymətinin kifayət qədər ucuz olması və sonrakı aylarda fyuçerslər üzrə onun satış qiymətinin yüksək olacağı ehtimalı neftin ehtiyyatlarda saxlanmasının əlverşli olduğunu nümayiş etdirir. Ucuz xam neftin saxlanması məqsədi ilə tankerlərin treyderlər tərəfindən fraxta götürülməsi nəticəsində daşıma prosesində iştirak edən gəmilərin sayının azalması tanker tonnajı üzrə fraxt dərəcələrinin saxlanmasını təmin etmişdir. 2020-ci ilin mayında üzən saxlama anbarları qismində istifadə edilən tankerlərin təxminən 1/3 hissəsinin aktiv daşıma bazarına qayıtması nəticəsində tankerlərin fraxt dərəcələri kəskin şəkildə aşağı düşmüşdür. Pandemiyanın təsiri nəticəsində balker tonnajı üzrə fraxt dərəcələrinin dinamikası müəyyənləşdirilərkən pandemiyanın təsiri nəticəsində təklif və tələbat arasında nəzərəcarpacaq disbalansın mövcudluğu nəzərə alınmışdır. Fraxt dərəcələrində ən yüksək qeyri-stabillik iritonnajli balkerlər sektorunda müşahidə edilmişdir [3].

COVİD-19 pandemiyasının kəskin şəkildə alovlanması nəticəsində tətbiq edilən məhdudiyyətlər çox sayda dənizçilərin bir sıra problemlərlə üzləşməsinə səbəb olmuşdur. Yaramış vəziyyətlə bağlı olaraq bir cox gəmilərdə heyət üzvülərinin nəzərdə tutulan müddətlər ərzində əvəz edilməsi proseslərində gecikmələr baş vermişdir ki, bu həm təhlükəsizlik və dənizçilərin rifahı, həm də gəmilərin təhlükəsiz istismarı baxımından yolverilməzdir. Məsələ ilə bağlı bir sıra nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən UNCTAD müəyyən təkliflər irəli sürərək vətəndaşlıqlarından asılı olmayaraq dənizçilərin və gəmiçilik sahəsində çalışan digər aparıcı mütəxəssislərin hərəkət və yerdəyişmələrinə qoyulan məhdudiyyətlərin aradan qldırılmasına dair müraciətlər etmişlər. Bundan başqa, bayraq dövlətləri üçün dənizçilərin və gəmilərin fəaliyytlərinə dair Beynəlxalq Dəniz Təşkilatı (İMO) və Beynəlxalq Əmək Təşkilatı (İLO) tərəfindən nəzərdə tutulan mütləq sənədlərin tərkibinə daxil olan və müddətləri bitmiş lisenziya və sertifikatlarının vaxtının uzadılmasına icazə verən "Müvəqqəti Rəhbərlik" işlənib hazılanmışdır [3,5].

Dəniz nəqliyyatının dayanıqlı inkişafı, karbon qazının atılmasının azaldılması və gəmilərdən ətraf mühitin çirklənməsinin qarşısının alınması istiqamətində aparılan işlər prioritet məsələlər kimi daim diqqət mərkəzində saxlanılır [1]. Dəniz nəqliyyatı sektorunun fəaliyyəti getdikcə daha sərt xarakter alan ekoloji tələblərin təsiri altında formalaşır. Bunlara baxmayaraq, daşıyıcılar nəqliyyat xidmətlərini daim yüksək səviyyədə saxlamalı və məsrəfləri azaltmağa çalışmaqla yanaşı fəliyyətlərinin stabilliyini təmin etməlidirlər. Beynəlxalq gəmiçiliyin fəaliyyəti nəticəsində istilik və

zərərli qazların atmosferə atılması ilə bağlı məsələ beynəlxalq gündəlikdə əsas yerlərdən birini tutur. Bu baxımdan Beynəlxalq Dəniz Təşkilatı bir sıra geniş miqyaslı tədbirlərin həyata keçirilməsi istiqamətində addımlar atmaqda davam edir. Bunların içərisində gəmilərin enerji effektivliyi, alternativ enerji növlərindən istifadə və gəmilərdən atmosferə atılan qazların zərərsizləşdirilməsi və azaldılması sahəsində milli hərəkət planlarını qeyd etmək olar. Gəmilərin ölçülrinin onlardan dəfələrlə səmərəli istifadə ilə uzlaşdırılması və nisbətən az səmərəliliyə malik gəmilərin təkrar emalı donanmanın ümumi tonnajının artmasına bxmayaraq karbon qazının atılma miqdarının artmasının qarşısını alır. Bununla əlaqədar olaraq tam əminliklə söyləmək olar ki, növbəti onillikdə köhnə və kifayət qədər səmərəli olmayan gəmilərin ekoloji konstruksiyalı gəmilərlə əvəz edilməsi istiqamətində atılan mütərəqqi addımlar daha da sürətlənəcəkdir. Lakin onu da qeyd etmək lazımdır ki, həyata keçirilən bu cür tədbirlər İMO tərəfindən qarşıya qoyulan və 2008-ci illə müqayisədə 2050-ci ilədək gəmilərdən atmosferə atılan karbon qazının illik ümumi həcminin ən azı 50% azaldılmasına dair proqnozlaşdırdığı gözləntilərinin tam şəkildə təmin edilməycəyi ehtimalını da istisna etmir. Bu məsələlərin həlli üçün mühərrik tikintisi və yanacaq texnologiyaları sahəsində radikal dəyişikliklərin həyata keçirilməsi tələb olunur. Ətraf mühitin mühafizəsi sahəsində bir sıra əlavə qaydaların tətbiq edılməsi nəzərdə tutulur. Buna misal olaraq İMO tərəfindən qəbul edilən və istifadə olunan yanacağın tərkibində kükürdün miqdarının məhdudlaşdırılması ilə bağlı qərarı göstərmək olar. Bu qrarın 1 yanvar 2020-ci ildən tətbiq edilməsi nəzərdə tutulsa da COVİD-19 pandemiyası ilə bağlı br sıra çətinliklər meydana çıxmışdır.

Qlobal dünya miqyasında qarşılıqlı əlaqələr sistmində cərəyan edən ticarət axınlarının və istehsal-satış sistemləri arasında əlaqələrin saxlanmasında dəniz nəqliyyatının necə vacib rol oynadığı böhran dövründə aydın şəkildə özünü büruzə verdi. Bir sıra çətinliklərə baxmayaraq pandemiya dövründə bütövlükdə dəniz nəqliyyat-logistika sistemi vacib malların daşınmsını və ticarət axınlarının hərəkətini təmin etmişdir. Bununla belə, məlum səbəblər üzündən logistik sistemdə baş verən fasilələr bir sıra strateji meyllərin formalaşmasına zəmin yaratmışdır. Bu baxımdan bəzi məqamları xüsusi olaraq qeyd etmək lazımdır [1,2].

1. Risklərin idarə edilməsi və təlatümlərə qarşı dayanıqlığın yüksəldilməsi siyasət və biznesin yeni postulatlarına çevrilir. Fövqəladə hallar zamanı fasiləsiz fəaliyyət və təxirəsalınmaz tədbirlər planının qəbulu mexanizmi COVİD-19 böhranı şəraitində heç vaxt olmadığı qədər mühüm əhəmiyyət kəsb etmişdir. Əldə edilən təcrübə gələcəkdə baş verə biləcək oxşar hallarda risklər nəzərə alınmaqla dəniz nəqliyyatının işinin tənzimlənməsi və təlatümlərə qarşı davamlılıq qabiliyyətinin yüksəldilməsi sahəsinə daha geniş imkanlardan istifadəyə zəmin yaratmışdır [2,4].

2. Qloballaşma proseslərində və istehsal-satış zəncirinin strukturlarında baş verən dəyişikliklərin sürətlənməsi. Pandemiya böhranına qədər geniş miqyasda tətbiq edilən "tam vaxtında" tədarük modelinə dayanıqlıq və etibarlılıq kimi amillər nəzərə alınmaqla yenidən baxılmalıdır. Tədarük mənbələrinin, marşrutların və bölüşdürülmə kanallarının diversifikasiyasına daha böyük üstünlük veriləcəkdir. Bu zaman diqqət təkcə xərclərin aşağı salınmasına deyil, həm də risklərin idarə edilməsi və xarici təlatümlər kimi amillərə də yönəlməlidir [4].

3. Xərclərin yeni modelləri və istehlakçıların davranışları. Zövqlərdə, istehlak modellərində və alıcılığın xarakterində davamlı olaraq baş verən dəyişikliklər istehsal və nəqletmə sahələrində də müvafiq dəyişikliklərin baş verəcəyi ehtimalını yüksəldir [2,4]. Buna misal olaraq pandemiyanı yaşamış dünyada sürətlə inkişaf edən və İnternet üzərindən aparılan, daha çox fərdi istehlak mallarına olan tələbatın ödənilməsinə yönələn ticarət əməliyyatlarını göstərmək olar. Belə meyllərin inkişafı istqamətində nəqliyyat zəncirinin "son milinin" rolunun əhəmiyyətli dərəcədə yüksələcəyi ehtimal olunur və müasir texnologiyalardan, xüsusilə robot texnikasından istifadə etməklə istehsal-satış zəncirinin mümkün qədər qısaldılması istiqamətində addımlar atılacaqdır. Nəticədə mal ehtiyyatlarının saxlanması üçün açıq və qapalı anbar sahələrinə tələbat yüksələcəkdir.

4. Rəqəmsallaşma və dematerilizasiya istiqamətində fəaliyyətin genişləndirilməsi. Texnologiyalar, rəqəmsallaşma və innovasiyalar bundan sonra da nəqliyyat və logistika da daxil olmaqla istehsal-satış sistemlərinin və onların paylayıcı şəbəkələrinin aparıcı elementləri rolunda

çıxış edəcəklər. Texnoloji nailiyyətlərin tətbiqi və bu sahədə mövcud olan ən son yeniliklərlə ayaqlaşmaq artıq mümkün variantlardan biri kimi deyil, zərurət kimi qəbul edilməlidir. Pandemiya göstərdi ki, yeni texnoloji nailiyyətləri mənimsəyən şirkətlər (məsələn, informasiya texnologiyaları bazası əsasında onlayn platformalar üzərindən fəaliyyət göstərən logistik şirkətlər) çətin dövürlərdən nisbətən daha uğurla keçməyi bacardılar. Qarşılıqlı əlaqələrin və informasiya mübadiləsinin rəqəmsallaşması pandemiya zamanı dəniz nəqliyyat əməliyyatlarının fasiləsizliyinin təmin edilməsi üçün olduqca mühüm əhəmiyyət kəsb edir. O, yoluxma risklərini minimuma endirməklə nəqliyyat və ticarət əməliyyatlarının fasiləsizliyini qoruyub saxlamağa köməklik göstərmişdir [2,5].

5. Elektron ticarət sənədlərindən istifadə səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsi. Hökümətlər ərazilərində yerləşən limanların lazımi səviyyədə işləməsi üçün yeni texnologiyaların tətbiqi və rəqəmsallaşma üzrə tədbirlərin həyata keçirilməsinin sürətləndirilməsi istiqamətində öz səylərini əsirgəməmişlər. Bütün dünyada elektron sənədlərin kommersiya baxımından problemsiz olaraq qəbul və istifadəsi üçün zəruri hüquqi bazanın yaradılması məsələri qarşılıqlı beynəlxalq əməkdaşlıq şəraitində öz həllini tapmalıdır [2,4].

6. Standartların və funksional uyğunluqların rolunun yüksəlməsi. Liman və gəmiçilik şirkətlərinin müqayisəli təhlil vasitələrindən səmərəli istfadə etmələri üçün gəmi tiplərinin standart-laşdırılması, əsas səmərəlilik göstəricilərinin, tərif və parametrlər üzrə məlumatların tutuşdurulması təmin edilməlidir. UNCTAD tərəfindən limanların işinin səmərəliliyinin qiymətləndirilməsi üzrə hazırlanan şkala uzaq perspektivdə bu sahə üzrə standart kimi qəbul edilə bilər [2].

7. Kibertəhlükəsizlik problemi daha ciddi xarakter daşımağa başlamışdır. COVİD-19 böhranı zamanı dəniz daşımaları sektorunda kiberhücumların sayının artması şirkətlərin özlərini kifayət dərəcədə müdafiə etmək imkanlarına malik olmamaları üzündən vəziyyətin bir qədər də gərgin-ləşməsinə səbəb olmuşdur. Gəmilərin və limanların informasiya-kommunikasiya tenologiyaları şəbəkəsinə qoşulmalarının keyfiyyət parametrləri yaxşılaşdıqca inteqrasiyanın müvafiq səviyyə-lərində kibertəhlükəsizliyin təmin edilməsi məsələrinin də öz həllini tapacağı labüddür [2,4]. Özünün yeni qətnamələrində İMO administirativ orqanlara istismar təhlükəsizliyinin idarəetmə sistemlərində kibertəhlükəsizlik sahəsində risklərin etibarlı uçutu üzrə müvafiq tövsiyyələr irəli sürmüşdür.

8. Qarşılıqlı əlaqələrin qlobal miqyasda sistemləşdirilməsi və koordinasiyası. Pandemiya əyani şəkildə göstərdi ki, irimiqyaslı və zəncirvari şəklidə baş verən hadisələr zamanı qarşılıqlı fəaliyyətin koordinasiya edilməsi olduqca vacibdir. Bu ideya Brləşmiş Millətlər Təşkilatının dünya okeının mənimsənilməsində ekoloji məsuliyyəti özündə əks etdirən "Qlobal Müqavilədə" xüsusi olaraq qeyd edilmişdir [1,3]. Burada toxunulan məsələlər elə xarakterə malikdirlər ki, onlar fərdi əsaslarla, ikitərəfli qaydada yaxud da məhdud sayda ölkələrin iştirakı ilə səmərəli şəkildə həll edilə bilməzlər.

Nəticə. Qlobal iqtisadi sistemin əsas elementlərindən biri olan beynəlxalq ticarətin fasiləsizliyinin təmin edilməsində və inkişafında dəniz ticarət donanması önəmli rol oynayır. COVİD-19 pandemiyasının təsiri üzündən iqtisadiyyatda baş verən qlobal böhran dəniz nəqliyyatında və beynəlxalq ticarətdə uzun müddət ərzində formalaşmış olan vəziyyətin kökündən dəyişməsinə səbəb oldu. Bir sıra çətinliklərə baxmayaraq pandemiya dövründə bütövlükdə dəniz nəqliyyat-logistika sistemi vacib malların daşınmsını və ticarət axınlarının hərəkətini təmin etmişdir. Pandemiya əyani şəkildə göstərdi ki, qlobal mqyaslı hadisələr zamanı qarşılıqlı fəaliyyətin koordinasiya edilməsi yaranmış problemlərin həlli istiqamətində atılan addımlar içərisində olduqca mühüm yer tutur. Fəaliyyətlə bağlı risklərin düzgün qiymətləndirilməsi və müxtəlif mənşəli təlatümlərə qarşı davamlılğın yüksəldilməsi üzrə məsələlər daim diqqət mərkəzində saxlanılmalıdır.

Ədəbiyyat

1. Международная Конвенция по предотвращению загрязнения с судов (МК МАРПОЛ-73/78), Книги I и II, - СПб.: АО "ЦНИИМФ", 2017 г. - 824 с.
2. Порто-ориентированная логистика/ А. Л. Кузнецов, А.И. Кириченко, О. В. Соляков [и др.]- Москва: Моркнига, - 2021. -245 с.

3. Review of Maritime Transport/(UNCTAD/RMT/2020)/ New York and Geneva: UNCTAD, -2021.- 159 p.
4. Дмитриев В.И. Перевозка грузов морем. Монография/Е. В. Найденов; -Москва: Моркнига, -2021.-343 с.
5. Мотрич В.Н. Год 2019-Тайфуны, пожары, коронавирус //- Москва: Морской Флот, -2020, №4 (1550), -с 36.

Məqalə qəbul olunub: 05.03.2021
Tövsiyə ediblər: t.e.d., prof. Z.Ə. Rüstəmov

UOT 81

DƏNİZ İNGİLİS DİLİ DİSKURSUNUN BƏZİ XÜSUSİYYƏTLƏRİ

Zeynalov E.A.

Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ1118, Bakı şəh., R. Rüstəmov küç., 36
E-mail:ezeynalov64@yahoo.com

Xülasə. *Məqalədə Dəniz ingilis dilinin (ME) həm akademik və peşəkar sektorlarda xüsusi diskurs (kommunikasiya) tipi kimi kommunikativ xüsusiyyətlərinə, həm də dənizdə kommunikasiyanı asanlaşdırmaq məqsədilə ingilis dilinin ortaq dil kimi **(English a Lingua Franca (ELF))** istifadə olunmasına diqqət yetirilir. Dəniz ingilis dilinin (Maritime English) əsas kommunikativ xüsusiyyətlərini üzə çıxarmağa cəhd edilməsi ilə yanaşı və onun beynəlxalq gəmilərin bortunda dənizçilər tərəfində ortaq dil kimi istifadə olunmasının əsas səbəbləri də göstərilir.*

Hər bir dil insanlar arasında ünsiyyət yaratmağa xidmət edir. İngilis dili, burada Dəniz ingilis dili müxtəlif millətlərin və müxtəlif ünsiyyət bacarıqları olan insanların olduğu müasir gəmilərin bortunda gəmi heyəti üçün, xüsusi ünsiyyət vasitəsi kimi nəzərdən keçirilir. İngilis dilinin bu xüsusiyyəti BDT (İMO) tərəfindən rəsmi olaraq müəyyən edilmiş və qanunla STCV və SOLAS kimi beynəlxalq konvensiyalarda təsbit edilmişdir.

Məqalədə, həm də Dəniz ingilis dilinin (ME) yaxşı səviyyədə öyrənilməsində və ünsiyyət bacarıqlarının yaradılmasında ortaya çıxan problemlər nəzərdən keçirilir və kursantların (tələbələrin) xarici dil öyrənmələrini asanlaşdırmaq üçün bəzi metodiki yollar tövsiyə olunur. Düşünmək olar ki, bu cür tədris proqramlarının və materiallarının hazırlanması onlara fənn sahəsində ünsiyyət vərdişlərini yaxşılaşdırmağa imkan yaradardı.

Abstract. *The article focuses on the communicative specificities of Maritime English (ME) both as a type of specialized discourse (communication) in academic and professional sectors and as a common language used to facilitate communication at sea. It is attempted to reveal main features of Maritime English and its use as a **Lingua Franca** by seafarers on board international ships.*

*Any language serves as a tool for communication among people. Thus, English, i.e. Maritime English is considered as a specialized communicative tool for, particularly, crews on board modern ships consisting of different nationalities and having various communication skills. This function of English has been officially determined by IMO, and has been prescribed in the international conventions like **STCW** and **SOLAS** by law.*

The article also deals with some challenges in teaching good Maritime English and Maritime English communication skills and offers some ways to facilitate teaching cadets (students) ME. To accomplish this task, designing content-based language learning activities are taken as bases by integrating Maritime English along with the requirements of the students' profession. The development of such teaching programs would enable them to improve communicative skills in their subject area.

Аннотация. *В статье рассматриваются коммуникативные особенности морского английского языка (ME) как вида особого дискурса (коммуникации) в академическом и профессиональном секторах, а также как общего языка (**English as a Lingua Franca**), используемого для облегчения общения на море. Предпринята попытка выявить основные особенности морского английского языка и его использование в качестве лингва-франка **(lingua -franca**) моряками на борту международных судов.*

Цель любого языка - служить средством общения между людьми. Таким образом, английский язык, здесь морской английский рассматривается как особый коммуникативный инструмент, в частности, для экипажей на борту современных судов, состоящих из разных национальностей и обладающих различными коммуникативными навыками. Эта функция английского языка была официально определена ИМО и законодательно закреплена в международных конвенциях, таких как STCW и SOLAS.

В статье рассматриваются проблемы, возникающие при изучении морского английского языка (ME) на хорошем уровне и создании коммуникативных навыков, рекомендуются некоторые методические способы для облегчения курсантам (студентам) изучения иностранного языка. Можно подумать, что разработка таких учебных программ и материалов позволила бы им улучшить свои навыки общения в области специализации.

Açar sözlər: *dəniz diskursu, kommunikasiya, dəniz ingilis dili, peşəkar məqsədlər üçün ingilis dili, ortaq dil (linqva-franka)*

Key words: *maritime discourse, communication, maritime English, English for special purposes, common language (lingua-franca)*

Ключевые слова: *морской дискурс, коммуникация, морской английский язык, Английский язык для профессиональных целей, общий язык (lingua-franca)*

Giriş. Diskurs (dil fəaliyyəti prosesi) və ya kommunikasiya (ünsiyyət) cəmiyyətdə ən geniş yayılmış sosial fəaliyyət sahəsidir. Daha doğrusu kommunikasiya vasitəsilə insanlar öz aralarında fikir mübadiləsi edir, öz düşüncələrini başqaları ilə bölüşür və digər insanların fikirlərini dinləyir və nəticə çıxarırlar. Media sahəsi üzrə tanınmış ingilis alimi Con Fiskə (John Fiske) görə kommunikasiya prosesi "*mesajlar, söhbətlər və danışıqlar vasitəsilə baş verən qarşılıqlı sosial münasibətlər"* formasıdır. (*... when talking about communication, we should keep in mind the process of sending and receiving information through the form of messages, considering both the verbal and nonverbal components of communication*) [4].

Qeyd etmək lazımdır ki, kommunikasiya prosesindən danışarkən biz ünsiyyətin həm verbal, həm də, qeyri-verbal (yazılı nitq forması, intonasiya, bədən hərəkətləri və s) komponentlərindən istifadə edirik. Bu baxımdan informasiyanın alınması və ötürülməsi tam bir kommunikasiya prosesi kimi nəzərdən keçirilməlidir.

Kommunikasiya prosesi insanlar üçün özlərini ifadə etmək nöqteyi-nəzərindən diğər fəaliyyət proseslərindən öz zənginliyi baxımından ciddi şəkildə fərqlənir. Hətta qeyri-lingvist sahələrə aid mütəxəssislərin də bu sahəyə artan marağı və töhvə vermək istəyi fikirlərimizin dolayısı ilə təsdiqlənməsidir.

Kommunikasiya prosesinində insan faktoru əsas rol oynadığından, bu prosesin müxtəlif dillərdə danışan insanlar üçün sadələşdirilməsi və insanlar arasında baryerlərin aradan qaldırılmasını təmin etmək üçün ümumi bir təbii dildən istifadə olunması məsələsi də diqqət çəkən məqamlardan hesab edilir. Vurğulamaq lazımdır ki, bu istiqamətdə dünya linqvistləri tərəfindən bu gün də araşdırmalar aparılır. Bir maraqlı məqam da ondan ibarətdir ki, türkdilli ölkələrin dilçiləri və mütəxəssisləri də türk xalqları arasında vahid Türk dilinin formalaşması istiqamətində araşdırmalar aparır və bu sahədə artıq müəyyən müsbət nəticələr də əldə edilmişdir. Bu problemin həll edilməsi istiqamətində "*İngilis dili dünyada ortaq bir dil kimi **(English as a Lingua Franca (ELF))** eyni dildə danışmayan və tamamilə yad milli məddəniyyətlərə sahib olan insanlar arasında praktik dil aləti kimi qəbul edilmiş və ünsiyyət vasitəsi kimi seçilmişdir" (English as a Lingua Franca (ELF) has been widely accepted*

as a practical communicative tool in world communication between speakers 'who share neither a common native tongue nor a common (national) culture, and for whom English is the chosen foreign language of communication') [2].

Bu məsələ özünü daha çox müxtəlif millətlərin nümayəndələrinin bir yerdə çalışdığı sahələrdə (bu məqalədə dənizçilk sahəsində) büruzə verir. Beynəlxalq aləmdə hamı tərəfindən qəbul edilən və işlədilən ümumi ortaq dil "***lingua franca***" funksiyasını bu gün təbii olaraq ingilis dili yerinə yetirir. İngilis dilinin dünyada bu beynəlxalq statusa sahib olması, əlbəttə son 200 ildə bu dildə danışan insanların həm siyasi, həm də iqisadi sahədə qazandıqları uğurlarla bağlıdır.

Dəniz ingilis dili və dəniz diskursu. İngilis dili dünyada Beynəlxalq Dənizçilk Təşkilatı (BDT) - the İnternational Maritime Organization (İMO) - tərəfindən rəsmi *dənizçilik dili* (bundan sonra ***Dəniz ingilis dili-Maritime English***) kimi qəbul edilmişdir. Bu baxımdan ingilis dilini bilmək dəniz peşəsini seçmiş mütəxəsislər üçün həyatı önəm daşımaqla bərabər, professionallıq baxımdan da ən vacib keyfiyyət hesab edilir. Hətta professionallıq baxımından ingilis dilini bilmək şərti kapitan köməkçilərinin hazırlanması üzrə beynəlxal konvensiyalarda *(Dənizdə həyat təhlükəsizliyinin qorunması-Safety of Life at Sea-**SOLAS** və Dənizçilərin Təlimi, Sertifikatlaşdırılması və Növbə çəkmə Standartları haqqında Beynəlxalq Konvensiya- International Convention on Standards of Training, Certification and Watchkeeping for Seafarers (**STCW**)* da öz əksini tapmışdır. Və bu xüsusilə Beynəlxalq Dəniz Təşkilatının (***İMO***) 1995-ci ildə ingilis dilini rəsmi dənizçilik dili kimi qəbul etməsindən sonra daha da aktual olmuşdur. Nəticə etibarı ilə dənizçilərə kömək məqsədilə 2001-ci ilin noyabrında BDT-ın *"Dənizçilik üzrə Standart Kommunikasiya ifadələri" (Standard Maritime Communication Phrases (SMCP*)) adlı nəşri işıq üzü gördü. Qeyd etmək yerinə düşər ki, bu ifadələr dənizdə ola biləcək bütün müasir şərtləri əhatə edir və iki hissəyə bölünür:

a) *xarici aləmlə əlaqələr yaratmaq üçün istifadə edilən ifadələr, məsələn, metereoloji xəbərdarlıqlar. (the External Communication Phrases, e.g. meteorological warnings)*

b) gəmi bortunda istifadə edilən ifadələr, məsələn, Losman kapitan körpüsündədir. (the On-board Communication Phrases, e.g. Pilot on the bridge.)

"Dənizçilik üzrə Standart Kommunikasiya ifadələri" (Standard Maritime Communication Phrases (SMCP)) *Dəniz İngilis dilinin (Maritime English*) əsas tərkib hissəsi hesab edilir.

"Dənizçilərin Təlimi, Sertifikatlaşdırılması və Növbə çəkmə Standartları haqqında Beynəlxalq Konvensiya" (International Convention on Standards of Training, Certification and Watchkeeping for Seafarers (STCW) sənədinin IV hissəsində göstərilir ki, "*beynəlxalq konvensiyaya uyğun olaraq növbəçəkmə məsuliyyəti olan bütün zabitlər (şturman və ya mühəndislər) ingilis dilini həm şifahi, həm də yazılı şəkildə çox yaxşı bilməlidirlər" (s.49) (Under the STCW Convention, all officers in charge of a watch (navigational or engineering) must have a good command of spoken and written English)* [6].

Bu sənədə uyğun olaraq Azərbaycan Respublikasında da peşəkar dənizçi kadrların hazırlanması ilə məşgul olan Azərbaycan Dövlət Dəniz Akademiyasında (ADDA) da milli proqramlar çərçivəsində "Ümumi İngilis dili-General English" və "Peşə yönümlü ingilis dili" (English for Special Purposes-ESP) fənləri tədris olunur. Artıq 2020-ci tədris ilindən ingilis dilinin tədrisini daha da təkmilləşdirmək və tələbələrin xarici dillərdə artan tələblərini və kompetensiyalrını daha da inkişaf etdirmək məqsədilə bu sahədə əlavə fənnlərin, "Kommunikativ ingilis dili-Communicative English", "İşgüzar ingilis dili-Business English", "Akademik oxu və yazı-Academic reading and writing", "Nitq vərdişlərinin inkişaf etdirilməsi-Enhancement of speech habits" və sair. tədrisinə start verilmişdir. Bundan əlavə artıq bir neçə ildir ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" (QSC) və onun rəhbərliyinin birbaşa təşəbbüsü ilə Azərbaycanda ingilisdilli milli dənizçi kadrların hazırlanması məqsədi ilə Dəniz Akademiyasında ingilisdilli qruplar üçün müxtəlif ixtisaslar üzrə qəbul aparılır və bu qruplarda bütün fənlər ingilis dilində tədris edilir. Dəniz ingilis dili (Maritime English -ME) ingilis dilinin xüsusi bir növüdür və dildə məna daşıma baxımından bir sıra akademik və peşəkar bölümlərlə daban-dabana ziddiyət təşkil edir. Lakin gəmilər arası, gəmi-sahil və gəmi göyərtəsində (bortunda) dənizçilər arasında baş verən kommunikasiya prosesində xüsusi dəniz dili növü kimi istifadə edilir. Nəzərə alsaq

ki, pesəkar məqsədlər üçün istifadə edilən dil (***professional language)*** xüsusi sahələrdə və xüsusi məqsədlər üçün işlədilir, o zaman "***biz bu dili bir dilin alt dili ((xüsusi törəməsi-sublanguage) kimi***" də qəbul edə bilərik [5].

Məlumdur ki, dənizdə səhv etməyin nəticəsi çox ağır olur. Biz səhv deyərkən həm texniki, həm də dil (ünsiyyət) səhvlərini nəzərdə tuturuq. Dənizçilər ünsiyyət prosesində maksimum diqqətli olmalı və hər sözü və ya ifadəni dəniz şəraitindən asılı olaraq ən azından iki və ya üç dəfə aydın şəkildə təkrar-təkrar deməlidirlər. Dənizçilik elə bir sahədir ki, bir gəmidə müxtəlif dil daşıyıcıları ola bilir. Dil baxımından ola biləcək hər hansı bir anlaşılmazlıq bədbəxt hadisə ilə nəticələnə bilər. Bu səbəbdən ingilis dilinin dənizçilər tərəfindən və dəniz sənayesində bir ümumi ünsiyyət vasitəsi kimi istifadə edilməsi bir zərurət olmuşdur. Qeyd etmək vacibdir ki, "*kommunikasiya nəticəsində yaranan hər hansı bir problem təkcə gəmi heyəti üçün deyil, eləcə də gəmi və ətraf mühit üçün də təhlükələr yarada bilər"* [3]. Məhz bu səbəblər dənizçilərin standart bir dildən istifadə etməsini bir zərurətə çevirmişdir. Başqa sözlə desək, dənizçilik nəqliyyat sistemində BDT (İMO) tərəfindən təqdim edilmiş standart dəniz ifadələrindən istifadə etmədən nə uğurlu ünsiyyət prosesindən, nə də təhlükəsiz dəniz ticarəti daşımalarından söhbət gedə bilməz.

Metodologiya. Ünsiyyət prosesində dənizçilik sahəsinə aid olan həm yazılı mətnlərin oxunması, tərcüməsi və təhlili, həm də şifahi nitqin formalaşması üçün nəzərdə tutulmuş dialoqların dinlənməsi və reproduksiyası (təqlidi) xüsusi önəm daşıyır. Bu yanaşma xüsusi təyinatlı və peşə yönümlü ali təhsil müəssisələrində zəruri tələb kimi qoyulur. *Dəniz ingilis dili (Maritime English*) ayrıca bir dil olmasa da, ingilis dilinin xüsusi bir tipi hesab olunur və adətən "*Xüsusi məqsədlər üçün ingilis dili-English for Special Purposes (ESP)* qrupuna aid edilir. Buna görə də bu tip ali təhsil ocaqlarında xarici dillərin tədrisi müəllimlərdən peşəkarlıq və xüsusi hazırlıq tələb edir. Diskurs fəaliyyətinin səmərəliliyini artırmaq üçün dənizçilklə bağlı ingilis dili dərslərində (xüsusilə ünsiyyət tipli dialoqlarda) zəruri olan dil qaydalarına əməl edilməlidir.

Dəniz profilli ali təhsil müəssisələrində ingilis dilinin öyrədilməsi ümumi ingilis dilinin tədrisi metodologiyasına "söykənsə" də tamamilə yeni yanaşma tələb edir. Burada tələbənin ümumi baza bilikləri də nəzərə alınmalıdır. T. Dudli Evans (T. Dudley-Evans) və M. St. Conz (M. St John) xüsusi profilli məktəblərdə xüsusi məqsədlər üçün nəzərdə tutulan ingilis dilinin (ESP) öyrədilməsi zamanı "mütləq və dəyişən xüsusiyyətlər" kateqoriyasına aşağıdakıları daxil edirlər. Mütləq xüsusiyyətlər;

a) ESP tələbənin ehtiyaclarına cavab verir;

b) ESP-də müəyyən peşəyə xas olan, üstünlük təşkil edən tədris metodları və fəaliyyət növləri tətbiq edilir.

c) ESP dildə (qrammatika, lüğət, qeydlər aparmaq kimi fəaliyyətlərə), bacarıq və qabiliyyətlərə, janrlar və diskursa diqqət yetirir.

ESP-nin dəyişən xüsusiyyətlər sırasında isə;

a) ESP konkret fənn və ixtisası nəzərə alır və fəaliyyət bunun əsasında aparılır;

b) müxtəlif (fərqli) dərs situasiyalarında ümumi ingilis dili (GE) tədrisi zamanı istifadə edilən üsullardan tam fərqli olan metodlardan istifadə oluna bilər;

c) böyük ehtimalla ali peşə təhsili müəssisələrində yüksək səviyyəli tələbələr üçün, ya da peşəkar ünsiyyət prosesində istifadə üçün nəzərdə tutulmuşdur. Ümumiyyətlə, Dudli Evans və Conz ESP- nin yaxşı dil bilikləri olan tələbələr üçün nəzərdə tutulduğunu hesab edirlər [1].

Hər iki kateqoriyaya xas olan üstünlüklər və çatışmayan cəhətlər mövcuddur. Lakin, hər iki kateqoriya üçün ümumi olan bir yanaşma diqqəti çəkir. Bu isə mütləq xüsusiyyətlər sırasında qeyd edilən tələbənin *konkret ehtiyaclarıdır.* Bu baxımdan ESP dərsləri tələbənin ehtiyaclarını nəzərə almaqla təşkil edilməlidir.

Əksər hallarda ESP dərslərində öyrənənlərdən dil sisteminin baza biliklərini bilmələri tələb kimi qoyulur. Bununla belə xarici dili öyrənməyə yenicə başlayanlar arasında da ESP dərsləri keçmək istəyənlərə da rast gəlmək olur.

Unutmaq olmaz ki, istənilən dil hazırlığı ünsiyyət prosesini özü üçün hədəf sayır. Yaxşı ünsiyyət qurmaq bacarığı sadəcə olaraq öyrənilən dilin leksik vahidlərini, ifadələrini və qrammatik

strukturlarını öyrənməyə deyil, əslində daha çox dinləmə və dinlənilən informasiyaya (dialoqa, söhbətə və s) reaksiya vermək, öz müsahibi ilə fəal dialoqa girmək bacarığına əsaslanır.

Təcrübə. Tələbələr (müdavimlər) arasında ingilis dilində yazılmış dinləmə kasetlərinə qulaq asarkən (simulyasiya tipli dialoqlar (***simulated dialogues***)) onların dinlədikləri mövzuya nə qədər maraq göstərmələri və ya motivasiyaları qeyd edilir. Bu həm ümumi ingilis dilinə (*General English, GE*) aid dinləmə dialoqları, həm də ESP istiqamətli dinləmə dialoqları ola bilər. Bu eksperimental fəaliyyət prosesi daha effektli olsun deyə eyni şərtlər daxilində iki-iki olmaqla tələbələr arasında növbə ilə də keçirilə bilər. Bu zaman hər iki tələbənin eyni mövzuya nə qədər diqqət vermələri, növbə ilə bir-birinə müraciət etmələri, ünsiyyət prosesində onların hansı qeyri-verbal dil komponentlərindən istifadə etmələri, leksik və qrammatik səviyyələrinin üzə çıxarılması, fonetik qabiliyyətlər və sair dil xüsusiyyətləri uğurla üzə çıxarıla bilər.

Nəticə. Bu məqalədə Dəniz ingilis dilini (*Maritime English*) ayrıca götürülmüş vahid bir dil formasında nəzərdən keçirmək düzgün olmazdı. Dəniz İngilis dilinə (Marine English) əslində xüsusi diskursun çoxşaxəli bir növü kimi baxmaq daha doğru olardı. Qeyd etmək yerinə düşər ki, dəniz diskursu öz xüsusiyyətlərinə görə quru, maraqsız və emosionallıqdan uzaq bir dil tipi görünə bilər. Amma xüsusi dil tiplərinə aid olan bu xüsusiyyətlərə başqa sahələrdə də rast gəlmək olar. Araşdırmalardan bu nəticəyə gəlmək olar ki, Dəniz ingilis dili (*Maritime English Discourse*) istiqamətində kommuniksiya vərdişlərinin öyrədilməsində, dənizçilik kontekstində informasiya ötürülməsi və alınmasında əsas meyarlar:

- tələbələr arasında "dənizdə" müxtəlif situasiyalara aid şifahi nitqlə bağlı dialoqların təşkili və keçirilməsi ehtiyacı;
- tələbələrin Dəniz ingilis dilinə aid standart söz və ifadələrdən istifadə etməklə öz aralarında kommunikasiya mühiti yaratmaq bacarıqları;
- dənizçiliklə bağlı müxtəlif mövzularda "Standart Dəniz Sözlərindən*"(Standard Maritime Vocabulary*) istifadə etməklə öyrənilən biliklərin və ünsiyyət bacarıqlarının inkişaf etdirilməsi;
- Dənizçiliklə bağlı və ya tələbələrin ixtisas ehtiyaclarını ödəyən dinləmə materiallrının (video, audio, disklər, kasetlər və sair) simulyativ reproduksiyası və nəticələrin təhlili ola bilər.

Dəniz ingilis dili istiqamətində tədrisin daha keyfiyyətli olması üçün təkcə təhsil verən müəssisənin məsuliyyətindən danışmaq düzgün olmazdı. Heç şübhəsiz kommunikasiya vərdişlərinin aşılanması tədrici bir proses olduğundan birada müəllimin peşəkarlığı da böyük rol oynayır. Bir daha vurğulamaq yerinə düşər ki, kommunikativ bacarıqlar leksik və qrammatik strukturların yüksək səviyyədə mənimsənilməsindən keçmir. Əsas məsələ bu "üstünlüklərdən" istifadə edərək danışıq qaydalarının və vərdişlərinin öyrənilməsi və praktik tətbiq edilməklə kommunikativ vərdişlərin inkişaf etdirilməsidir.

Ədəbiyyat

1. Бородина, Н. В. Морской английский язык в обеспечении безопасности мореплавания // Научные труды Дальрыбвтуза. 2010.
2. Firth, A., "The Discursive Accomplishment of Normality: On 'Lingua Franca' English and Conversation Analysis", Journal of Pragmatics, Vol. 26, (1996), pp. 237-259
3. Marıtıme Englısh. Volume 1. Παρασκευη λ. Παπαλεωνιδα, Athens, 2015
4. Nadrag, L. (1999) A psycholinguistic Approach to Communication in English Language Teaching. İn vol. "Knowledge based organization", The 14 International Scientific Conference, Sibiu, 27-29 Nov, 2008, pp. 148-155
5. Sanela Kovacevic Pejakovic. Maritime English Language – Features. European Journal of Language and Literature Studies. September-December 2015, vol.1, issue 3
6. STCW A GUIDE FOR SEAFARERS. Taking into account the 2010 Manila amendments https://www.mptusa.com/pdf/STCW_guide_english.pdf

Məqalə qəbul olunub: 04.03.2021
Tövsiyə ediblər: t.e.d., prof. Z.Ə. Rüstəmov

GƏMİÇİLİK TEXNİKASI

UOT: 621.3:007

YANACAQ VERİLMƏSİNİN QABAQLAMA BUCAĞININ 6L20 MARKALI BAŞ GƏMİ DİZELİNDƏ YANMA PROSESİNƏ VƏ MÜHƏRRİKİN ƏSAS GÖSTƏRİCİLƏRİNƏ TƏSİRİNİN NƏZƏRİ TƏDQİQİ

Axundov İ.S.

Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ1000, Bakı şəh., Z.Əliyeva küç., 18
E-mail: i.akhundov@caspmarine.com

Xülasə. *Məqalədə dizellərdə yanma prosesini hesablamaq üçün təklif olunan metodikanın əsas müddəalarına, eləcə də, riyazi eksperimentlərin nəticələrinə əsasən 6L20 markalı baş gəmi dizel mühərrikində yanacaq verilməsinin qabaqlama bucağının yanma prosesinin parametrlərinə, mühərrikin iqtisadi və energetik göstəricilərinə təsirinin nəzəri tədqiqinə baxılmışdır.*

Abstract. *This Article considers as of the main provisions of proposed methodology done for calculating the parameters of combustion process in diesel engines, as well as a theoretical study of influencing features of a fuel injection advanced angle on the parameters of combustion process, and also to the energetically and economic indicators based on results of computational experiments done for main ship diesel engine of type 6L20.*

Аннотация. *В статье рассматриваются основные положения предложенной методики для расчета процесса сгорания в дизелях, а также, теоретическое исследование, на основе результатов вычислительных экспериментов, влияния угла опережения подачи топлива на параметры процесса сгорания, на энергетические и экономические показатели главного судового дизельного двигателя марки 6L20.*

Açar sözlər: *dizel mühərriki, yanacaq verilməsinin qabaqlama bucağı, riyazi eksperimentlər, iqtisadi və energetik göstəricilər, orta effektiv təzyiq, effektiv güc, yanacaq sərfi, yanma müddəti, istilikdən istifadə olunma əmsalı, induksiya periodu*

Key words: *diesel engine, fuel injection advanced angle, computational experiments, energy and economic indicators, mean effective pressure, brake power, fuel consumption, combustion duration, heat utilization coefficient, induction period*

Ключевые слова: *дизельный двигатель, угол опережения подачи топлива, вычислительные эксперименты, энергетические и экономические показатели, среднее эффективное давление, эффективная мощность, расход топлива, продолжительность сгорания, коэффициент использования теплоты, период индукции*

Giriş. Məlumdur ki, gəmidə istismar xərclərinin azaldılması məqsədilə baş dizel mühərriklərində distillat dizel yanacağı ilə yanaşı nisbətən ucuz olan ağır yanacaqlardan da istifadə olunur. Bu halda yanacağın növü dəyişdiyindən yanacaq verilməsinin qabaqlama bucağının mühərrikin energetik və iqtisadi göstəricilərinin yaxşılaşmasını təmin edən, rasional qiyməti də təyin edilməlidir. Bunun üçün isə yanma prosesinin əsas göstəriciləri: - induksiya periodu, yanmanın maksimum təzyiqi və temperaturu, təzyiqin yüksəlmə sürəti, yanma zamanı silindrdə istilik ayrılmasının xarakteri, yanma müddəti və s. parametrlər, eləcə də, mühərrikin energetik və iqtisadi göstəriciləri: - effektiv güc, orta effektiv təzyiq, xüsusi effektiv yanacaq sərfi və s. hesablanmalı və təhlil edilməlidir. Bu parametrlər mühərrikin indikator diaqramına görə, və yaxud, sınaq qurğusunda ölçmə yolu ilə təyin edilə bilər. Lakin, məlumdur ki, gəmidə bu işləri yerinə yetirmək olduqca çətindir

və çox vaxt tələb edir. Çünki bu işlərin yerinə yetirilməsi lazımi cihaz və avadanlığın quraşdırılması, material və vaxt itkiləri ilə bağlıdır.

Mühərrikdə istifadə olunan yanacağın növü dəyişdikdə, daha yüksək indikator göstəriciləri almaq üçün yanacaq verilməsinin qabaqlama bucağı, püskürmə təzyiqi və öz-özünə alışmanın gecikmə periodu elə olmalıdır ki, yanma prosesi y.ö.n.-in yaxılığında inkişaf etsin.

Yanacaq həddindən artıq tez püskürüldükdə silindrdəki havanın temperaturu az olduğundan induksiya periodu böyüyə bilər. Belə olduqda, yanma prosesi y.ö.n.-ə görə elə sürüşə bilər ki, silindrdə maksimum təzyiq porşen y.ö.n.-ə çatmamış alınar. Bu, sıxma işinin kəskin artması, genişlənmədəki işin azalması və, aydın məsələdir ki, indikator göstəricilərinin də kiçilməsi ilə müşayət olunacaqdır. Bundan başqa görünən yanma mərhələsi təzyiqin yüksəlmə sürətinin də böyüməsi ilə xarakterizə olunacaqdır.

Yanacaq gec püskürülərsə, yanma genişlənmə prosesinə keçir və mühərrikin indikator göstəriciləri yenə də pisləşir. Yanacaq verilməsinin qabaqlama bucağının rasional (optimal) qiyməti yanıcı qarışığın hazırlanma üsulundan, eləcə də mühərrikin sürət və yük rejimindən asılıdır. Hər bir mühərrik üçün bu qiymət eksperimental tədqiqatlar nəticəsində seçilir.

Beləliklə, bu mülahizələrdən göründüyü kimi, gəmi dizellərində istifadə olunan yanacağın növü dəyişdikdə yanacaq verilməsinin qabaqlama bucağının rasional (optimal) qiymətləri təyin edilməlidir. Bu qiymətlərin sınaq təcrübələri yolu ilə seçilməsi istər material və maddi vəsait, istərsə də vaxt itkiləri baxımından əlverişli olmadığına görə riyazi eksperimentlərdən istifadə olunması daha məqsədəuyğundur. Bu isə dizel mühərrikinin işçi tsiklinin, o cümlədən, yanma prosesinin müvafiq hesablama metodikasının olmasını tələb edir.

Əsas hissə. Yanma prosesinin hesabı zamanı öz-özünə alışmanın gecikmə və yaxud induksiya periodu A.İ.Tolstovun təklif etdiyi aşağıdakı empirik düsturla təyin olunur [1]:

$$\tau_i = \sqrt{\left(\frac{V_\theta - V_c}{V_{s.kl.}} + \frac{1}{\varepsilon}\right)\frac{T_o}{p_o}} \cdot 10^{-2} \cdot B \cdot \exp\left[\left(\frac{V_\theta + V_c}{V_{s.kl.}} + \frac{1}{\varepsilon}\right)^{n_1^{-1}} \cdot \frac{E}{R_\mu T_0}\right], \qquad (1)$$

burada $V_\theta, V_c, V_{s.kl.}$ - uyğun olaraq püskürmənin əvvəlində, sıxmanın sonunda və sorma klapanı bağlandığı anda silindrin həcmləridir, m^3; ε - sıxma dərəcəsi; T_0 -ətraf mühitin temperaturu, K; p_0 - ətraf mühitin təzyiqi, Pa; E - şərti aktivləşmə enerjisi, $C/kmol$; R_μ - universal qaz sabiti, $C/(kmol \cdot K)$; n_1 - sıxmanın politrop göstəricisi; B - əmsaldır:

$$B = \left(1 - 1{,}16 \cdot 10^{-4} \cdot n\right) \cdot 12 \cdot 10^{-5}$$

n - dirsəkli valın dövrlər sayıdır, $dəq^{-1}$.

Müxtəlif növ yanacaqlar üçün şərti aktivləşmə enerjisi onların setan ədədlərindən asılı olaraq aşağıdakı düsturla təyin edilir [4]:

$$E = E_{DY} \cdot (\text{S.Ə.}_{DY} / \text{S.Ə.}_{qar})^{0{,}1128}, \ C/kmol \qquad (2)$$

burada E_{DY} - dizel yanacağının şərti aktivləşmə enerjisi, $C/kmol$; S.Ə._{DY} və S.Ə._{qar} - uyğun olaraq dizel yanacağının və qarışıqların setan ədədləridir.

Yanacağın silindrə verilməsinin qabaqlama bucağının həqiqi qiymətinin isə aşağıdakı kimi təyin olunması təklif edilir:

$$\theta = \theta_{men} - \Delta\theta \ , \tag{3}$$

burada θ_{men}– yanacağın silindrə verilməsinin qabaqlama bucağının meniskə görə qiyməti, *saniyə* və ya *dərəcə* ilə; $\Delta\theta$ - yüksək təzyiqli yanacaq nasosunun (YTYN) çıxışından forsunkanın soplo deşiklərinin çıxışına qədər olan hissədə yanacağın sıxılması nəticəsində yanacaq verilməsinin gecikməsini nəzərə alan bucaqdır, *saniyə* və ya *dərəcə* ilə.

$\Delta\theta$ aşağıdakı empirik düsturla hesablanır [5]:

$$\Delta\theta = 5{,}85 \cdot 10^{-3} \cdot n - 2{,}7 \ , \tag{4}$$

burada n – mühərrikin dövrlər sayıdır, *dəq*$^{-1}$.

Yanma prosesi başlandıqdan sonra yanacağın yanmış hissəsinin nisbi miqdarını təyin etmək üçün İ.İ.Vibenin təklif etdiyi empirik tənlikdən istifadə olunmuşdur:

$$X = 1 - \exp\left[-6{,}908(\varphi / \varphi_z)^{m+1}\right], \tag{5}$$

burada φ - dirsəkli valın dönmə bucağı, *dər.*; φ_z - şərti yanma müddəti, *dər.*; m - yanmanın xarakterinin göstəricisidir.

Tənliyə daxil olan əmsallar (şərti yanma müddəti və yanmanın xarakterinin göstəricisi) indikator diaqramının köməyi ilə hesablanır. Belə ki, mühərrikin müxtəlif iş rejimlərində çıxarılmış indikator diaqramlarının işlənməsi nəticəsində m və φ_z-i təyin etmək üçün mühərrikin dövrlər sayından asılı olaraq aşağıdakı empirik düsturlar alınmışdır [3]:

$$m = A_0 + A_1 \cdot n + A_2 \cdot 10^{-5} \cdot n^2 + A_3 \cdot n^3 , \tag{6}$$

$$\varphi_z = B_0 + B_1 \cdot n + B_2 \cdot 10^{-5} \cdot n^2 + B_3 \cdot n^3 , \tag{7}$$

burada $A_0, A_1, A_2, A_3, B_0, B_1, B_2, B_3$ - məlum ədədi əmsallardır.

Yanma prosesi başladıqdan sonra yanacağın yanması nəticəsində ayrılan istiliyin miqdarı Δt zaman intervalında aşağıdakı düsturla hesablanır:

$$\Delta Q_{H_{uj}} = \xi_z \cdot H_u \cdot g_{ts} \cdot \Delta x_j , \tag{8}$$

burada ξ_z - yanma məhsullarının dissosiasiyasını, yanmanın tamlığını və istilik itkilərini nəzərə alan istilikdən istifadə olunma əmsalı; Q_H - yanacağın aşağı yanma istiliyi, *C/kq*; g_{ts} - tsiklik yanacaq verilişidir, *kq*; Δx_j - Δt zaman intervalında yanan yanacağın miqdarı:

$$\Delta x_j = x_{j+1} - x_j ,$$

x_{j+1} və x_j yanacaq miqdarının, uyğun olaraq, t_{j+1} və t_j anındakı qiymətləridir.

İstilikdən istifadə olunma əmsalı da indikator diaqramlarının işlənməsi nəticəsində çıxarılan empirik düstur vasitəsi ilə təyin edilir:

$$\xi_z = \frac{\rho_{DY}}{\rho_{qar}} \cdot \left(C_0 + C_1 \cdot n - C_2 \cdot n^2\right), \tag{9}$$

burada ρ_{DY} - standart dizel yanacağının sıxlığı, *kq/m³*; ρ_{qar} - standart dizel yanacağı və digər yanacaq növlərinin müxtəlif nisbətlərdə hazırlanmış qarışıqlarının sıxlığıdır, *kq/m³* ; C_0, C_1 *və* C_2 - məlum ədədi əmsallardır.

ξ_z-in ifadəsindən göründüyü kimi, gəmi dizellərində müxtəlif növ ağır və yüngül yanacaqlardan, eləcə də onların standart dizel yanacağı ilə müxtəlif nisbətlərdə hazırlanmış qarışıqlarından, istifadə etdikdə qarışığın sıxlığı (ρ_{qar}) azaldıqca, ρ_{DY}/ρ_{qar} nisbəti və istilikdən istifadə olunma əmsalı artır, əksinə qarışığın sıxlığı (ρ_{qar}) artdıqca, ρ_{DY}/ρ_{qar} nisbəti və istilikdən istifadə olunma əmsalı azalır. Bu, qarışıqda yüngül fraksiyanın artması ilə onun buxarlanma qabiliyyətinin artması hesabına yanıcı qarışığın keyfiyyətinin və ona görə də yanma prosesinin yaxşılaşması, əksinə qarışıqda ağır fraksiyanın artması ilə onun buxarlanma qabiliyyətinin azalması hesabına yanıcı qarışığın keyfiyyətinin və yanma prosesinin pisləşməsi ilə izah olunur.

Tsiklik yanacaq verilişi aşağıdakı düsturla hesablanır:

$$g_{ts} = \frac{G_h}{30 \cdot n \cdot \alpha \cdot l_o \cdot i}\ , kq/\ tsikl \tag{10}$$

burada G_h - mühərrikin saatlıq hava sərfi, *kq/saat*; α - hava artıqlıq əmsalı; l_0 - 1 kq yanacağın tam yanması üçün tələb olunan nəzəri hava miqdarıdır, *kq hava / (kq yanacaq)*; i - mühərrikin silindrlərinin sayıdır.

Sıxma, genişlənmə, sorma və xaric proseslərinin hesabı zamanı $dQ_{Hu} = 0$, yanma prosesi real indikator diaqramlarına görə hesablandığından yanma zamanı $dQ_W = 0$ qəbul olunur.

Silindrdəki parametrlərin hesabı zamanı işçi qarışığın karbon qazından (CO_2), su buxarlarından (H_2O), oksigendən (O_2), və azotdan (N_2) ibarət olduğu qəbul olunmuşdur. İşçi qarışığın mol miqdarının dəyişməsi həmin komponentlərin mol miqdarlarının cəmi kimi təyin edilmişdir:

$$dM = dM_{CO_2} + dM_{H_2O} + dM_{O_2} + dM_{N_2}, \tag{11}$$

Qeyd etmək lazımdır ki, sıxma, yanma və genişlənmə proseslərində işçi qarışığın mol miqdarı sabit götürülmüşdür: sıxmada işçi qarışığın mol miqdarı silindrə daxil olmuş hava ilə qalıq qazların mol miqdarları cəminə bərabər, genişlənmədə isə tsiklik yanacaq dozasının mol miqdarı qədər artdığı qəbul olunmuşdur.

Yanma zamanı işçi qarışığın ayrı-ayrı komponentlərinin mol miqdarları:

$$\begin{aligned}
M_{CO_2 j+1} &= M_{CO_2 j} + \frac{C}{12} \cdot g_{ts} \cdot \Delta x_j; \\
M_{H_2O \cdot j+1} &= M_{H_2O \cdot j} + \frac{H}{2} \cdot g_{ts} \cdot \Delta x_j; \\
M_{O_2 j+1} &= M_{O_2 j} - 0{,}21 \cdot L_0 \cdot g_{ts} \cdot \Delta x_j; \\
M_{N_2 j+1} &= M_{N_2 j};
\end{aligned} \tag{12}$$

burada C və H –1 *kq* yanacaqda olan karbon (C) və hidrogenin (H) kütlə hissələridir.

Yanma zamanı silindrdəki işçi qarışığın ümumi mol miqdarı:

$$M_{j+1} = M_{CO_2 j+1} + M_{H_2 Oj+1} + M_{O_2 j+1} + M_{N_2 j+1} + (G_{yj+1} - g_{ts} \cdot x_{j+1}) / \mu_y \,, \qquad (13)$$

Bütün hallarda mühərrikin silindrindəki təzyiq və temperaturun cari qiymətləri aşağıdakı düsturlarla təyin edilmişdir:

$$dT = \frac{dU}{\mu C_V \cdot M} \,, \qquad (14)$$

$$p = \frac{R_\mu MT}{V} \,, \qquad (15)$$

burada dU - silindrdəki qazların daxili enerjisinin dəyişməsidir, *C*; M - silindrdəki qazların mol miqdarı, *kmol*; V - silindrin həcminin cari qiyməti, m^3; μC_V - silindrdəki qarışığın sabit həcmdəki molekulyar istilik tutumudur.

Riyazi eksperimentlər yanma prosesinin yuxarıda şərh olunmuş hesablama metodikası da daxil olmaqla dizel mühərrikinin işçi tsiklinin tərtib olunmuş riyazi modeli [1] əsasında mühərrikin nominal iş rejimində, Fortran alqoritmik dilində hazırlanmış proqram əsasında kompyuterdə yerinə yetirilmişdir. Hesablamanın nəticələri, daha doğrusu, yanma prosesini xarakterizə edən əsas parametrlər, o cümlədən, mühərrikin iqtsadi və energetik göstəriciləri cədvəldə göstərilmişdir.

Riyazi eksperimentlər yanacağın başlanğıc püskürmə təzyiqi $p_{fo}=45$ *MPa,* mühərrikin nominal dövrlər sayı $n=1000$ *dəq*$^{-1}$, mexaniki faydalı iş əmsalı $\eta_m=0,85$, yanacağın sıxlığı $\rho_y=848$ *kq/m*^{3} olduqda yerinə yetirilmişdir

Cədvəl

Yanacaq verilməsinin qabaqlama bucağından asılı olaraq 6L20 markalı baş gəmi dizelinin əsas göstəriciləri

Göstəricilər	**θ_{men}, dər. Y.Ö.N.-ə qalmış**				
	4,8	**9,8**	**14,8**	**19,8**	**24,8**
1.Yanmanın maksimum təzyiqi *(p_z), MPa*	15,94	18,97	21,87	24,36	26,26
2.Yanmanın maksimum temperaturu *(T_z), K*	1949	2000	2061	2122	2185
3.İndikator f.i.ə. *(η_i)*	0,519	0,539	0,553	0,561	0,565
4.İnduksiya periodu *($\tau_i \cdot 10^3$), san.*	0,5173	0,572	0,7031	0,9352	1,309
5.Orta indikator təzyiqi *(p_i), MPa*	2,738	2,846	2,921	2,963	2,982
6.İndikator gücü *(N_i), kVt*	1204	1252	1285	1303	1312
7.Xüsusi indikator yanacaq sərfi *(g_i)*, $\frac{q}{kVt \cdot saat}$	162,8	156,6	152,6	150,4	149,4
8.Orta effektiv təzyiq *(p_e), MPa*	2,327	2,42	2,483	2,519	2,535
9.Effektiv güc *(N_e), kVt*	1023	1064	1092	1108	1115
10.Xüsusi effektiv yanacaq sərfi *(g_e)*, $\frac{q}{kVt \cdot saat}$	191,5	184,2	179,5	176,9	175,8
11.Effektiv f.i.ə. *(η_e)*	0,441	0,458	0,470	0,477	0,48

Cədvəldən göründüyü kimi, yanacaq verilməsinin qabaqlama bucağının böyüməsi induksiya periodunun (τ_i) da artmasına səbəb olur. Bu, θ-nın artması ilə silindrə yanacaq verilməsi anında

silindrdəki havanın sıxlıq və temperaturunun azalması ilə izah olunur [2]. Riyazi eksperimentlər yanma müddətinin (φ_z), istilikdən istifadə olunma əmsalının (ξ_z) sabit və optimal qiymətlərində yerinə yetirilmişdir.

Yanacaq verilməsinin qabaqlama bucağının yüksəlməsi nəticəsində silindrdəki maksimum təzyiq (P_z) və maksimum temperatur (T_z) da artır. Bu isə təzyiqin yüksəlmə sürətinin, daha doğrusu, mühərrikin sərtlik dərəcəsinin də artması ilə müşahidə olunur. Bundan başqa yanacaq verilməsinin qabaqlama bucağının həddindən artıq kiçilməsi (məsələn, $\theta_1 = 4{,}8^0$ olduqda) zamanı yanma prosesi genişlənmə xəttinə keçir ki, bu da indikator və effektiv göstəricilərin pisləşməsinə, daha doğrusu, gücün azalmasına, yanacaq sərfinin isə artmasına səbəb olur.

Cədvəldən aydın olur ki, yanacaq verilməsinin qabaqlama bucağının artması zamanı mühərrikin indikator və effektiv gücü (N_i və N_e) artır, xüsusi indikator və effektiv yanacaq sərfləri (g_i və g_e) isə azalır. Deməli, 6L20 markalı baş gəmi dizelində yanacaq verilməsinin qabaqlama bucağının $14{,}8^0$-dən çox böyüdülməsi mühərrikin effektiv göstəricilərinin yaxşılaşması, həmçinin silindrdəki maksimum təzyiq və temperaturun çox böyüməsi nöqteyi-nəzərindən effektli deyil və $\theta = 9{,}8^0$ qiyməti optimal hesab oluna bilər.

Nəticə. Mühərrikin göstəricilərinin yanacaq verilməsinin qabaqlama bucağından asılı olaraq dəyişməsinin təhlili göstərdi ki, yanacaq verilməsinin qabaqlama bucağının $9{,}8^0$-dən çox və ya az olması elə də əlverişli deyil. Çünki bucağın $9{,}8^0$-dən böyük qiymətlərində mühərrikin indikator və effektiv göstəricilərinin cüzi də olsa yaxşılaşmasına baxmayaraq, yanmanın maksimum təzyiq və temperaturu xeyli artır ki, bu da DŞM-də istilik və mexaniki gərginliklərin də böyüməsinə, eləcə də mühərrikin motoresursunun azalmasına səbəb olur.

Yanacaq verilməsinin qabaqlama bucağının $9{,}8^0$-dən kiçik olması isə yanmanın genişlənmə xəttinə keçməsi səbəbindən mühərrikin indikator və effektiv göstəricilərinin pisləşməsi ilə nəticələnir. Odur ki, yanacaq verilməsinin qabaqlama bucağının rasional qiymətini $\theta_{men} = 9{,}8^0$ qəbul etmək məqsədəuyğundur.

Ədəbiyyat

1. Двигатели внутреннего сгорания: Теория поршневых и комбинированных двигателей. Учебник для вузов по специальности “Двигатели внутреннего сгорания” / Д.Н.Вырубов, Н.А.Ивашенко, В.И.Ивин и др.: Под ред. А.С.Орлина, М.Г.Круглова – 4-е изд., перераб. и доп. – М.: Машиностроение, 1983, - 372с., ил.
2. Исмаилов, А.Ш., Ахундов И.С. Методика расчета и математическая модель рабочего цикла четырехтактного судового дизеля // «Актуальные вопросы развития транспортной системы», Сборник научных трудов Международной научно-практической конференции. - Махачкала: Филиал МАДИ, -14-15 мая, -2015 г, -с. 78-83.
3. Исмаилов, А.Ш. Исследование рабочего процесса дизеля с ПАРСС, восстанавливающим обьем камеры сгорания в конце выпуска в начале наполнения. / Дис. Канд. Техн. Наук. / - Баку, 1990. -187 с.
4. Насибов, Ф.Б. Рабочий процесс дизеля с поршнем автоматически регулирующим степень сжатия при использовании различных жидких топлив. / Диссерт. на соиск. канд. тех. наук. / - 1999, Баку, АзТУ, 140 с.
5. Парсаданов,И.В. Оценка влияния угла начала подачи топлива на показатели динамической напряженности и топливной экономичности быстроходного дизеля / И.В.Парсаданов, С.И. Третьяков // Двигатели внутреннего сгорания, - 2004. № 1, -с.30-33.

Məqalə qəbul olunub: 12.03.2021
Tövsiyə ediblər: t.e.d., prof. A.M. Qafarov

UOT 62.83.52

GƏMİ ELEKTRİK İNTİQALLARINDA İSTİFADƏ OLUNAN TEZLİK ÇEVİRİCİLƏRİNİN TƏHLİLİ

Abdullayev Y.R., Cəlilov T.A.

Azərbaycan Neft və Sənaye Universiteti
AZ1010, Bakı şəh., Azadlıq pr.,20
Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ1000 Bakı şəh., Z.Əliyeva küç.,18
E-mail: turyancelil@gmail.com

Xülasə. *Məqalədə gəmilərdə elektrik intiqallarında istifadə olunan tezlik çeviricilərinin təhlili aparılmış və onların istifadəsinə dair təkliflər verilmişdir. Həmçinin, aralıq dövrəsinə görə tezlik çeviricilərinin təhlili aparılmış və gəmi elektrik və elektroenergetika sistemlərində hansı tezlik çeviricisinin tətbiq edilməsinin daha məqsədəuyğun olduğu göstərilmişdir.*

Abstract. *In this article has been analyzes the frequency converters used in electrical drives on ships and offers suggestions for their use. In additon has been analyzes the frequency converters for the intermediate circuit and shows which frequency converter is more appropriate in the ship's electrical and power systems.*

Аннотация. *В статье проведен анализ преобразователей частоты, применяемых в судовых электроприводах, а также предложены методы их использования. Кроме того, для промежуточных цепей проведен сравнительный анализ преобразователей частоты и указан наиболее подходящий тип частотного преобразователя для применения в судовых электрических и электроэнергетических системах.*

Açar sözlər: *gəmi, elektrik intiqalı, tezlik çeviricisi, aralıq dövrəsi, düzləndirici*

Key words: *ship, electrical drive, frequency converter, intermediate cycle, rectifier*


Ключевые слова: *судно, электропривод, преобразователь частоты, промежуточная цепь, выпрямитель*

Giriş. Tezlik çeviricisi (TÇ) müəyyən bir tezliyə malik dəyişən cərəyanı başqa bir tezliyə malik dəyişən cərəyana çevirən qurğudur. 80-ci illərin əvvəllərində yarımkeçiricilər və mikroprosessorlar texnologiyasının inkişafı və hətta onların qiymətinin enməsi sayəsində TÇ-də əsaslı sürətdə dəyişiklik edilməyə başlandı. Ancaq TÇ-nin tərtib olunma prinsipi dəyişilmədən eyni qalmışdır. TÇ avtomatika sxemlərində müxtəlif məqsədlər üçün istifadə olunurlar. Onlar xüsusi dəyişən cərəyan elektrik intiqallarının idarə edilməsində geniş tətbiq olunurlar. TÇ-nin əsas üstünlüyü ən geniş yayılmış, ucuz və etibarlı olan qısaqapanmış rotorlu asinxron mühərrikin sürətini geniş həddə tənzim etməyə imkan verməsidir. Gəmilərdə böyük güclü asinxron elektrik intiqalları tezlik çeviriciləri vasitəsilə idarə olunur [1, 3].

Əsas hissə. TÇ-nin tərkibinə əsas 4 element daxildir:

1. Düzləndirici ona qoşulan elektrik şəbəkəsinin qidalandırıcı üç fazalı dəyişən cərəyanını döyünən sabit cərəyan gərginliyinə çevirir. Düzləndiricilər əsasən iki tipdə olurlar: idarə olunan və idarəolunmayan.
2. Üç tip aralıq bəndindən biri:
   a) Sabit cərəyanda çevrilmiş gərginliyi düzləndirir.
   b) İnvertora verilən sabit cərəyan gərginliyini hamarlaşdırır və stabilləşdirir.
   c) Düzləndiricininin dəyişməyən gərginlikli sabit cərəyanını dəyişən gərginlikli sabit cərəyana çevirir.


3. İnvertor elektrik mühərrikinə verilən gərginliyin tezliyini formalaşdırır. İnvertor dedikdə, sabit cərəyanı dəyişən cərəyana çevirən qurğu nəzərdə tutulur. Bəzi invertorlar, hətta dəyişilməyən gərginlikli sabit cərəyanı dəyişilən gərginlikli sabit cərəyana çevirir.
4. Elektron idarəetmə dövrəsi düzləndiriciyə, aralıq dövrəsinə və invertora siqnal göndərir və həmin elementlərdən siqnal alır. İdarə olunan elementlərin qurulması tamamilə TÇ-nin kontruksiyasından asılıdır (şəkil 1). Şəkil 1-də AM qısaqapanmış rotorlu asinxron mühərikidir.



Şəkil 1. *TÇ-nin blok sxemi*

Ümumiyyətlə, bütün TÇ-ləri üçün idarəetmə dövrəsi invertorun yarımkeçirici elementlərini idarə edir. TÇ-ləri kommutasiya rejiminə görə və elektrik mühərrikinin istifadə etdiyi qida gərginliyinin tənziminə görə fərqlənirlər .

Şəkil 2-də TÇ-nin müxtəlif qurulma prinsipləri göstərilmişdir.



Şəkil 2. *TÇ-nin hazırlanması və idarə edilməsinin müxtəlif elementləri*

TÇ-nin idarə edilməsini aşağıdakıların istifadə edilməsi təyin edir:

1 - idarə olunan düzləndirici;
2 - idarə olunmayan düzləndirici;
3 - dəyişə bilən sabit cərəyan aralıq dövrəsi;
4 - dəyişən gərginlikli sabit cərəyan aralıq dövrəsi;
5 - dəyişə bilən sabit cərəyan aralıq dövrəsi;
6 - amplitud-implus modulyasiyalı (AİM) invertor;
7 - eninə-implus modulyasiyalı (EİM) invertor.

TÇ-də hər hansı diodlardan tiristorlardan və onların kombinasiyasından ibarət düzləndirici qurmaq olar. Düzləndirici əgər diodlardan hazırlanırsa idarə olunmayan, tiristorlardan yığılırsa idarə


olunan olur. Əgər düzləndiricidə həm diod, həm də tiristor istifadə olunursa, yarımidarəolunan düzləndirici alınır. Aralıq dövrəyə saxlayıcı kimi baxmaq olar. İnvertordan keçən enerji elektrik mühərrikinə verilir. Aralıq dövrənin hazırlanmasının 3 prinsipi mümkündür və o, invertor və düzləndiricidən asılıdır [1, 4].

Bu halda, cərəyan mənbəli aralıq dövrəli invertorlar böyük induktivliyə malik dolaqdan və idarə olunan düzləndiricidən ibarətdir (şəkil 3). İnduktiv dolaq düzləndiricinin döyünən gərginliyini döyünməyən cərəyana çevirir. Gərginliyin yuxarı həddini elektrik mühərrikinin yükü təyin edir.



Şəkil 3. *Dəyişdirilə bilən sabit cərəyan aralıq dövrəsi*

Bu halda, gərginlik mənbəli aralıq dövrəli invertorlarda filtrlər qoyulur, tərkibində kondensator, 2 tipdən ibarət hər hansı düzləndirici olur. Filtrlər U_{zl} düzləndiricisinin sabit gərginliyinin döyünmələrini hamarlayır. İdarə olunan düzləndirici də verilmiş tezlikdəki gərginlik sabitdir və dəyişən amplitudlu sabit gərginlik olaraq invertora verilir. İdarə olunmayan düzləndiricilərin gərginliyi invertorun girişinə dəyişməyən amplitudlu sabit gərginlik şəklində verilir (şəkil 4).



Şəkil 4. *Sabit gərginlik aralıq dövrəsi*

İnvertorlar idarə olunmasına görə 2 qrupa bölünürlər:

1) Şəbəkə vasitəsilə idarə olunan invertorlar;
2) Avtonom invertorlar.

Şəbəkə vasitəsilə idarə olunan invertorlara şəbəkəyə bilavasitə qoşulmuş tezlik çeviricisi (BTÇ) aiddir**.** Bu tezlik çeviricilərində tristorlar təbii kommutasiya prosesi vasitəsi ilə bağlanırlar. Ona görə də, belə tezlik çeviricilərinin çıxış tezliyi şəbəkə tezliyindən az olur. Asinxron elektrik intiqallarının sürətini aşağı tezlik diapazonunda idarə etmək üçün bu tezlik çeviricilərindən geniş istifadə edilir. BTÇ-nin giriş və çıxış fazlarının sayı onun əsas təsnif olunma əlaməti olub tezlik çeviricisinin strukturunu və sxemini müəyyən edir. Qeyd etmək lazımdır ki, çoxfazalı tezlik çeviriciləri daha yüksək texniki-iqtisadi göstəricilərə malik olur.

Şəbəkə vasitəsilə idarə olunan invertorlar sabit cərəyan mənbəyindən enerjini dəyişən cərəyan şəbəkəsinə ötürürlər. Bu invertorların sxemləri düzləndiricilərin sxemləri kimi olub birfazalı və üçfazalı variantda hazırlanırlar. Düzləndiricilərdən fərqli olaraq, şəbəkə vasitəsilə idarə olunan invertorların idarə siqnalları faz gərginliyinin kəsişmə anından β bucağı qədər əvvəl verilir. Bu

invertorlardan sabit cərəyan mühərrikini rekuperativ rejimdə tormozlamaq üçün, günəş panellərində istehsal olunan sabit cərəyanı şəbəkəyə ötürmək üçün istifadə edilir.

BTÇ-lər ancaq gərginlik mənbəyi kimi təsir göstərərək şəbəkə tezliyindən aşağı tezliklərdə istifadə olunur $(30 \div 50)H_s$. Ona görə də, BTÇ-nin gücü idarə etdiyi elektrik mühərrikinin gücündən kiçik olur [1, 2].

Avtonom invertorlar isə sabit cərəyan mənbəyindən enerjini dəyişən cərəyana çevirərək işlədiciyə ötürür. Avtonom invertorlara şəbəkəyə sabit cərəyan bəndi vasitəsilə qoşulmuş tezlik çeviriciləri aiddir. Bu invertorun çıxış gərginliyinin qiyməti və tezliyi invertorun sxemindən, idarə sistemindən və iş rejimindən asılıdır. Avtonom invertorlardakı elektromaqnit proseslərin xarakterindən asılı olaraq, əsasən, 2 növ avtonom invertora baxılır: cərəyan invertoru və gərginlik invertoru [2, 3].

Cərəyan invertorlarında sabit cərəyan dövrəsinə böyük induktivliyə malik drossel qoşulur və invertorun giriş cərəyanı fasiləsiz hesab edilir. Cərəyan invertoru ekvivalent cərəyan mənbəyi kimi xarakterizə olunur və onun yükü aktiv-tutum xarakterli olur.

Gərginlik invertoruında sabit gərginlik mənbəyi tristorlar vasitəsilə birbaşa yükə tətbiq edilir. Gərginlik invertorunun yükü aktiv-induktiv xarakter daşıyır. Şəbəkəyə birbaşa qoşulmuş tezlik çeviriciləri (BTÇ) aralıq sabit cərəyan bəndi olan tezlik çeviricilərindən onunla fərqlənir ki, BTÇ-nin ölçü və kütləsi kiçik olur.

İnvertor - TÇ-dəki sonuncu bənddir və elektrik mühərrikindən əvvəl çıxış gərginliyinin sonuncu qiymət və forma aldığı yerdir. TÇ bütün tənzim diapozonu boyunca standart iş şəraitini təmin edir, tənzim yolu ilə çıxış gərginlyini yük rejiminə uyğunlaşdırır. Bu elektrik mühərrikinin optimal maqnitlənməsinə imkan verir. Aralıq dövrəsinə görə invertorlar olur:


- dəyişə bilən sabit cərəyan;
- gərginliyi dəyişə bilən sabit cərəyan və ya;
- gərginliyi dəyişməyən sabit cərəyan.

İnvertorlar sayəsində bütün hallarda mühərrikə verilən parametrlərdən hər hansı biri dəyişilir. Başqa sözlə, invertorda həmişə gərginliyinin lazımi tezliyi yaradılır və elektrik mühərrikinə verilir. Əgər cərəyan və ya gərginlik dəyişkəndirsə invertor yalnız lazımi tezliyi yaradır. Əgər gərginlik dəyişkən deyilsə, invertor elektrik mühərriki üçün lazımi tezliyi və lazımi gərginlyi yaradır. Hətta, əgər invertor fərqli formada işləyirsə də, onların əsas strukturu həmişə eynidir. İnvertorların əsas elementi idarə olunan yarımkeçirici qurğulardır. Onlar hər fazada 2 ədəd olmaqla cəmi 6 ədəddir [3, 4].

Hal-hazırda tiristorlar əksər hallarda yüksək tezlikli transiztorlarla əvəz olunur. Onlar çox sürətli açılıb bağlana bilirlər. Kommutasiya tezliyi, adətən, 300Hz-dən 20kHz-dək intervalda yerləşir və o, istifadə olunan yarımkeçirici qurğudan asılıdır. İnvertordakı yarımkeçirici qurğular idarəetmə dövrəsi tərəfindən yaradılan siqnallarla açılır və bağlanır. Siqnallar bir neçə fərqli üsulla meydana gələ bilər.


Adətən, invertorları 6 kondensator və 6 tristordan ibarət dəyişən gərginlik aralıq cərəyan dövrəsi kommutasiya edir. Kondensatorlar tristorların elektrik mühərrikinin ölçüsünə uyğun və faza dolaqlarını 120^0 sürüşdürülmüş formada açılıb bağlanaraq gərginlik yaratmasına imkan verməlidir. Cərəyan U-V, V-W, W-U, U-V..., ardıcılıqla mühərrikin sıxaclarına dövrü olaraq tətbiq edildikdə tələb olunan tezliyin fasiləsiz fırlanan maqnit sahəsi meydana gəlir. Hətta, elektrik mühərrikinin cərəyanı bu vəziyyətdə, demək olar ki, düzbucaqlı forma alsa da, elektrik mühərrikinin gərginliyi praktiki olaraq sinusoidal olacaqdır. Ancaq cərəyan açıldıqda və ya bağlandıqda həmişə gərginlik artımı baş verir. Kondensatorlar elektrik mühərrikinin yük cərəyanından diodlarla ayrılır. Aralıq dövrəsinin gərginliyi dəyişən və dəyişməyən invertorlar 6 kommutasiya elementindən ibarətdir və istifadə olunan yarımkeçirici qurğuların növündən asılı olaraq, demək olar ki, eyni işləyirlər. İdarəetmə dövrəsi bir neçə fərqli modulyasiya metodundan istifadə edərək yarımkeçirici qurğuları açır və bağlayır. Bununla da, TÇ-nin çıxış tezliyi dəyişir. Birinci üsul dəyişən gərginlik və ya cərəyan

aralıq dövrəsi üçün nəzərdə tutulmuşdur. İntervallar xüsusi yarımkeçirici qurğuların açıq olduğu müddətdə istifadə üçün tələb olunan çıxış tezliyini almaq üçün ardıcıllıqla yerləşdirilir (şəkil 5).



***Şəkil 5**. Dəyişilə bilən gərginlikli aralıq dövrəli adi cərəyan invertoru*

Yarımkeçirici qurğuların bu kommutasiya ardıcıllığı dəyişən gərginlik və ya cərəyan aralıq dövrəsinin qiyməti ilə idarə olunur. İstifadə olunan generatorun döyünmələri sayəsində gərginlik idarə olunur, tezlik isə həmişə gərginliyin amplitudunu izləyir. İnvertorların belə idarəetmə növü Amlitud-İmplus Modulyasiya (AİM) (ingiliscə - Pulse Amplitude Modulation (PAM)) adlanır (şəkil 6).




***Şəkil 6.** Amplitud və eninə impuls modulyasiyaları*

Sabit gərginlik aralıq dövrəsi üçün başqa əsas metod istifadə olunur. Elektrik mühərrikinin gərginliyi aralıq dövrə gərginliyinin elektrik mühərrikinin dolağına daha uzun və ya daha qısa zaman intervalında verilməsi sayəsində dəyişkən olur.

Zaman oxu boyunca bir yarımdövr ərzində müsbət, digər yarımdövr ərzində mənfi olaraq gərginlik impluslarını dəyişdirmək yolu ilə tezlik də dəyişdirilir. Bu üsulla gərginlik impluslarının müddətində (enində) dəyişiklik baş verir və o, Eninə İmplus Modulyasiyası (EİM) (ingiliscə - Pulse Width Modulation (PWM)) adlanır. Eninə impuls modulyasiya (EİM) prinsipi ilə həm sabit gərginliyin qiymətini, həm də dəyişən cərəyanın tezliyini və gərginliyinin qiymətini dəyişmək olur. Bu üsulun mahiyyəti ondan ibarətdir ki, müəyyən bir tezliklə (aparıcı tezlik-f_a) hasil edilən impulsların $T_a=1/f_a$ müddəti ərzində enini (davam etmə müddətini) dəyişməklə, nəticədə, çıxış gərginliyinin qiymətini dəyişmək olur. İmpulsların enini müəyyən bir qanunauyğunluqla dəyişməklə çıxışda müəyyən tezliyə və gərginliyə malik dəyişən siqnal da almaq olar (şəkil 7).

EİM (və onunla əlaqəli metodlar, məsələn, sinusoidalı idarə olunan EİM) invertorun idarəetmə metodu kimi daha çox yayılmışdır. EİM-da idarə etmə dövrəsi yarımkeçirici qurğuların kommutasiya müddətlərini təyin edir. Digər perspektivli EİM metodları modifikasiya olunmuş EİM metodlarıdır. Belə metodlara "Danfoss" şirkəti tərəfindən hazırlanmış VVC və VVCplus metodlarını göstərmək olar [3, 4].



Şəkil 7. *Gərginliyi dəyişilə bilən və dəyişilməyən aralıq dövrəli invertor və çıxış cərəyanının kommutasiya tezliyindən asılılığı*

Nəticə. Gəmi elektrik intiqallarında istifadə olunan tezlik çeviricilərinin və onların aralıq dövrələrində istifadə olunan elementlərin təhlili göstərir ki gəmilərdə həm gərginliyə görə, həm də cərəyana görə tənzim aparılan aralıq dövrəli tezlik çevriciləri istifadə etmək mümkündür. Gəmi elektroenergetik sistemlərində və eləcə də gəmi elektrik stansiyasında bilavasitə əlaqəli və ya şəbəkədən idarə olunan tezlik çeviricilərinin istifadəsi daha məqsədəuyğundur. Fırlanma sürətinin tənzimi tələb olunan gəmi elektrik intiqallarında (kran qurğusu, braşpil qurğusu, koməkçi sükan qurğusu və s.) isə sabit cərəyan bəndli EİM-lı tezlik çeviricilərinin tətbiqi daha əlverişlidir.

Ədəbiyyat

1. Həsənov, Z. Ə. "Güc elektronikası və intiqalın idarə edilməsi". Dərs vəsaiti./Z. Ə. Həsənov, S. Ə. Xanəhmədova – Bakı: ADNSU, 2018.-120 s.
2. Sultanov, E. F. "Elektron güc çeviricilərinin gəmilərdə tətbiqi" / E. F. Sultanov.– Bakı: ADDA, 2015.-100 s.
3. Sultanov, E. F. "Gəmi elektronikası və güc çeviriciləri". Dərs vəsaiti. / E. F. Sultanov, F.V. Məmmədova – Bakı: ADDA, 2020.-170 s.
4. Преобразователи частоты - просто о сложном :/ Danfoss Drives A/S. -2006.-165 с.

Məqalə qəbul olunub: 12.03.2021
Tövsiyə ediblər: t.e.d., prof. A.M. Qafarov

UOT 681.5.01

YÜKSƏK GÜCLƏNDİRMƏ ƏMSALINA MALİK İZLƏYİCİ ROBAST SİSTEMLƏRİN SİNTEZİ

Fərhadov V.Q., Bayramova İ.P., Babayeva A.Ə.

Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ1000, Bakı şəh., Z.Əliyeva küç., 18
E-mail: vahidf@mail.ru, genclik76@mail.ru

Xülasə. *Məqalədə yüksək gücləndirmə əmsalına malik izləyici robast sistemlərin sintezi məsələsinə baxılmışdır. Təklif olunan metod izləyici robast sistemlərin sintezi üçün xarakterik olan mürəkkəb riyazi əməliyyatlardan azad edir, qeyri-xətti və qeyri-stasionar obyektləri əhəmiyyətli dərəcədə qeyri-müəyyənlik şəraitində sistematexnik cəhətdən sadə və aydın olan PD - (proporsional-diferensial) tənzimləyicisi vasitəsi ilə idarəetməyə imkan verir. Təklif edilmiş metodika Simulinkdə modelləşdirmə yolu ilə tədqiq edilmişdir.*

Abstract. *The article deals with the synthesis of robust tracking systems with high gain. The proposed method frees the tracer from the complex mathematical operations characteristic of the synthesis of robust systems, allows to control nonlinear and non-stationary objects under conditions of significant uncertainty by means of PD- (proportional-differential) regulator, which is technically simple and clear. The proposed methodology was studied by modeling in Simulink.*

Аннотация. *В статье рассмотрен вопрос синтеза следящих робастных систем с высоким коэффициентом усиления. Предложенный метод синтеза следящих робастных систем освобождает от сложных математических операций, позволяет управлять нелинейными и нестационарными объектами в условиях значительной неопределенности с помощью ПД- (пропорционально-дифференциального) регулятора, который технически прост и понятен. Предложенная методика исследована путем моделирования в Simulink.*

Açar sözlər: *robast sistem, sintez üsulları, Lyapunov funksiyası, tənzimləyici*
Key words: *robast system, synthesis methods, Lyapunov function, regulator*
Ключевые слова: *система - робаст, методы синтеза, функция Ляпунова, регулятор*

Giriş. Robast sistemlərin adaptiv sistemlərdən əsas fərqi ondan ibarətdir ki, obyektin xassələrinin dəyişməsinə baxmayaraq, tənzimləyicinin parametrləri və strukturu dəyişdirilmir. Bununla belə, bəzi müəlliflər robast sistemləri passiv adaptiv sistemlərə aid edirlər [1].

Hal hazırda robast sistemlərin sintez üsulları kifayət qədər araşdırılmış və tədqiq edilmişdir. Məqalədə tənzimləyicinin gücləndirmə əmsalının artırılmasına əsaslanan sintez üsuluna baxılır.

Belə yanaşmanın əsas problemi ondan ibadətdir ki, gücləndirmə əmsalının artırılması sistemin dayaniqlığınına əks təsir göstərir və onu pozur. Deməli, elə etmək lazımdır ki, gücləndirmə əmsalının artırılması dayanığlığa xələl gətirməsin. Belə yanaşmalardan ən mükəmməli kimi Lyapunov funksiyası üsulu əsasında sintez olunan K_∞-robast idarəetmə sistemlərini göstərmək olar [2,5].

Məsələnin qoyuluşu. Bu halda, qeyri-müəyyən obyektin modeli yalnız strukturu və tərtibi məlun olan n-tərtibli differensial tənliklə verilir:

$$y^{(n)} = f(\boldsymbol{y},t) + b(\boldsymbol{y},t)u + \upsilon(t), \qquad t \in [0,\infty], \tag{1}$$

Burada, $y = (y, y, \dots, \ddot{y}^{(n-1)})^T = (x_1, x_2, \dots, x_n)^T \in R^n$– ölçülən və ya qiymətləndirilə bilən vəziyyət vektoru; $y \in R$ – idarə olunan çıxış; $u \in R$ – idarə təsiri; $f(\boldsymbol{y},t)$, $b(\boldsymbol{y},t) > 0$ – ümumi halda qeyri-xətti naməlum məhdud funksiyalar; $\upsilon(t)$ – nəzarət olunmayan məhdud xarici təsirdir.

Modelin əsas təşkiledicileri $f(\cdot)$ və $b(\cdot)$ qeyri-müəyyənlik mənbəyi olub eyni zamanda məlum komponentlərə də malik ola bilərlər. Lakin istənilən halda $f(\cdot)$ və $b(\cdot)$ həyacanlandırıcı dinamik mənbə kimi qəbul olunur və kompensasiya edilir.

Məsələnin qoyuluşu ondan ibarətdir ki, elə idarə təsiri u tapmaq tələb olunur ki, keçid prosesi yekunlaşdıqdan sonra qeyri-müəyyən (1) obyektinin $y(t)$ çıxışı $y_d(t)$ etalon trayektoriyasını tələb olunun dəqiqlik ilə izləsin:

$$|y_d(t)-y(t)|\le\delta_s,\qquad t\ge t_s$$

Burada $\delta_s=(1-5)\%-$ buraxıla bilən qərarlaşma xətası; t_s- qərarlaşma xətasıdır.

Məsələnin həlli. İdarə u Lyapunov funksiyasının zamana görə törəməsinin sıfırdan kiçik olması şərtindən tapılır:

$$dV(\boldsymbol{e})/dt<0. \tag{2}$$

Lyapunov funksiyası aşağıdakı şəkildə seçilir:

$$V=½s^2 \tag{3}$$

$$s=c_1e+c_2\dot{e}+\cdots+e^{(n-1)} \tag{4}$$

(3) funksiyasının törəməsi:

$$dV/dt=\dot{V}=s\dot{s} \tag{5}$$

$$\dot{s}=c_1\dot{e}+c_2\ddot{e}+\cdots+e^{(n)} \tag{6}$$

Dayanıqlığın zəruri (2) $\dot{V}<0$, şərtini ödəyən idarə u-nu təyin etmək üçün $\dot{V}$ və u-nu əlaqələndirmək lazımdır. Bu məqsədlə (6)-da (1) obyektinin tənliyindən tapılan

$$e^{(n)}=y_d^{(n)}-y^{(n)}=y_d^{(n)}-f(\boldsymbol{y},t)-b(\boldsymbol{y},t)u.$$

yüksək tərtibli törəməni əvəz edək. Onda yazmaq olar:

$$\dot{s}=x(t)-b(y,t)u,\qquad b>0 \tag{7}$$

Burada $$x(t)=\sum_{i=1}^{n-1}c_ie^{(i)}+y_d^{(n)}-f(\boldsymbol{y},t).$$

(7) ifadəsindən göründüyü kimi, $x(t)=0$ halında (5) $dV(e)/dt=ss\dot{<}0$ münasibətini ödəyən idarəni P - idarə qanunu şəklində seçmək olar:

$$u=u_s=k\cdot s(t). \tag{8}$$

$x(t)$-in sistemin dinamikasına təsirini k gücləndirmə əmsalını artırmaqla azaltmaq olar. (8) ifadəsini (7)-də nəzərə alsaq, yazmaq olar:

$$s(t)=b^{-1}\left[x(t)-s\dot{(t)}\right]/k$$

Gücləndirmə əmsalı k sonsuzluğa yaxınlaşdıqda,

$$\lim_{k\to\infty}s(t)=0.$$

Deməli, sistem (4) hipermüstəvisinin tənliyi ilə yazılır:


$$s=c_1e+c_2\dot{\quad}^{-1)}=0,\qquad s(0)=s_0.$$

Qapalı sistemin dayanıqlı olması üçün uyğun

$$H(p)=p^{n-1}+c_{n-1}p^{n-2}+\cdots+c_1 \tag{9}$$

polinomu Hurvis polinomu olmalıdır, yəni c_i sazlama parametrləri elə seçilməlidir ki, bu polinomun köklərinin həqiqi hissələri $Re(p_i)<0$ şərtini ödəməlidir.

Şəkil 1–də gücləndirmə əmsalı k-nin kifayət qədər böyük qiymətində xətanın dəyişməsi (a) və k=120 qiymətində sistemin faza portreti (b) göstərilmişdir.



a) *b)*

Şəkil 1. *Gücləndirmə əmsalı k-nın kifayət qədər böyük qiymətində xətanın dəyişməsi (a) və k=120 qiymətində sistemin faza portreti (b)*

Göründüyü kimi, k=120 qiymətində artıq ifrat tənzimləmə və rəqslilik aradan qalxmışdır.

Sazlama parametrlərinin təyini. Faza k-nın kifayət qədər böyük qiymətində istənilən $s(0) = s_0$ başlanğıc vəziyyətdən ani bir zaman anında (cəld hərəkət) s=0 hipermüstəvisinin üzərinə yığılır. Sonra sistem bu hipermüstəvi ilə koordinat başlanğıcına hərəkət edir (yavaş hərəkət) (şəkil 1, b). Bu səbəbdən, sistemin hərəkətini istənilən başlanğıc şərtdən böyük dəqiqliklə s=0 hipermüstəvisinin tənliyi ilə yazmaq olar.

Tənzimləyicinin sazlanması. Sistemin keyfiyyət göstəriciləri (qərarlaşma vaxtı t_s, ifrat tənzimləmə σ% və s.) (8) robast tənzimləyicinin c_i, i=1,…,n-1 (hipermüstəvinin bucaq əmsalları) və k gücləndirmə əmsalından asılıdır.

c_i sazlama parametrlərini tapmaq üçüm "modal idarəetmə" üsulundan istifadə etmək olar. Bu halda, arzu olunan xarakteristik polinom kimi Çebışev, Battervors və ya keyfiyyətin hər-hansı bir inteqral göstəricisinin minimumunu təmin edən polinomdan istifadə etmək olar.

Tələb olunur ki, e(t) xətasına nəzərən keçid xarakteristikası ifrat tənzimləməyə malik deyil, yəni monotondur. Bu məqsədlə, qapalı (9) sisteminin p_i kökləri üçün binomial paylanma seçirik. Təkrarlanan köklər halında (9) ifadəsini aşağıdakı şəkildə yazmaq olar:

$$W_{SYS}(p) = H(p) = (p + p_1)^{n-1}.$$

p_1 kökünü tapaq. Təkrarlanan köklər halında (4) s=0 tənliyinin həlli:

$$e(t) = (C_1 + C_2 t + C_3 t^2 + \ldots + C_n t^{n-2}) e^{-p_1 t}.$$

İnteqrallama sabitlərini məlum başlanğıc şərti $\mathbf{e}_s(0)$ üçün təyin edib həlli vertor şəklində aşağıdakı kimi yazmaq olar:

$$e(t) = C^T \theta e^{-p_1 t}, \quad C = Z^{-1}\mathbf{e}_s(0), \tag{10}$$

Burada

$$\theta = \begin{pmatrix} 1 \\ t \\ t^2 \\ \ldots \\ t^{(n-2)} \end{pmatrix}, \quad \mathbf{e}_s(0) = \begin{pmatrix} e(0) \\ \dot{e}(0) \\ \ddot{e}(0) \\ \ldots\ldots\ldots \\ e^{(n-2)}(0) \end{pmatrix} = \mathbf{y}_{ds}(0) - \mathbf{y}_s(0);$$

$Z(t)\big|_{t=t_0=0}$ $^{-(n-1)x(n-1)}$ ölçülü kvadratik matrisdir:

$$Z = \begin{bmatrix} z_1(t) & z_2(t) \ldots\ldots\ldots z_{n-1}(t) \\ \dot{z}_1(t) & \dot{z}_2(t) \ldots\ldots\ldots \dot{z}_{n-1}(t) \\ \cdot\ \cdot\ \cdot\ \cdot\ \cdot\ \cdot\ \cdot\ \cdot\ \cdot\ \cdot\ \cdot\ \cdot\ \cdot\ \cdot \\ z_1^{(n-2)}(t) & z_2^{(n-2)}(t) \ldots z_{n-1}^{(n-2)}(t) \end{bmatrix}_{t=t_0=0}.$$

Fundamental həllər sistemi:

$$z_1 = e^{-p_1 t}, \quad z_2 = te^{-p_1 t}, \quad z_3 = t^2 e^{-p_1 t}, \ldots, z_{n-1} = t^{n-2} e^{-p_1 t}.$$

Tədqiqat məsələlərində obyektin n-ci başlanğıc şərti üçün $y^{(n-1)}(0)=0$ qəbul etmək olar.

Fərz edək ki, $\delta_s=\pm(2–5)\%$- xəta üçün qərarlaşma vaxtı (*settling time*) $t = t_s$ verilmişdir. Onda (10) ifadəsinə əsasən, p_1 kökünü təyin etnək üçün aşağıdakı ifadəni alırıq:

$$e(t_s) = \pm\delta_s / 100 = C^T \cdot \theta|_{t=t_s} \cdot e^{-p_1 t_s}.$$

$e(0)>0$ olarsa, onda $\delta_s>0$ (yuxarıdan yaxınlaşma), əks halda $\delta_s<0$.

Müvafiq transindent tənlik:

$$f(p_1) = C^T \cdot \theta|_{t=t_s}\ e^{-p_1 t_s} \mp \delta_s / 100 = 0. \tag{11}$$

n=2 halında parametrlər $\theta = 1,\ \mathbf{e}_s(0) = e(0), Z^{-1} = 1 \Rightarrow C^T = e(0).$ (11) tənliyi

$$f(p_1) = e(0)\exp(-p_1 t_s) \mp \delta_s / 100 = 0. \tag{12}$$

δ_s, t_s və $\mathbf{e}_s(0)$ verilmiş qiymətlərində (11) tənliyini *solve*('f(p1)=0') Matlab funksiyasının köməyi ilə həll etmək olar. p_1 kökünü tapdıqdan sonra $c_i, i = 1,...,k-1,$ sazlama parametrlərini aşağıdakı polinomun əmsalları kimi tapırıq:

$$W_{SYS}(p) = (p + p_1)^{n-1} = p^{n-1} + a_{n-1}p^{n-2} + \ldots + a_2 p + a_1. \tag{13}$$

Buradan

$$c_1 = a_1, c_2 = a_2, \ldots, c_{n-1} = a_{n-1}. \tag{14}$$

(8) tənzimləyicini ötürmə funksiyası şəklində realizasiya etdikdə

$$W_C(p) \approx K \frac{(p + p_1)^{n-1}}{(T_d p + 1)^{n-1}} \tag{15}$$

$c_i, i = 1,\ldots,n-1,$ parametrlərini hesablamamaq olar. T_d - kiçik kəmiyyətdir, T_d=0.1-0.001.

Gücləndirmə əmsalı k-nın təyini. Bu parametr real obyekt ilə əlaqədar olub ən çox təsir edən mənbəyə nəzərən sazlanır. Bu səbəbdən, *k* təcrübi yolla kompyüterdə modelləşdirmə zamanı və ya real obyektdə təyin olunur.


Bu mənbə məlumdursa, ən gərgin iş rejimi yaratmaq üçün onu reallaşdırmaq lazımdır. *k*-nı artıraraq $t = t_s$ nöqtəsində e(t) xətasına nəzarət etmək lazımdır. Axtarılan *k* e(t) traektoriyasının 2δ enində buraxıla bilən xəta zolağına daxil olma, yəni $e(t) \le |\delta_s| / 100$,$t \ge t_s$ c şərtinin ödənilməsi anına uyğun gəlir.

k-nın müəyyən qiymətindən sonra sistemdə tələb olunan keyfiyyət göstəriciləri σ% и t_s bərqərar olur (bax, şəkil 3.9,*b*). Lakin *k*-nın qiymətini daha böyük götürmək enerjinin sərfi baxımından sərfəli deyil. Əgər enerji məhduddursa *k*-nı minimal səviyyədə saxlamaq üçün *e*(t) xətasından asılı olaraq, ekstremal tənzimləyicidən istifadə etmək olar.

Modelləşdirmənin nəticələri. Paramatrik qeyri-müəyyənlik halına baxaq. Fərz edək ki, $\dot{y}(t)$ -nin əmsalı a və yükün kütləsi m təqribən ≈ ±50% dəyişir:

$$a = [1;1.5;2;2.5];\ m = [0.5;1;1.5;2];$$

Şəkil 2-də k=120 və $\boldsymbol{y}(0) = (2;0)^T$ başlanğıc şərtində {y(t)} keçid xarakteristikalarının toplusu, uyğun xəta $\{e(t)\}$ və idarə siqnalı $\{u(t)\}$ göstərilmişdir.




c)

Şəkil 2. *k=120 və* $\boldsymbol{y}(0) = (2;0)^T$ *başlanğıc şərtində {y(t)} keçid xarakteristikalarının toplusu, uyğun xəta {e(t)} və idarə siqnalı {u(t)}*

$\{y(t)\}$ və $\{e(t)\}$ xarakteristikalar toplusunun sıxlığı kifayət qədər yüksəkdir. $t_s \approx 1\,c$ sonra tənzim olunan kəmiyyət $\{y(t)\}$ etalon traektoriya $y_d(t)$ -ni yüksək dəqiqliklə izləməyə başlayır.

Şəkil 3-də K_∞ - robas idarəetmə sisteminin Simulink sxemi göstərilmişdir.



Şəkil 3. *K_∞ - robas idarəetmə sisteminin Simulink sxemi*

Nəticə. Məqalədə yüksək gücləndirmə əmsalına malik olan izləyici robast sistemlərindən birinə baxılmışdır. Üsulun əsasını Lyapunov funksiyası üsulu təşkil edir. Təklif olunan metod izləyici robast sistemlərin sintezi üçün xarakterik olan mürəkkəb riyazi əməliyyatlardan azad olaraq qeyri-xətti və qeyri-stasionar obyektləri əhəmiyyətli dərəcədə qeyri-müəyyənlik şəraitində sistematexnik cəhətdən sadə və aydın olan PD- (proporsional- diferensial) tənzimləyicisi vasitəsi ilə idarə etməyə imkan verir.

Matlab / Simulink paketində model məsələsinin həlli yüksək tətbiqi nəticələr alınacağına zəmanət verir.

Ədəbiyyat

1. Емельянов, С.В. Новые типы обратных связей / Емельянов С.В., Коровин С.К. Управление в условиях неопределенности. -М.: Наука, -1997. -352 с.
2. Филимонов, А.Б. Метод больших коэффициентов усиления и эффект локализации движения в задачах синтеза систем автоматического управления / А.Б. Филимонов, Н.Б. Филимонов // Мехатроника, автоматизация, управление. -2009. №2 (95). -с.2-10
3. Филимонов А.Б. Робастная коррекция в системах управления с большим коэффициентом усиления / А.Б. Филимонов, Н.Б. Филимонов // Механотроника, автоматизация, управление. –2014, №12, -с.3-10.
4. Мамедов Г.А., Рустамов Г.А., Фархадов В.Г. Логическое управление динамическими объектами на основе функции Ляпунова // Труды Международной конференции «Научно-технический прогресс и современная авиация», посвященной 75-летию академика А.М.Пашаева. т.2, -Баку: -2009, -с.31-33.
5. Рустамов, Г.А. Research of K∞-Robust Systems with Constrained Control. Theoretical And Applied Scientific And Technical Journal. Мехатроника, автоматизация, управление, Том 19, / Г.А. Рустамов, В. Г. Фархадов. -№11. -2018.

Məqalə qəbul olunub: 30.03.2021
Tövsiyə ediblər: t.e.d., prof. A.M. Qafarov

UOT 621. 39.

ÇOXXİDMƏTLİ TELEKOMMUNİKASİYA ŞƏBƏKƏLƏRİNİN BURAXMA QABİLİYYƏTİNİN GÖSTƏRİCİLƏRİNİN TƏHLİLİ VƏ TƏDQİQİ

İbrahimov B.Q., Məmmədova F.V.

Azərbaycan Texniki Universiteti
AZ1073, Bakı şəh., H.Cavid pr., 25
Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ1000, Bakı şəh., Z.Əliyeva küç.,18
E-mail: i.bayram@mail.ru, faxranda.mammadova@mail.ru

Xülasə. *Yeni NGN (Next Generation Network) və gələcək FN (Future Network) nəsil rabitə şəbəkələrinin arxitektura konsepsiyaları bazasında innovativ texnologiyalardan istifadə etməklə çoxxidmətli telekommunikasiya şəbəkələrinin işləmə effektivliyi analiz edilmişdir. Bu məqalədə multimedia xidmətlərinin dəstəklənməsi üçün innovativ texnologiyaların bazasında çoxxidmətli telekommunikasiya şəbəkələrinin maksimum buraxma qabiliyyətinin göstəricilərinin məsələlərinə baxılmışdır. Məlumat mənbələrinin informativ xarakteristikaları nəzərə alınmaqla buraxma qabiliyyətinin göstəriciləri tədqiq edilmişdir. Aparat-proqram komplekslərindən istifadə etməklə*

mənbənin məhsuldarlığını, informasiya effektivliyi və buraxma qabiliyyətinin göstəricilərini qiymətləndirmək üçün analitik ifadələr alınmışdır.

Abstract. *The efficiency functioning of multiservice telecommunication networks, built in accordance with the architectural concept of NGN and FN, using innovative technologies is analyzed. This paper discusses the tasks studying the indicators of the maximum throughput of multiservice telecommunication networks based on innovative technologies for the provision multimedia services. The indicators of the transmission capacity communication networks, taking into account the informative characteristics information sources, have been investigated. Analytical expressions are obtained for assessing the performance indicators of the source, information efficiency and system throughput using hardware-software systems.*

Аннотация. *Проанализирована эффективность функционирования мультисервисных телекоммуникационных сетей, построенных в соответствии с архитектурной концепцией NGN и FN, использующие инновационные технологии. В данной работе рассматриваются задачи исследования показателей максимальной пропускной способности мультисервисных телекоммуникационных сетей на базе инновационных технологии для оказания мультимедийных услуг. Исследованы показатели пропускных способностей сетей связи с учетом информативных характеристик источников информации. Получены аналитические выражения для оценки показателей производительности источника, информационной эффективности и пропускных способностей системы с использованием аппаратно-программных комплексов.*

Açar sözlər: *çoxxidmətli rabitə şəbəkələri, informasiya mənbəyi, multimedia xidməti, innovativ texnologiya, buraxma qabiliyyəti, informasiya effektivliyi*

Key words: *multiservice communication networks, information source, multimedia service, innovative technologies, throughput, information efficiency*

Ключевые слова: *мультисервисные сети связи, источник информации, мультимедийная услуга, инновационные технологии, пропускная способность, информационная эффективность*

Giriş. Perspektiv və innovativ texnologiyalar hesabına faydalı və xidməti trafiklərin həcminin daima yüksəlməsi, xidmət sferasında istifadəçilərin multimediya xidmətlərinə artan tələbatı yüksək buraxma qabiliyyətinə malik çoxxidmətli telekommunikasiya şəbəkələrinin yeni prinsiplərdə qurulmasını tələb edir.

Çoxxidmətli telekommunikasiya şəbəkələri və rabitə sistemlərinin buraxma qabiliyyəti dedikdə, vahid zamanda ötürülə biləcək faydalı və xidməti trafiklərin maksimum miqdarı başa düşülür, yəni maksimum veriliş sürəti nəzərdə tutulur və ya maksimum veriliş sürəti kimi qəbul edilir.

Məlumdur ki, innovativ texnologiyalar bazasında çoxxidmətli telekommunikasiya şəbəkələri və sistemləri müxtəlif tipli məlumatların bir ünvandan digər ünvana rabitə elementləri, vasitələri, qurğuları və virtual aralıqlardan istifadə etməklə başqa bir ünvana ötürülməsini təmin edən texniki bir kompleksdir.

Dördüncü sənaye inqilabının (The Fourth Industrial Revolution), yeni NGN (Next Generation Network) və gələcək nəsil FN (Future Network) şəbəkələrin arxitektura konsepsiyalıları bazasında fəaliyyət göstərən xüsusi təyinatli çoxxidmətli rabitə şəbəkələri üçün innoavativ texnologiyalar dedikdə aşağıdakı texnologiyalar nəzərdə tutulur [1, 2]:

- SDN (Software Defined Networking), NFV (Network Functions Virtualization), IMS (Internet Protocol Multimedia Subsystem) və paylanmış şəbəkələrinin qurulması texnologiyaları;
- Optik WDM&DWDM (Wavelength Division Multiplexing & Dense WDM) texnologiyaları;
- Mobil texnologiyaları LTE (Long Term Evolution), UMTS (Universal Mobile Telecommunicat cat ions System), texnologiyalar ailəsi – yeni radio NR (New Radio) və 5G/IMT-2020;
- IoT (Internet of Think), sənaye interneti və geolokasiya texnologiyası (GT);
- Bulud hesablama texnologiyası (CC), böyük verilənlərin texnologiyası (İDC) və Big data;

- Süni intellekt metodları və vasitələri, nanotexnologiya, informasiya təhlükəsizliyi və kvant texnologiyası.

Baxılan işlərdə [2,3], telekommunikasiya şəbəkələrində və sistemlərində istifadə olunan rabitə kanallarının, aparat-proqram komplekslərinin və terminal qurğularının buraxma qabiliyyətinin əsas göstəriciləri təhlil edilmişdir. Eyni zamanda, bu ədəbiyyatlarda [4-7] isə, maneə mənbələri nəzərə alınmaqla, çoxxidmətli rabitə şəbəkələrinin buraxma qabiliyyəti geniş tədqiq edilmiş və onların çatışmayan cəhətləri aşkar edilmişdir.

Bizim məqaləmiz isə yeni və perspektivli İKT texnologiyalarının imkanlarından istifadə etməklə çoxxidmətli telekommunikasiya şəbəkələrinin maksimum buraxma qabiliyyətinin göstəricilərinin təhlili və tədqiqinə həsr edilmişdir.

Ümumi məsələnin qoyuluşu. Uzun müddət aparılmış təhlillər və tədqiqatlar göstərir ki, çoxxidmətli telekommunikasiya şəbəkələrinin maksimum buraxma qabiliyyəti istifadə olunan rabitə kanallarının tezlik zolağının eni ΔF_k, modulyasiya və kodlama sxemindən K_{mk}, siqnal-maneə nisbətindən $SNR(E_b, N_0)$ təşkil olunmuş spektral kanalların sayından N_k və maneə mənbələrinin $M_m(t)$ təsirndən asılıdır. Bu asılılığı funksional olaraq aşağıdakı kimi yazmaq olar:

$$C_{\max} = W[\Delta F_k, SNR(E_b, N_0), K_{mk}, M_m(t), N_k] \qquad (1)$$

Burada $SNR(E_b, N_0)$ - spektral rabitə kanallarının çıxışında olan siqnal-maneə nisbəti (Signal to Noize Rate) hesab edilir və maneənin gücünün spektral sıxlığından N_0 və bir bit informasiyanın ötürülməsinə sərf olunan enerji miqdarından E_b asılıdır. Sonuncu, diskret rabitə sistemlərində belə təyin edilir [5, 6]:

$$E_b = \frac{E_0}{R_k \cdot \ell og_2 m} \qquad R_k < 1 \qquad (2)$$

Burada E_0 – otürülən siqnalın enerjisi olub, $E_0 = P_s \cdot T$, P_s – faydalı siqnalın gücü, T - çox mövqeli siqnalın davametmə müddəti; R_k – istifadə olunan maneəyədavamlı kodun sürəti və $R_k = (k/n) < 1$, n və k – məlumat mübadiləsi zamanı ümumi və informasiya kod simvollarının sayıdır və $n = k + r$, r – sistemdə maneəyədavamlı kodun yoxlayıcı simvollarının sayı hesab olunur; N_0 – maneənin gücünün spektral sıxlığıdır və belə təyin olunur: $N_0 = P_m / \Delta F_k$, Vt/Hs, P_m – maneə mənbəyinin gücü, Vt.

Baxılması üçün irəli sürülmüş (1) və (2) ifadələri çoxxidmətli telekommunikasiya şəbəkələrində maksimum buraxma qabiliyyəti, K. Şennonun fikrincə, ilkin parametrlər toplusu hesab edilir. Eyni zamanda, (1) ifadəsi maksimum buraxma qabiliyyətinin ilkin və vacib göstəricilərini xarakterizə edir.

Maksimum buraxma qabiliyyəti və mənbənin entropiyası. Fasiləsiz və diskret çoxkanallı sistemlər üçün maksimum buraxma qabiliyyəti çoxxidmətli telekommunikasiya şəbəkələrinin kəmiyyət göstəricisi olub, K.Şennonun informasiya nəzəriyyəsinə görə belə təyin olunur [6, 7]:

$$C_{\max} = \Delta F_k \cdot \log_2\left(1 + \frac{P_s}{N_0 \cdot \Delta F}\right), \quad \text{bit/s} \qquad (3)$$

Bu ifadə Şennon düsturu hesab olunur və şəbəkənin buraxma qabiliyyəti onun tezlik zolağının eni ΔF_k və rabitə kanalının çıxışında olan siqnal-maneə nisbətindən asılıdır.

Təhli edilən işlərin birindən [--] aydın olur ki, şəbəkədə maksimum buraxma qabiliyyəti eyni zamanda bitə görə veriliş V_b və modulyasiya sürətlərindən B_m, həmçinin ötürülən və emal edilən məlumatların sıxma əmsalından K_s çox asılıdır. Yəni,

$$C_{\max} = E[V_b, K_s, B_m, H(A)],\ H(A) = [I(a,n)/n] \tag{4}$$

Burada $H(A)$ – mənbənin entropiyası olub, K.Şennonun yekun ifadəsini nəzərə almaqla n – simvollardan ibarət olan hal üçün aşağıdakı kimi yazılır [6]:

$$H(A) = -\ell im_{n\to\infty} \frac{1}{n} \sum_{i=1}^{m^n} p(a_i^{[n]}) \cdot \ell og_b p(a_i^{[n]}) \geq 0, \qquad i = \overline{1,m}\ , \tag{5}$$

Burada $p(a_i)$ – mənbədən i – saylı simvolların ötürülmə ehtimalı; m – istifadə olunan alifbalarda simvolların sayıdır; $I(a,n)$ – mənbədən ötürülən məlumatda informasiya miqdarı olub, ötürülən məlumatın ehtimalından $p(a_i)$ asılı olaraq faziləsiz funksiya hesab olunur,

$$I(a,n) = f[p(a_i)] \text{ və } I(a) = -\ell og_b\ p(a_i) \geq 0$$

Diskret ikili sistemlər üçün $b = 2$ və n simvollardan təşkil olunmuş mənbə üçün belə təyin edilir:

$$I(a,n) = -n \cdot \sum_{i=1}^{m} p(a_i) \cdot \ell og_2[p(a_i)] \geq 0,\ b = 2 \text{ , bit, } i = \{1,...,m\}, \tag{6}$$

İnformasiya mənbəyinin informativ xarakteristikası olan (5) ifadəsi istənilən fasiləsiz və diskret təsadüfi proseslərin riyazi gözləməsini təyin edir.

Təklif olunan (5) və (6) ifadələri sürət və informativ xarakteristikalar baxımından şəbəkənin maksimum buraxma qabiliyyətinin göstəricilərini təyin edir.

Multimediyalı xidmətlərin yerinə yetirilməsi zamanı çoxxidmətli şəbəkələrin effektivliyinin göstəricilərini geniş aspektdə qiymətləndirmək üçün sistemli analizin prinsiplərindən və şəbəkə texnologiyalarından geniş istifadə olunur. Sistemli yanaşmanın prinsipi – telekommunikasiyada sistemə bir tədqiqat obyekti kimi baxılaraq, onun mürəkkəbliyi, elementləri arasında əlaqə, xüsusiyyətlərinin analizinə və tədqiqinə əsaslanır [6, 7, 8]. Bir növ şəbəkəyə bütöv texniki vasitələrin, aparat-proqram komplekslərin və terminal qurğuların toplusu kimi baxılır. Əsas xüsusiyyət isə xidmət sferasında çoxxidmətli telekommunikasiya şəbəkələrinin tamlılığı hesab olunur. Bu isə sistemin effektiv fəaliyyətinə ciddi təsir edən faktorlardan hesab olunur [8, 9, 10].

Çoxxidmətli telekommunikasiya şəbəkələrinin effektivliyi. Qoyulan məsələni tədqiq etməmişdən öncə şəbəkənin aparat-proqram komplekslərinin, terminal qurğuların və rabitə kanallarının məhsuldarlığını nəzərdən keçirək. Şəbəkələrin məhsuldarlığı seçilmiş maneəyədavamlı kodun parametrlərin $G(x,n) = [n,k,d,r]$ asılı olaraq belə ifadə oluna bilər:

$$V_b = \frac{k}{k+r} \cdot \frac{\log_2 m}{B_m^{-1}}, \quad \text{bit/s,} \tag{7}$$

Burada n, k, r - istifadə olunan kodlarda ümumi, informasiya və yoxlayıcı kod elementlərin sayı, d – kod məsafəsi hesab olunur; m - kodun əsası; B_m – istifadə olunan modulyasiya sxeminin modulyasiya sürəti, Bod və $B_m = 1/\tau_0$, τ_0 – impulsun davametmə müddətidir.

Çoxxidmətli telekommunikasiya şəbəkələrində informasiya effektivliyi aparat-proqram komplekslərinin, terminal qurğuların və innovativ texnologiyaların resurslarının hesabına yerinə yetirilən multimedia xidmətlərinin sayı L_m nəzərə alınmaqla, informasiya effektivliyi aşağıdakı kimi təyin olunur:

$$I_{IE}(V_b) = [\frac{k}{k+r} \cdot \frac{\log_2 m}{B_m^{-1}}] \cdot [L_m \cdot \Delta F_k \cdot \ell og_2(1 + SNR(E_b, N_0))]^{-1} \leq 1\ , \tag{8}$$

Alınmış (8) ifadəsi telekommunikasiya şəbəkələrində veriliş sürətinin nə dərəcədə sistemin maksimum buraxma qabiliyyətinə yaxınlaşdığını göstərir və bütövlükdə isə sistemin buraxma qabiliyyətindən istifadə olunmanı xarakterizə edir.

Eyni zamanda, təklif olunmuş (8) ifadəsindən görünür ki, $I_{IE}(V_b)$ həmişə aşağıdakı bərabərsizlik ödənməlidir:

$$0 \le I_{IE}(V_b) \le C_{\max} \quad , \qquad 0 \le 0 \le I_{IE}(V_b) \le 1 \tag{9}$$

Əgər (8) ifadəsində informasiya effektivliyi $I_{IE}(V_b) \to 1$ yaxınlaşarsa, çoxxidmətli telekommunikasiya şəbəkələrini mükəmməl veriliş sistemi hesab edilər, (8) və (9) ifadələrində bu zaman siqnal maneə-nisbəti $SNR(E_b, N_0)$ təyinedici xarakterli olub, informasiya resursları və bitə görə səhv ehtimalı baxımından mühüm əhəmiyyət kəsb edir.

İnformativ xarakteristikalara görə maksimum buraxma qabiliyyətinin tədqiqi. İlkin olaraq, diskret mənbələr üçün şəbəkənin məhsuldarlığına baxaq. Bu hal üçün mənbənin məhsuldarlığı – vahid zamanda generasiya etdiyi orta informasiya miqdarı başa düşülür və belə qiymətləndirilir:

$$G_{dm}(A) = \frac{1}{T} \cdot \sum_{i=1}^{m} p(a_i) \cdot \ell og_2[1/\, p(a_i)] \quad , a_i \in A \tag{10}$$

Burada T- bir diskret simvolun ötürülməsi müddətidir.

Məlumat mübadiləsi zamanı diskret kanalların veriliş sürəti isə belə müəyyən edilir:

$$V_{dk} = V_{ks} \cdot H(A), \ \text{bit/s} \ , \ a_i \in A \tag{11}$$

Burada V_{ks} – elektrik kod siqnalların veriliş sürəti.

Diskret rabitə kanalların buraxma qabiliyyəti isə kanalın maksimum veriliş sürəti hesab olunur və maneələr olmadığı halda aşağıdakı kimi təyin edilir:

$$C_{\max} = \max[V_{ks} \cdot H(A)] = V_{ks} \max[H(A)] \ , \ a_i \in A \tag{12}$$

Sonuncu (10), (11) və (12) ifadələri veriliş sürətləri və informative xarakteristikaları nəzərə alınmaqla çoxxidmətli telekommunikasiya şəbəkələrin buraxma qabiliyyətinin göstəricilərini təhlil etməyə imkan verən analitik düsturlar hesab edilir. Burada vacib xarakteristika, mənbənin entropiyası hesab olunur və stasionar məlumat mənbələri üçün aşağıdakı şərt ödənilməlidir:

$$H(A) \le \ell og_b m = H_{\max}(A) \ , \qquad a_i \in A, \tag{13}$$

Təhlil üçün alınmış (10),...,(13) ifadələri geniş və tam şəbəkənin göstəricilərini tədqiq etmək üçün qarşılıqlı əlaqəli informativ xarakteristikaları nəzərə almaqla diskret rabitə elementləri və aparat-proqram komplekslərin buraxma qabiliyyətinin sintezini tələb edir.

Rabitə elementləri və aparat-proqram komplekslərin buraxma qabiliyyəti. Çoxxidmətli telekommunikasiya şəbəkələrinin rabitə elementləri, vasitələri, qurğuları və virtual aralıqlardan istifadə etməklə məlumat mübadiləsi yerinə yetirilən zaman mühüm əhəmiyyət kəsb edən tədqiqat obyektlərindən biridə aparat-proqram komplekslərinin buraxma qabiliyyətinin əsas göstəriciləri hesab olunur. Bu idarəedici funksional bloklar SDN, NFN IMS texnologiyaları bazasında Open Flow protokolundan istifadə etməklə kommutatorlar və kontrollerlər hesab olunur [3, 7].

Hesab edilir ki, tədqiq edilən idarəedici funksional bloklar - fiziki mühit-fiziki aralq kimi fəaliyyət göstərir və onun girişinə mənbədən $x(t, b_i)$ faydalı siqnalı daxil olur və çıxışda beləbir yekun siqnal alınır:

$$y(t, b_i) = x(t, b_i) + M_m(t), \tag{14}$$

Sonuncu (14) ifadəsini və mənbənin şərti ehtimalını $p(x \mid y)$ nəzərə almaqla, (5) və (6) ifadələrinə uyğun olaraq diskret mənbənin informasiya miqdarını və entropiysını təyin edək [6]:

$$I(x \mid y, n) = -\ell og_b \ p(x \mid y) \ge 0 \quad , \tag{15}$$

$$H(x \mid y) = -\sum_{i=1}^{m} \sum_{j=1}^{n} p(x_i, y_j) \, \ell og_b \ p(x_i, y_j) \ge 0 \quad , \tag{16}$$

Maneə mənbələrinin təsirlərini $M_m(t)$, şərti informasiya miqdarını (15) və şərti entropiyayanı (16) nəzərə almaqla, rabitə elementləri və aparat-proqram komplekslərin maksimum buraxma qabiliyyətini aşağıdakı kimi təyin etmək olar:

$$C_{\max}^{apk} = \max_{p(x)} I(x \mid y, n) \quad , \qquad C_{\max}^{apk} = \max_{p(x)} [H(y) - H(y \mid x)]. \tag{17}$$

Əgər mənbədən rabitə elementləri və aparat-proqram komplekslərinin girişinə daxil olan simvolların daxil olma ehtimalları bərabər olarsa $p(x_i) = p(y_i) = p$ onda şəbəkə maksimum buraxma qabiliyyətinə nail olar. Sadə halda belə təyin olunur:

$$C_{\max}^{apk} = \ell og_b\, m + p\, \ell og_b \frac{p}{m-1} + (1-p)\, \ell og_b (1-p) \tag{18}$$

Sonuncu (15), (18) düsturları informativ parametrlər nəzərə alınmaqla təyin olunmuş analitik ifadələri olub, geniş spektrdə rabitə elementlərin və aparat-proqram komplekslərin maksimum buraxma qabiliyyətinin analizini və tədqiqini tələb edir.

Nəticə. Yeni NGN və gələcək FN nəslin arxitektur konsepsiyaları bazasında çoxxidmətli telekommunikasiya şəbəkələrinin işləmə rejimləri və effektivlik göstəriciləri geniş aspektdə təhlil edilmiş, buraxma qabiliyyətinin əsas kriteriyaları seçilmiş və əsaslandırılmışdır.

Təhlillər nəticəsində çoxxidmətli telekommunikasiya şəbəkələrinin effektivliyinə baxılmış və maneəyədavamlı kodlamanın parametrləri nəzərə alınmaqla informasiya effektivliyi, informasiya veriliş sürəti və mənbənin məhsuldarlığının qiymətləndirilməsi üçün analitik ifadələr alınmışdır.

Ədəbiyyat

1. İbrahimov, B.Q. "Elektrik rabitə nəzəriyyəsi". Ali məktəblər üçün dərslik / B.Q.İbrahimov. – Bakı: AzTU, – 2016. – 382 s.
2. Ефимушкин, В.А. Роль технологий SDN/NFV в инфраструктуре цифровой экономики. Опыт тестирования и внедрения / В.А.Ефимушкин, Т.В.Ледовских, А.Б.Иванов, В.А. Шалагинов // Электросвязь, – Москва: –2018, №3.– с.27 – 36.
3. Ibrahimov, B.G. Analysis performance indicators network multiservice infrastructure using innovative technologies/ B.G.Ibrahimov, M.B.Namazov, M.N.Quliev // Proceedings of the 7-th International Conference on Control and Optimization with Industrial Applications, -Baku: - 2020. Vol. II.- p.176-178.
4. Кловский, Д.Д. Теория электрической связи. Учебник для вузов / Кловский Д.Д, Зюко А.Г., Коржик В.И., Назаров М.В. – Москва: Радио и связь, – 1999. – 432 с.
5. Ибрагимов, Б.Г. Анализ вероятностно-временных характеристик сетей NGN/IMS при установлении мультимедийной сессии / Б.Г.Ибрагимов, А.Г.Гасанов, Р.Ф.Ибрагимов // Вестник компьютерных и информационных технологии, - Москва: - 2016, № 2, - с.40 – 45.
6. Шеннон, К. Работы по теории информации и кибернетике / К.Шеннон. – Москва: ИЛ, – 1963. – 829 с.
7. İbrahimov, B.Q. "Telekommunikasiya sistemlərinin yeni və gələcək nəsil rabitə şəbəkələrinin arxitektura konsepsiyası bazasında rəqəmli iqtisadiyyata keçid modelinin işlənməsi // Telekommunikasiyada innovativ texnologiyalar" mövzusunda Beynəlxalq ETK materialları,- Bakı: - 4-6 dekabr, - 2019. – s.18-24.

Məqalə qəbul olunub: 07.04.2021
Tövsiyə ediblər: t.e.d., prof. A.M.Qafarov

УДК 629.1:004.04

ИНФОРМАЦИОННАЯ ПОДДЕРЖКА УПРАВЛЕНИЯ ПРОЦЕССАМИ ОБРАБОТКИ ДАННЫХ ПРИ СТЕНДОВЫХ ИСПЫТАНИЯХ КАМЕР СГОРАНИЯ СУДОВЫХ ГАЗОТУРБИННЫХ ДВИГАТАЛЕЙ

[1]Казимиренко Ю.А., **[1]Михелев И.Л**., **[2]Матвеев Н.А.**

[1]Национальный университет кораблестроения имени адмирала Макарова
Украина, г. Николаев, пр-т Героев Украины, 9
[2]Государственное предприятие научно-производственный комплекс газотурбостроения «Зоря»-«Машпроект» Украина, г. Николаев
E-mail: u.a.kazimirenko@gmail.com, kafedra.iust@gmail.com, mnasoft@gmail.com

Аннотация. *В статье рассматривается подход к управлению процессом обработки данных распределения температурных полей при стендовых испытаниях камер сгорания судовых газотурбинных двигателей, для чего разработана новое программное обеспечение.*

Xülasə. *Məqalədə yeni proqram təminatının hazırlandığı gəmi qaz-turbin mühərriklərinin yanma kameralarının stend sınaqları zamanı temperatur sahələrinin paylanması barədə məlumatların işlənməsi prosesinin idarə edilməsinə yanaşmadan bəhs olunur.*

Abstract*. The article discusses an approach to managing the process of processing data of the distribution of temperature fields during bench tests of combustion chambers of marine gas turbine engines, for which new software has been developed.*

Ключевые слова: *судовые газотурбинные двигатели, камеры сгорания, температурное поле, программное обеспечение, технологии компьютерной графики, визуализация изображений*

Açar sözlər: *gəmi qaz-turbin mühərrikləri, yanma kameraları, temperatur sahəsi, proqram təminatı, kompyuter qrafikası texnologiyaları, görüntünün vizuallaşdırması*

Key words: *marine gas turbine engines, combustion chambers, temperature field, software, computer graphics technologies, image visualization*

Введение. Эффективная эксплуатация судовых газотурбинных двигателей (ГТД) непосредственно зависит от надежной работы камеры сгорания (КС), в которой одновременно происходят процессы смесеобразования, сгорания, тепло- и массообмена, взаимодействия и завихрения потоков [1]. Процесс создания RC включает в себя полный комплекс расчетно-экспериментальных работ (оптимизация распределения воздуха по сечению камеры сгорания, проектирование системы охлаждения стенок жаровых труб и проч.); доводочные работы для обеспечения заданного уровня радиальной и окружной неравномерности поля температур газа на выходе из RC; стендовые испытания на рабочих режимах с измерениями в контрольных точках потоков воздуха, топлива, продуктов сгорания. Важным критерием, обеспечивающим ресурс турбины и двигателя в целом, следует считать степень совершенства температурного поля на выходе из камеры сгорания [2]. Визуализация процессов их распределения – важный инструментарий обработки результатов экспериментальных исследований, с помощью которого принимаются конструкторские решения. Таким образом, разработка программного обеспечения для управления процессами обработки данных при стендовых испытаниях камер сгорания, является ***важной научно-прикладной задачей***.

Применяемые в настоящее время методы сбора и обработки результатов испытаний камер сгорания судовых ГТД [1-6] основаны на графической интерпретации полученных данных в виде контурных диаграмм температурных полей – плоских изотерм, по которым определя-

ется их соответствие техническим требованиям. Расширение возможности управления данными с выбором среди альтернативных вариантов наилучшего конструктивно-компоновочного решения требует разработки и внедрения современного программного обеспечения, отвечающего особенностям работы предприятия

Цель работы – повышение эффективности обработки результатов испытаний камер сгорания судовых ГТД с помощью разработки нового программного обеспечения.

Организация стендовых испытаний камер сгорания судовых ГТД. Обобщенно алгоритм систематизации результатов испытаний включает в себя постановку экспериментальных исследований температур в секторе кольцевой камеры сгорания; фиксацию значений температур продуктов сгорания в реперных точках; отбраковку данных из выборки по критериям Грубса; обработку результатов методом наименьших квадратов; обработку результатов методом Гаусса.

Анализ существующих методов визуализации стендовых испытаний (табл. 1) показал сложность и нецелесообразность их использования на этапах проектирования камер сгорания судовых ГТД, что обусловлено выборочностью и осреднением полученных экспериментальных данных, отсевом ненужных значений в отдельных точках, выбором графического редактора, принятием информации конструкторами, возможностью корректировки данных в ручном режиме.

Таблица 1

Методология визуализации результатов стендовых испытаний
[составлено авторами по результатам источников 1-6]

Методы	Преимущества	Недостатки
Применение стандартных пакетов вычислительной газодинамики (*CFD*-пакетов)	Наглядность процесса распределения температурных полей, возможность применения разноплановых математических моделей физических процессов	Трудоемкая длительная подготовка для создания геометрической модели и генерирования расчетной сетки
Внедрение системы технического зрения	Доступность данных в режиме «живого изображения»; возможность просмотра эксперимента	Высокая стоимость процесса, сложность аппаратного обеспечения
Оборудование стендово-экспериментальной базы специальными информационными системами	Усовершенствование процесса сохранения и поиска данных, возможность формирования отчетов, в т.ч. в графическом виде	Необходимость проведения проектно-поисковых исследований с реализацией расчетных методик

Обзор современных подходов к решению практических задач визуализации многомерных данных [5] показал перспективы применения методов инфографики и картографии, позволяющих представлять процессы в динамике и сравнивать числовые значения, выявлять изменения, происходящие в конструкции или структуре исследуемого объекта. Однако их применение в технике ограничено технологическими возможностями и низким уровнем защиты информации. В силу противоречивости полученных данных их обработка в большинстве случаев осуществляется в ручном режиме с построением таблиц и двумерных графических зависимостей исследуемых параметров (рис. 1). Реализация технических задач требует высокой инженерной квалификации с освоением классических методов матанализа [7], теории графов [8], использования современных информационных пакетов [9, 10].




Рис. 1. *Пример оформления температурных параметров: максимальная неравномерность поля температуры продуктов сгорания на выходе из камеры сгорания*

Теоретико-методологической базой для исследований являются: научные работы отечественных и зарубежных ученых в области проектирования камер сгорания судовых ГТД [1-3]; разработки информационных систем [9]; интернет-ресурсы, нормативные документы, личный опыт авторов. В основу разработки программного обеспечения для визуализации изображений положен алгоритм (рис. 2) обработки результатов испытаний камеры сгорания, составленный авторами.




Рис. 2. *Алгоритм обработки результатов*

Для построения информационных моделей использованы математические методы исследований операций [7] и компьютерной алгебры [11], объектно-ориентированный подход [10].

Программное обеспечение написано на языке программирования *COMMON LISP* [12], применяемый при написании программных кодов для научных исследований и решения инженерных задач. Поставленная задача рассмотрена как подход «от данных до написания кода» с реализацией функций выборки данных, их осреднения, отсева недействительных значений, восстановления значений в отдельных точках с построением функций осреднения методом Гаусса и возможностью корректирования данных в ручном режиме.

С помощью *COMMON LISP* зависимость температурного поля *TEMPERATURE-FILD* от других систем и ее составляющих представлена в виде ориентированного графа *System-graf* (рис. 3): стрелками показана зависимость системы *TEMPERATURE-FILD* от других систем.




Рис. 3. *Системный граф*

Практическая реализация программного обеспечения в испытательной лаборатории. Измерения осуществляются в режиме реального времени с автоматическим сохранением параметров работы камеры сгорания в файле тренда. В электронный журнал заносятся также время измерений, температуры и объемный расход воздуха на входе и на выходе из жаровых труб камер сгорания. Для выводов результатов вычислений использована графическая программа *Gnuplot* [13] как свободная программная среда для создания двух- или трехмерных графиков, преимущество которой заключается в доступности для многих платформ, таких как *Linux, MS Windows, OSX.*

Результаты испытаний представлены в виде контурных диаграмм температурных полей (рис. 4) – плоских изотерм, по которым определяется соответствие температурных полей техническим требованиям. Построение диаграмм осуществляется в выборочном порядке, установленном экспертом.

В качестве примера на рис. 5 приведены построенные в графическом редакторе *Gnuplot* радиальные и окружные эпюры относительных температур на выходе из жаровых труб кольцевой камеры сгорания ГТД, где пунктирной линией нанесены максимальные температуры, сплошной – осредненные значения.

Научное и практическое значение результатов работы.

Усовершенствован подход к управлению процессом обработки данных распределения температурных полей при стендовых испытаниях камер сгорания судовых ГТД, позволяющий за счет разработки нового программного обеспечения с возможностью реализации выборки данных, повысить качество конструкторских и исследовательско-доводочных работ.






Рис. 4. *Контурная диаграмма температурных полей*



а



б

Рис. 5. *Эпюры максимальных и средних относительных температур на выходе из кольцевой камеры сгорания: а – радиальная эпюра; б – окружная эпюра*

Практическое значение работы заключается в возможности управления выбором наилучшего конструктивно-компоновочного решения с элементами визуализации изображений и исключением из рабочего процесса дорогостоящих *CFD*-пакетов.

Выводы. 1. Исследована организация стендовых испытаний камер сгорания судового ГТД с цифровой обработкой и графической интерпретацией экспериментальных данных;

2. Составлен алгоритм обработки результатов, положенный в основу разработки нового программного обеспечения, написанного на языке *COMMON LISP*; результаты испытания представлены в виде контурных диаграмм температурных полей, для построения которых использован графический редактор *Gnuplot.*

3. Полученные результаты направлены на повышение научного уровня проектирования камер сгорания судовых ГТД за счет внедрения нового программного обеспечения в рабочий процесс инженерно-конструкторской деятельности.

Литература

1. Мингазов, Б. Г. Камеры сгорания газотурбинных двигателей: [монография] / Б. Г. Мингазов. – Казань: Изд-во Казан. гос. техн. ун-та, 2014. – 167 с.
2. Орлов, М. Ю. Доводка поля температуры на выходе из многофорсуночной камеры сгорания ГТД методами трехмерного моделирования / М. Ю. Орлов, И. А. Зубрилин, С. С. Матвеев, Ю. И. Цыбизов // Известия Самарского научного центра Российской академии наук. – 2013. – Т. 15. – № 6(4). – с. 905-910.
3. Александров, Ю. Б. Исследование формирования температурных полей в камерах сгорания газотурбинных двигателей / Ю. Б. Александров, И. И. Вафин, Б. Г. Мингазов // Инженерный журнал. – 2018. – № 18. – с. 1-13.
4. Кофман, В. М. Методология экспериментально расчетного определения показателей эффективности основных камер сгорания газотурбинных двигателей по результатам автономных испытаний на камерном стенде / В. М. Кофман // Вестник ПНИПУ. Аэрокосмическая техника. – 2016. – № 46. – с. 6-39.
5. Романова, И. К. Современные методы визуализации многомерных данных: анализ, классификация, реализация, приложение в технических системах / И. К. Романова // Наука и образование МГУ им. Н.Э. Баумана. – 2016. – № 3. – с. 133-167.
6. Маркушин, А. А. Испытательные стенды для исследований процессов и доводки низкоэмиссионных камер сгорания ГТД / А. А. Макушин, А. В. Бакланов // Вестник Самарского госуд. аэрокосмического ун-та. – 2013. – № 3 (41). – с. 131-138.
7. Вентцель, Е. С. Исследование операций: задачи, принципы, методология / Е. С. Вентцель. – М.: Наука, 1980. – 207 с.
8. Введение в теорию графов: изд-ние 5-е / под ред. Р. Уилтона. – М.: Диалектика-Вильямс, 2019. – 240 с.
9. Дьяков, В. VisSim+Mathcad+MATLAB. Визуальное математическое моделирование / В. Дьяков. – 2014. – 383.
10. Иванова, Г. С. Объектно-ориентированное программирование: [учебник] / Г. С. Иванова, Т. Н. Никишкина. – М.: Изд-во МГТУ имени Н.Э. Баумана, 2014. – 456 с.
11. Федорченко, Л.Н. Теория типов, компьютерная алгебра, поддержка доказательств и грамматики / Л.Н. Федорченко// Вестник БГУ. Математика, информатика. –2016. –№2. –с.55-76.
12. Сайбель, П. Практическое использование COMMON LISP / Питер Сайбель. – М.: ДМК Пресс, 2015. – 488 с.
13. Попов, А. В. GNUPLOT и его приложения / А. В. Попов. – М.: Изд-во попечительского совета механико-математического факультета МГУ, 2015. – 240 с.

Məqalə qəbul olunub: 05.04.2021
Tövsiyə ediblər: t.e.d., prof. A.M. Qafarov

UOT 621.311

KÖRPÜ KRANLARININ MÜHƏRRİKLƏRİNİN İDARƏETMƏ SİSTEMLƏRİNİN İŞİNİN YAXŞILAŞDIRILMASI ÜSULLARI

Məmmədov L.V., Həsənov E.A., Məmmədov E.M.

Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ1000, Bakı şəh., Z.Əliyeva küç., 18
E-mail: latif.mamedov.2014@mail.ru, hasanov.079@mail.ru, emilmemmedoglu@gmail.com

Xülasə. *Məqalədə gəmidə körpü kranlarındakı üçfazalı asinxron mühərriklərin iş prosesi zamanı fazalarından birində qəza baş verərsə, onun aradan qaldırılması yollarından bəhs edilir. Tezlik çeviricisi vasitəsi ilə idarə edilən asinxron mühərrikdə faza itkisi baş verərsə, onun aradan qaldırılma yolları araşdırılmış və onun bərpa alqoritminin yaradılması təklif olunmuşdur.*

Abstract.*The article discusses the ways to eliminate it, if during the operation of three-phase asynchronous motors of overhead cranes on the ship there was a failure in one of its phases. The ways of its elimination in the case of phase loss in an asynchronous motor driven through a frequency converter are investigated. So, it was proposed to create its recovery algorithm.*

Аннотация*. В статье говориться о способах устранения аварии, которая произошла на судне при сбое в одной из фаз трехфазных асинхронных двигателей мостовых кранов во время работы. Исследованы пути устранения аварии в случае потери фазы в асинхронном двигателе, приводимом в движение частотным преобразователем, и предложен алгоритм его восстановления.*

Açar sözlər: *gəmi, körpü kranı, tezlik çeviricisi, asinxron mühərrik, faza itkisi, bərpa alqoritmi*

Key words: *ship, bridge crane, frequency converter, asynchronous motor, phase loss, recovery algorithm*

Ключевые слова: *судно, мостовой кран, частотный преобразователь, асинхронный двигатель, потеря фазы, алгоритм восстановления*


Giriş. Müasir dövrdə idarəedilmə proseslərinə görə asinxron mühərriklərin (AM) geniş tətbiq sahələri mövcuddur. Onlar, əsas etibarilə, elektrik mühərrikləri kimi xalq təsərrüfatının bütün sahələrində, həmçinin gəmilərdə geniş miqyasda istifadə edilir və elektrik enerjisini mexaniki enerjiyə çevirən əsas çeviricilərdir. Hazırda asinxron mühərriklər istehsal olunan elektrik enerjisinin yarıdan çoxunu sərf edir və əksər mexanizmlərin elektrik intiqalında geniş tətbiq edilir. Buna səbəb asinxron mühərriklərin quruluşunun sadə, başqa mühərriklərə nisbətən iqtisadi cəhətdən əlverişli olması, etibarlığı və f.i.ə.-nın yüksək olmasıdır [1, 2].

Elektrik maşınları cərəyanın növündən asılı olaraq sabit və dəyişən cərəyan maşınlarına ayrılır. Dəyişən cərəyan maşınları isə elektromaqnit sisteminin xüsusiyyətlərindən asılı olaraq asinxron, sinxron və kollektorlu maşınlara ayrılır. Təcrübələr göstərir ki, asinxron maşının generator rejimində istifadəsi nadir hallarda baş verir. Bundan başqa, asinxron maşın gərginlik və faza tənzimləyicisi, tezlik və faza çeviricisi və s. bu kimi müxtəlif rejimlərdə də işlədilir. Son vaxtlar, əsas etibarilə məişət elektrik avadanlıqları üçün birfazalı asinxron mühərriklərin tətbiqi geniş yayılmışdır. Hazırda texnikanın bir çox sahələrində müxtəlif modifikasiyalı asinxron maşınlar, o cümlədən, icra mühərrikləri geniş miqyasda tətbiq edilirlər [3, 4].

Əsas hissə. Məqalədə qaldırıcı körpü kranlarında baş verən qəza hallarının aradan qaldırılması yollarından bəhs olunmuş, müasir körpü kranlarının işdə "faza itkisi" kimi fövqəladə vəziyyətdə kranın qaldırıcı mexanizminin tezlik tənzimləyicisinin davamlılığının təmin edilməsi məsələləri

nəzərdən keçirilmişdir. Məqalədə işdə qalan iki fazada amplitudlu cərəyan dəyərlərinin bərabərliyi və faza dəyişmə bucağının bərabər olması təmin edilir.

Tezlik çevricisinin funksional sxemi qəza rejimində iki faza ilə işə davametmə prosesinin təmin edilməsi ilə tezliklə tənzimlənən asinxron mühərrikin funksional sxeminin qovşaqları verilmişdir.



***Şəkil 1**. Asinxron mühərriklərin fəaliyyət müddətini təmin edən tezlik çeviricisinin funksional sxemi*

Sabit cərəyana görə tezlik çeviricisinin qovşaqları aşağıdakı (YKY_A, YKY_B, YKY_C) yarımkörpü yuva a, yarımkörpü yuva b, yarımkörpü yuva c-dən ibarət olan yarımkörpü sxemlərindən ibarətdir. AM-in fazalarına nəzarət etmək üçün (CS1, CS2, CS3) cərəyan sensorlarından istifadə edilir. İtmiş fazanı aşkar etmək üçün nəzarət sxemi həmin A, B, C, fazalarının hamısını eyni zamanda söndürmə qərarını vermə imkanına malikdir. Buna görə də digər fazaların söndürülməsinin təmin edilməsi prosesini mikrokonrtollerin köməyi ilə asanlıqla həyata keçirmək mümkündür [5, 6].

Ardıcıllıqla sxemdə aradan qaldırılmış fazanı söndürmək üçün idarəetmə sisteminə daxil olan MK-nın idarəedici bloku vasitəsilə həyata keçirilir. MK- I_A, I_B və I_C- faza cərəyanını aşağıdakı ifadələrlə formalaşdırır.


$$I_A = I_\omega \cdot \bar{a} \cdot \sin(2\pi \cdot f_1 \cdot k \cdot t \cdot p_n \cdot \bar{d} \pm \pi \cdot b);$$

$$I_B = I_\omega \cdot \bar{b} \cdot \sin\left(2\pi \cdot f_1 \cdot k \cdot t \cdot p_n \cdot \bar{d} \pm \pi \cdot c + 2\pi/3\right);$$


$$I_C = I_\omega \cdot \bar{c} \cdot \sin(2\pi \cdot f_1 \cdot k \cdot t \cdot p_n \cdot \bar{d} \pm \pi \cdot a + 4\pi/3)$$

Burada: $I_\omega -$ faza cərəyanının formalaşdırılmış amplitud qiymətidir; ω – mühərrikin valının növbəti fırlanma tezliyidir; t – növbəti zaman müddətidir; f_1 – rotorun firlanma tezliyidir; a, b, c – EÇ-nin etiraz vəziyyətinin mənasını bit sözlərlə xarakterizə edir (TÇ tezlik çevricisi sensora əsasən işə düşür); d – bitlərin mənası olub, məntiqi ifadələrlə hesablanır. d = avbvcv– YAXUD elementinin əməliyatıdır), əgər d=1 – olarsa, deməli fazalardan birində sönmə baş vermişdir; burada; $\bar{a}\ \bar{b}\ \bar{c}\bar{d}$ – a, b, c, d-nin invers qiymətləridir, k – qida şəbəkəsinin verilmiş fırlanma tezliyi üçün tezliyə görə artma əmsalıdır [4, 5].


Aşağıda AM-in tezliyə görə idarəedilməsinin funksional sxemi göstərilmişdir. AM-ə cərəyan verildikdə o, (FÇ) funksional çevrici tərəfindən idarə edilir, sürət sensorunun köməyi ilə AM-in valının fırlanma tezliyinin sürətinin tənzimləyicisi (ST), sürət sensoru (SS) tərəfindən nəzarət edilir.



***Şəkil 2**. Tezliklə tənzimlənən asinxron elektrik intiqalının idarəedilmə sisteminin funksional sxemi*




***Şəkil 3**. Tezliklə tənzimlənən asinxron elektrik intiqalının idarəetmə sisteminin davametmə prosesini təmin edən funksional diaqramı*




***Şəkil 4**. Uc fazalı AM-in işçi rejimindən qəza rejiminə keçməsi prosesinin bərpa alqoritmi olmadan iş prosesinin (I_A, I_B, I_C, P, n) elektromexaniki keçid proseslərinin zaman dadiaqramı*




***Şəkil 5** . Uc fazalı AM-in işçi rejimindən qəza rejiminə keçməsi prosesinin bərpa alqoritmi olduqda iş prosesinin (I_A, I_B, I_C, P, n) elektromexaniki keçid proseslərinin zaman dadiaqramı*



***Şəkil 6**. Qəza rejiminin zaman dadiaqramı Td=100 mks*



***Şəkil** 7. AM qəza rejimi üçün keçid prosesinin zaman dadiaqramı*



***Şəkil 8**. Bərpa alqoritminin aktivləşdirilməsi ilə AM-in qəza rejimi üçün keçid prosesinin zaman dadiaqramı*

Şəkil 8-dən göründüyü kimi, AM-də faza kəsildikdə faza cərəyanlarının $I_{hüd}$=2*I-nin hüdudlama səviyyəsində kəskin artma baş verir. Bu halda, mühərrik nominal yükü saxlaya bilmir və fırlanma tezliyi sıfıra düşür.

Bərpa alqoritminin tətbiqi (şək.2) imkan verir ki, bərpa edilmə prosesinin köməyi ilə mühərrikin işinin davam edilmə prosesinin sona qədər davam edilməsi bitsin. Stator cərəyanın normal şəraiti bərpa olunur, fırlanma tezliyi və aktiv gücün qiyməti 3 dəfə aşağı düşür. Beləliklə, iş qabiliyyətinin bərpası alqoritmindən istifadə AM-in ikifazalı qəza rejimdə fəaliyyətinin davamlılığını, eləcə də işə salındıqda mühərrikin idarə edilməsini təmin edir [5,6].

Cərəyan sensorunun diaqnostikasının tədqiqi zamanı keçid prosesi xarakterik olaraq normal üç fazalı iş rejimindən iki fazalı qəza rejiminə keçmə göstəricisidir, Td >10mks – müddətində mühərrikin yenidən bərpa olunmuş ilkin normal iş rejiminə qayıtması baş verir. Eyni zamanda körpü yükqaldırıcı kranlarının riyazi modelini qurmaqla adekvat olaraq qaldırdığı yükə müvafiq yoxlama prosesini həyata keçirməlkə də fırlanma tezliyi və stator cərəyanına və AM-valının fırlanma tezliyini həmim yük altında həyata keçirmək mümkündür.

Nəticə. 1. Məqalədə mikrokontroller əsasında n-fırlanma tezliyinə görə yüklü kranın dolayı yollarla idarə edilməsi prosesinin tənzimlənməsi üsulları araşdırılmışdır. Bu proses zamanı körpü kranında asinxron elekrik intiqallarının iş prosesləri izlənilimişdir. Nəticədə, I_1 stator carəyanının və AM-in P-aktiv gücünün təklif edilmiş texniki həlli informativ parametrlərin ölçülməsi sayəsində kanallarının ixtisar edilməsi və müstəqilliyi nəzərə alınmaqla informasiyanın etibarlılığını artırır.

2. Alqoritm sistemi təhlükəsizlik cihazının aktivliyini, texniki xidmətinin təhlükəsizliyini təmin etməyə imkan verir, çünki ölçülən kəmiyyətlərin ötürücülərin konstruksiyasının əlçatan yerlərində quraşdırılması imkanı əldə edilir.

3. Eyni zamanda, körpü kranlarında asinxron elekrik intiqallarının iş prosesində üçfazalı mühərrikin faza itkisi zamanı asanlıqla prosesin başa çatdirilmasını bərpa edə bilir.

Ədəbiyyat

1. Məmmədov, L.V. "Körpü sxemsiz düzləndiricilərdə güc əmsalının korreksiyası" / L.V. Məmmədov, F.V. Məmmədova // "Su nəqliyyatının problemləri" XIV Beynəlxalq elmi-texniki konfransın materialları, Bakı: -2019.- s.117-119.
2. Sultanov, E.F. "Gəmi elektrik avadanlığının texniki istismarı", Dərslik./ E.F. Sultanov., E.M. Məmmədov – Bakı: ADDA-2018.-284 s.
3. Соколвский, Г. Г. "Электроприводы переменного тока с частотным регулированием" / Г. Г. Соколовский – М.: ACADEMA, 2006. – 358 стр.
4. Дементьев, Ю. Н. "Асинхронный электропривод кранового механизма с микроконтроллерным управлением"/Изв. Вузов. Электромеханика – 2006. стр. 49–53.
5. Дементьев, Ю.Н., Однокопылов Г.И., Однокопылов И.Г. "Асинхронный электропривод кранового механизма с микроконтроллерным ограничителем грузоподъемности" // Изв. Вузов. Электромеханика, №3, 2006, с.: 49-53.
6. Орлов, Ю.А., Дементьев, Ю.Н., Однокопылов, Г.И., Орлов, Д.Ю., Однокопылов, И.Г., Столяров, Д.П. "Система защиты мостового крана на основе мониторинга параметров электропривода механизма подъема" // Известия ТПУ, № 4, 2008 – Томск: Изд-во ТПУ, -2008, -с. 119-124.

Məqalə qəbul olunub: 12.03.2021
Tövsiyə ediblər: t.e.d., prof. A.M. Qafarov

UOT 621.18 -029:62

GƏMİ İSTİLİK MÜBADİLƏ APARATLARININ EFFEKTİVLİYİNİN ARTIRILMASI

Rzayev M.Ə.

Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ1000, Bakı şəh., Z.Əliyeva küç., 18
E-mail: maqammedrzayev@yandex.ru

Xülasə. *İstilik mübadilə aparatlarının (İMA) effektivlik kriteriyası təhlil olunmuşdur. İsbat olunmuşdur ki gəmi istilik mübadilə aparatlarının effektivliyi qiymətləndirilməsində vahid kriteriya yoxdur. İstilik mübadilə aparatlarının optimallaşdırma tapşırığından asılı olaraq müxtəlif effektivlik kriteriyası istifadə oluna bilər. Gəmi İMA-nın optimallaşdırılmasında da İMA-nın təyinatından asılı olaraq optimallaşdırmanın məqsədi müxtəlif ola bilər. Baş mühərrikin havasoyuducusu üçün optimallaşdırmada məqsəd havanın temperaturun ətraf mühitin temperaturuna qədər azaltmaq (istismar tapşırığı) və onun kompaktlığı (qismən texniki-iqtisadi tapşırıq) olacaq, ancaq su-su soyuducusu üçün isə optimallaşdırmada məqsəd su-su soyuducusundan sonra şirin suyun*

temperaturun verilmiş həddə saxlamaq (55-60 ^oC) və soyuducu boruların daxıldən çirklənməsinin qarşısını almaq (istismar tapşırığı) və onun kompaktlığı (qismən texniki-iqtisadi tapşırıq) olacaqdır. İsbat olunmuşdur ki, İMA-nın təyinatından asılı olmayaraq onların kompaktlığının təmin edilməsi əsas tapşırıqlardan biridir. Ona görə də İMA-da turbulizatorlu boruların istifadəsi, bütün hallarda onların effektivliyinin artmasını təmin edir. Gəmi istilik mübadilə aparatlarının effektivliyinin artırılması üçün tövsiyələr işlənmişdir.

Abstract. *The efficiency criteria of heat exchangers were analyzed. It has been proved that there is no single criteria for evaluating the efficiency of ship heat exchangers. Different efficiency criteria can be used depending on the task of optimizing heat exchangers. In ship of heat exchangers optimization, the purpose of optimization may be different depending on the purpose of the of heat exchangers. The optimization for the main engine air cooler will be to reduce the air temperature to ambient temperature (operating task) and its compactness (partial feasibility task), but for the water cooler the optimization goal is to maintain the fresh water temperature after the water cooler (55-60 ^0C) and the prevention of internal contamination of the cooling pipes (operational task) and its compactness (partial feasibility study). It has been proved that one of the main tasks is to ensure the compactness of heat exchangers, regardless of their purpose. Therefore, the use of turbulizer tubes in the of heat exchangers increases their efficiency in all cases. Recommendations have been developed to increase the efficiency of ship heat exchangers.*

Аннотация. *Анализированы критерии эффективности теплообменного оборудования (ТО). Доказано, что единственного критерия оценки эффективности судовых теплообменников не существует. В зависимости от задачи оптимизации теплообменников могут использоваться разные критерии эффективности. При оптимизации ТО судна, цель оптимизации может быть разной в зависимости от назначения ТО. Оптимизация воздухоохладителя главного двигателя будет заключаться в снижении температуры воздуха до температуры окружающей среды (эксплуатационная задача) и его компактности (задача частичной осуществимости), но для водо-водяного охладителя цель оптимизации заключается в поддержании температуры пресной воды после водяного охладителя (55-60 ^oC) и предотвращении внутреннего загрязнения холодильных труб (эксплуатационная задача) и его компактности (частично технико-экономическое обоснование). Доказано, что одной из основных задач является обеспечение компактности ТО вне зависимости от их назначения. Таким образом, использование трубок турбулизатора в ТО увеличивает их эффективность во всех случаях. Разработаны рекомендации по повышению эффективности судовых теплообменников.*

Açar sözlər: *istilik mübadilə aparatları, effektivlik göstəricisi, optimallaşma, istilikmübadilə səhti, intensivləşdirmə*

Key words: *heat exchangers, efficiency indicator, optimization, heat exchange surface, intensification*

Ключевые слова: *теплообменный аппарат, показатели эффективности, эффективность, оптимизация, поверхность теплообмена, интенсификация*

Giriş. Gəmiçilik praktikasında müxtəlif təyinatlı və konstruksiyalı istilik mübadilə aparatları (yağ soyuducu, hava soyuducu, su-su soyuducusu və s.) geniş istifadə olunur. Gəmi istilik mübadilə aparatlarının effektivliyinin artırılması problemi həmişə aktual olmuş və bu gün də həm nəzəri, həm də praktiki baxımdan aktual olaraq qalır.

İstilik mübadilə aparatlarının (İMA) layihələndirilməsi zamanı əsas tapşırıq onun qabaritinin və metal tutumunun minimal olmasıdır. Bu tapşırıq istilik mübadiləsi prosesinin intensivləşdirilməsi ilə əldə olunur. Lakin bu zaman istilikdaşıyıcının hərəkətinə sərf olunun xərc arta bilər. Ona görə də İMA-nın mükəmməliyini xarakterizə edən zaman onun effektivlik göstəricisinin düzgün seçilməsi başlıca amil hesab olunur.

İşin məqsədi. Gəmi İMA-nın tipindən asılı olmayaraq onlara verilən əsas tələb onun effektivliyinin yüksək olmasıdır. Bu baxımdan İMA-nın effektivlik kriteriyasının təhlili və gəmiçilik təcrübəsində İMA-nın effektivliyinin artırılması aktual hesab olunur. Bu məqsədilə işdə İMA-nın effektivlik kriteriyaları və onun artırılması problemi elmi-nəzəri və praktiki baxımdan təhlil olunub.

Əsas hissə. Gəmi İMA-nın layihələndirilməsində və istismarında effektivlik, yaxud optimallaşdırma kriteriyasına diqqət verilməlidir. İMA-da optimallaşdırmanın məqsədi müxtəlif ola bilər:

-termodinamiki;
-texnoloji;
-konstruktiv;
-istismar;
-qismən texniki-iqtisadi;
-tam texniki-iqtisadi.

İMA-nın effektivlik göstəricisinin qiymətləndirilməsi sahəsində elmdə birmənalı fikir yoxdur [1. s.12-45]. Belə ki, İMA-nın optimalaşdırılması tapşırığı çoxkriteriyalıdır və eyni zamanda müxtəlif tələblər əksistiqamətli ola bilər. Bu tapşırığın həlli yollarından biri müxtəlif kriteriyaların xüsusi çəki əmsalı nəzərə alınmaqla məqsəd funksiyasının qurulması ola bilər.

$$\mathrm{Z} = F + \mathrm{Consept\ x\ P} = \min \tag{1}$$

Burada: F – İMA-nın istilikmübadilə səhtinin sahəsidir, m^2.

P – İMA-da istilikdaşıyıcının hərəkətinə sərf olunan enerjidir, Vt.

$\mathrm{Consept}$ – çəki əmsalıdır.

Stasionar İMA-ın layihələndirilməsində uzunmüddətli istismar zamanı İMA-da istilikdaşıyıcının hərəkətinə sərf olunan enerjinin (P) azalmasına diqqət verilir, bu zaman çəki əmsalı (Consept) böyük qiymətə malik olur.

Modul və nəqliyyat (gəmi) İMA-da isə qabaritin və metal tutumunun azalmasına üstünlük verilir. Bu halda isə çəki əmsalı (Consept) kiçik qiymətə malik olur.

İMA-nın effektivlik kriteriyası kimi ilk dəfə akademik M.V.Kirpiçev, XX əsrin 40-cı illərində energetik kriteriyanın istifadəsini təklif etmişdir.

$$Eo = Q/N \tag{2}$$

Burada: Q – İMA-da mübadilə olunan istilik miqdarıdır.

N – İMA-da istilikdaşıyıcının hərəkətinə sərf olunan gücdür.

Daha sonra V.M.Antufyeva İMA-nın effektivliyinin qiymətləndirilməsi üçün M.V.Kirpiçevin təklif etdiyi kriteriyaya analoji kriteriya təklif etdi.

$$E = \alpha/N_0 \tag{3}$$

Burada: N_0 – İMA-da istilikdaşıyıcının hərəkətinə sərf olunan xüsusi gücdür.

$$N_0 = N/F \tag{4}$$

N – İMA-da istilikdaşıyıcının hərəkətinə sərf olunan gücdür.

F – İMA-nın istilikmübadilə səhtinin sahəsidir.

α – İMA-da istilikvermə əmsalıdır.

$$\alpha = Q/\Delta tF \tag{5}$$

Sonuncu (4) və (5) ifadələrini (3)-də nəzərə alsaq alarıq.

$$E = Q/\Delta tN \tag{6}$$

İMA-nın effektivlik kriteriyası üçün akademik M.V.Kirpiçevin təklif etdiyi (2) ifadəsində (4) və (5) tənliklərini nəzərə alsaq aşağıdakı ifadəni alarıq.

$$Eo = \alpha\Delta tF\ /N_0 \tag{7}$$

İMA-nın effektivlik kriteriyasının qiymətləndirilməsi üçün istilik faydalı iş əmsalı (F.İ.Ə), temperattur F.İ.Ə, istilik effektivliyi, istilik-hidravlik effektivlik və eksergetik effektivlik kriteriyaları tətbiq olunur.

İMA-nın istilik və istilik-hidravlik effektivlik göstəricilərini, uyğun olaraq (8) və (9) ifadələri ilə təyin etmək olar.

$$\frac{Nu}{Nu_0} = f(Re) \tag{8}$$

$$\frac{\frac{Nu}{Nu_0}}{\frac{\zeta}{\zeta_0}} = \mathrm{f(Re)} \tag{9}$$

Burada: Nu, Nu_0, ζ və ζ_o - uyğun olaraq, İMA-nın turbulizatorlu və hamar borulu istilikmübadilə səhtlərində Nusselt kriteriyası və hidravlik müqavimət əmsalıdır.

İMA-nın optimallaşdırılmasında (effektivliyinin qiymətləndirilməsində) eksergiya kriteriyasını (10) ifadəsi ilə təyin etmək olar [2. s.13-15].

$$f = F/E \tag{10}$$

Bu formulada E qiymətini Gyu-Stodol formulu ilə və Q-dən asılılığını, uyğun olaraq (11) və (12) ifadələri ilə təyin etmək olar

$$E = \Delta S T\text{ət} \tag{11}$$

$$E = Q\tau_e \tag{12}$$

Eksergiya temperatur funksiyası (τ_e) İMA ilə ətraf mühit ($T\text{ət}$) arasında asılılıq funksiyasını xarakterizə edir və (13) ifadəsi il təyin olunur.

$$\tau_e = \frac{T - T\text{ət}}{T} = 1 - \frac{T\text{ət}}{T} \tag{13}$$

Yuxarıda göstərilən (5), (12) və (13) ifadələrini (10)-da nəzərə alsaq İMA-nın optimallaşdırılmasında (effektivliyinin qiymətləndirilməsində) eksergiya kriteriyasını (14) ifadəsi ilə təyin etmək olar.


$$\mathrm{f} = 1/\alpha \Delta t \tau_e \tag{14}$$

İMA-nın optimallaşdırılması (effektivliyinin qiymətləndirilməsi) kriteriyalarını ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki bütün hallarda effektivlik kriteriyasının qiymətləndirilməsində İMA-nın istilikmübadilə səhtlərində istilikvermə əmsalı (α) həlledici təsirə malıkdir. Bu baxımdan istilikvermə əmsalının qiymətinin artırılması İMA-nın optimallaşdırılması (effektivliyinin qiymətləndirilməsi) kriteriyasının artmasına müsbət təsir edir. Ona görə də İMA-nın layihələndirmə və istismar mərhələlərində istilikvermə əmsalının (α) artırılması diqqətdə saxlanılmalıdır. Layihə mərhələsində istilikvermə əmsalının (α) artırılması məqsədilə istilikmübadiləsinin intensivləşdirilməsinə zəruridir. Bu məqsədlə müxtəlif intensifikatorlaşma metodları istifadə oluna bilər. Lakin nəzərə almaq lazımdır ki istilikmübadiləsinin intensivləşdirilməsinin bütün hallarında axının hidrodinamikası dəyişir və nəticədə İMA-da istilikdaşıyıcının hərəkətinə sərf olunan xüsusi güc artacaq. Ona görə də İMA-nın optimallaşdırılması (effektivliyinin qiymətləndirilməsi) kriteriyası qiymətləndirən zaman, əvvəlcə optimallaşdırmanın məqsədi dəqiqləşdirilməli, daha sonra kriteriya seçilməlidir.

Gəmi İMA-nın optimallaşdırılmasında da İMA-nın təyinatından asılı olaraq optimallaşdırmanın məqsədi müxtəlif ola bilər (məsələn: havasoyuducu üçün optimallaşdırmada məqsəd havanın temperaturunun ətraf mühitin temperaturuna qədər azaltmaq (istismar) və onun kompaktlığı (qismən texniki-iqtisadi) olacaq, su-su soyuducusu üçün isə optimallaşdırmada məqsəd su-su soyuducusundan sonra şirin suyun temperaturunun verilmiş həddə saxlamaq (55-60 ^oC) və soyuducu boruların daxıldən çirklənməsini qarşısının alınması (istismar) və onun kompaktlığı (qismən texniki-iqtisadi) olacaqdır.

Sonuncu (14) ifadəsindən göründüyü kimi, gəmi İMA-da isilikötürməni intensivləşdirməklə eksergiya kriteriyasına (f) görə İMA-nın optimallaşdırılmasını təmin etmək olar. Bu məqsədlə borulu İMA-da hamar boruların əvəzinə turbulizatorlu borulardan istifadə etmək olar. Turbilizatorlar müxtəlif ola bilər [3. s.13-15]. Turbilizatorun tipindən asılı olaraq hesabat formulası da dəyişir. Gəmiçilik təcrübəsində tətbiq etmək üçün borununun en kəsiyi boyunca həlqəvari daxilə basıq

turbulizatorun istifadəsi daha məqsədəuyğundur. Belə ki, bu halda turbulizatorun hazırlanması və istismarı nisbətən asandır (şəkil).



Şəkil. *Borununun en kəsiyi boyunca həlqəvari daxilə basıq turbulizatorlu boru*
D-borunun xarici diametri, h- turbilazatorun hündürlüyü (h= $\frac{d-d_1}{2}$*),*
d- borunun daxili diametri, t-turbulizatorun addımı

Şəkildə təqdim olunan turbulizatorlu boruda axının hərəkət rejimindən, turbulizatorun addımından (t) və turbulizatorun hündürlüyündən asılı olaraq Nusselt kriteriyasını hesablamaq olar.

Gəmi İMA-nın layihələndirmə və zavod təmiri zamanı turbulizatorlu boruları istifadə etməklə onların səmərəliyinin artırmaq olar. Bu məqsədlə (9) formulasında göstərildiyi kimi iki amili - turbulizatorlu borularda hidravlik müqavimətin və Nusselt kriteriyasının hamar borulara nisbətən artımını nəzərə almaq lazımdır. Əgər (9) formulasındakı şərt ödənilərsə, bu o deməkdir ki (14) formulasına uyğun olaraq İMA-nın səmərəliyinin artması təmin olunacaq.

